**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 13 (6056) 19 aprel 2024-cü il | Qiyməti 40 qəpik


# Sülhməramlılar niyə vaxtından əvvəl çıxarıldı?



**Azərbaycan Prezidentinin köməkçisi - Azərbaycan Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Rusiya sülhməramlılarının Azərbaycan ərazisindən çıxarılması barədə danışıb.**

**Adalet.az xəbər verir ki, H. Hacıyev məlumatla əlaqədar AZƏRTAC-ın sualını cavablandırıb.**

**- Mediada gedən məlumata və Rusiya Federasiyası tərəfindən verilmiş rəsmi açıqlamaya görə, Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlılarının çıxarılması prosesinə başlanılmışdır. Bu məlumatı necə şərh edərdiniz?**

**- 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, Azərbaycan Respublikasının ərazisində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya Federasiyası sülhməramlılarının ölkəmizin ərazisindən vaxtından əvvəl çıxarılması barədə hər iki ölkənin ali rəhbərliyi tərəfindən qərar qəbul edilmişdir. Artıq proses başlanılmışdır, Azərbaycan və Rusiya Müdafiə nazirlikləri həmin qərarın icrası ilə bağlı müvafiq tədbirləri həyata keçirirlər.**

## Ərdoğan: "Ölkəni idarə edəcəklərini düşünürlər"

**”81 əyalətimizdə yalnız bir ittifaq var, o da Prezident və Nazirlər Kabinetidir”.**



Adalet.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan AK Partiyanın qrup toplantısında deyib.

Ərdoğan mart ayının 31-də keçirilən yerli idarəetmə seçkilərindən danışıb: ”Bu seçkilərin ilk diqqət çəkən xüsusiyyəti iştirak səviyyəsinin aşağı olmasıdır. 31 Mart seçkiləri 78 faiz iştirak nisbəti ilə yerli seçkilər olaraq qeyd edildi. ”Nəticələrə baxanda görürük ki, bunun yerli seçki olduğunu unudub ”şımaranlar” var. O yazıqlar yerli seçkilərlə ölkəni idarə edəcəklərini düşünürlər. Bəziləri Türkiyədə yerli hakimiyyət və mərkəzi güc adlandıraraq ikili bir quruluş yaratmağa çalışırlar. Bu, sadəcə bir xəyaldır”.

## AĞDAM BOYDA ADAM




**Ağdamlılar millət vəkili, yazıçı Aqil Abbasa öz sevgilərini belə izhar edirlər. Aprelin 20-si saat 12.00-da Ağdam Muğam Mərkəzində yazıçının yaradıcılıq gecəsinə həsr olunacaq tədbirin afişalarına elə beləcə də yazıblar.**



**Görkəmli ictimai xadim, tanınmış ziyalı, gözəl insan, sədaqətli dost Hadı Rəcəbli dünyasını dəyişdi.**

**Mərhumun əzizlərinə, dostlarına dərin hüznlə başsağlığı veririk.**

**Aqil ABBAS**

## İran XİN: Azərbaycanın Tehrandakı səfirliyi fəaliyyətini bərpa edəcək

**Azərbaycanın Tehrandakı səfirliyinin fəaliyyəti tezliklə bərpa olunacaq.**



Adalet.az İSNA-ya istinadən xəbər verir ki, bu barədə İran XİN-in sözçüsü Naser Kənani aprelin 15-də keçirdiyi brifinqdə deyib.

O bildirib ki, bununla bağlı tərəflər arasında razılıq əldə olunub.

Nazirlik rəsmisi həmçinin qeyd edib ki, İran Bakı yeni səfir təyin etməyə hazırdır. Çünki fəaliyyətdə olan səfir Seyid Abbas Musəvinin səlahiyyət müddəti artıq başa çatıb.

Qeyd edək ki, 2023-cü il yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumu olub. Terroru törədən İran vətəndaşı Yasin Hüseynzadə ”Kalaşnikov” markalı avtomat silahla mühafizə postunu yararaq, mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirib. Səfirliyin mühafizə xidmətinin iki əməkdaşı isə hücumun qarşısını alarkən yaralanıb.

Bundan sonra Azərbaycan Tehrandakı səfirliyinin fəaliyyətini tamamilə dayandırıb, bütün diplomatlarını İrandan çıxarıb.

## Saxta nömrələrdən zəng gələrsə, diqqətli olun



**Sumqayıt şəhərində polis əməkdaşları tərəfindən ictimai iaşə obyektlərinin və bankomatların ətrafında vətəndaşları, xüsusən təqaüd yaşına çatmış insanların kibermaarifləndirilməsi məqsədi ilə məlumatverici lövhələr quraşdırılıb.**

Adalet.az xəbər verir ki, bu lövhələrdə kiberdələduzluqla məşğul olan cinayətkar şəxslərin ən çox istifadə etdiyi üsullar barədə ətraflı məlumat yerləşdirilib. Qeyd edək ki, son dövrlər bəzi şəxslər tərəfindən vətəndaşlara xüsusilə saxta xarici nömrələrdən zənglər edilməklə onların şəxsi bank kart məlumatlarının əldə edilməsi hallarına rast gəlinməkdədir. Daxili İşlər Nazirliyi bu hallara qarşı vətəndaşları diqqətli olmağa çağırır və qeyd edilən kibercinayətkarlıq halları ilə üzləşdikləri təqdirdə polisə məlumat vermələrini tövsiyə edir.


**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**


# İRAN, BİR AZ KƏNDİNƏ GƏL



***İran qüdrətli dövlətdir, 90 milyona yaxın da əhalisi var və onların hamısı da bir bayraq altında birləşib. Təxminən nə vaxtsa 230 milyonluq Sovet xalqı necə bir bayraq altında, bir ideologiyada birləşmişdisə, indi İranda da elədir. Az-çox fərq var. O vaxt Sovet İttifaqında Stalin vardı, indi İranda Xameneidir. Və Stalin Xameneidən çox-çox güclü fiqurdur. Sovet xalqlarını kommunist ideologiyası birləşdirmişdi, bu gün İranı İslam ideologiyası, daha dəqiq desək, şiə ideologiyası birləşdirir.***

***Və sonra məlum oldu ki, kommunist ideologiyası saxta, Avropanın Leninə sırıdığı saxta bir ideologiyadır, axırda puç oldu.***

***Və əslində şiə ideologiyası da Avropanın İrana sırıdığı saxta bir ideologiyadır, yəni İran əsl şiə dövləti deyil. İran şiə dövləti olsaydı Ermənistanla və ermənilərlə bir ittifaqda olmazdı. Və əhalisinin 80 faizindən çoxu şiə olan Azərbaycana qarşı düşmənçilik eləməzdi. Daha dəqiq desək, məscidlərimizdə donuz saxlayan Ermənistana və ermənilərə bütün gücü ilə dəstək verməzdi.***


**Bax:səh-3**


## GÜNÜN LƏTİFƏSİ

Vəli Xramçaylı yaxşı əhval-ruhiyyədədi.

Aqil müəllim:

**- Vəli, xeyir ola, genə kefin yuxarıdı?**

Vəli:



**- Hə qağa, cavan vaxtı fikirləşirdim ki, 50 yaşına çatana kimi, çoxlu pulum olar, iki mərtəbəli villam olar, xarici maşınım olar, ahıl vaxtımda kef çəkərəm. İndi sevinirəm, nə yaxşı heç olmasa arzumun birinə - 50 yaşa çata bilmişəm.**

# Prezident sərəncam imzaladı



**Prezident İlham Əliyev "Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb.**

2023-cü il noyabrın 10-da Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının Gənclər Forumu İcraiyyə Şurasının 11-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri yekdilliklə İslam Əməkdaşlıq Təşkilatının "Gənclər Paytaxtı 2024" Beynəlxalq Proqramına 10-cu ev sahibi seçilib.

Sərəncama əsasən, Nazirlər Kabinetinə Şuşa şəhərinin 2024-cü il üçün "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi ilə bağlı fəaliyyət planı hazırlayıb həyata keçirmək və bu Sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb.

# Filippin Prezidenti Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb

**Filippin Respublikasının Prezidenti Ferdinand Markos Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.**

Məktubda deyilir:

"Zati-aliləri.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Filippin hökuməti və xalqı adından Sizə ən səmimi təbriklərimi çatdırıram.

Sülhün və sabitliyin qorunub saxlanılması, Azərbaycan dövləti və xalqı üçün daha çox inkişafa, rifaha nail olunması kimi vacib missiyanızda Sizə uğurlar arzulayıram.

Xalqlarımızın mənafeyi naminə qarşılıqlı maraq doğuran sahələrdə birgə çalışaraq Filippin ilə Azərbaycan arasında daha sıx ikitərəfli əlaqələrin inkişaf etdirilməsinə sadiqliyimi bir daha təsdiq edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm".

# Əfv Məsələləri Komissiyasının iclası keçirildi

**Azərbaycan Respublikasının Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda komissiyaya daxil olan 100-dən artıq müraciətə baxılıb.

Bu il komissiya 700-dən çox müraciətə baxacaq. Burada qadınlar, əcnəbilər, hərbi qulluqçular, yol- nəqliyyat hadisələri, ömürlüklərlə və s. bağlı müraciətlərə baxılacaq. İlk iclasda 100-dən artıq müraciətə baxılıb.

Bundan əvvəlki iclasda da 100-dən artıq müraciətə baxılmışdı.

Qeyd edək ki, indiyə qədər 69 Əfv sərəncamı və 12 Amnistiya aktı imzalanıb.

Sonuncu sərəncam 8 may 2023-cü il tarixdə imzalanıb. Məhkum edilmiş bir sıra şəxslərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə əfv olunması haqqında sərəncam imzalanıb. Sərəncama əsasən 801 məhkum əfv olunmuş, onlardan 463 şəxs azadlıqdan məhrum etmə cəzasından, 220 şəxs azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin yarısından, 118 nəfər azadlıqdan məhrum etmə ilə bağlı olmayan digər cəzalardan (azadlığın məhdudlaşdırılması, islah işləri, cərimə cəzaları və cəzaya şərti məhkum edilmiş şəxslər) azad edilib.

# XİN-dən Fransaya xəbərdarlıq: Bakı bütün zəruri tədbirləri görəcək

**"Məhz Azərbaycanın razılığı əsasında Fransanın 25 ilə yaxın müddətdə vasitəçilik roluna baxmayaraq, bu ölkənin 2020-ci il Vətən müharibəsindən sonra açıq-aşkar anti-Azərbaycan addımları hər kəsə məlumdur".**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib.

Fransa tərəfinin Azərbaycanı birtərəfli hərəkətlərdə təqsirləndirməsinə baxmayaraq, ölkəmizin Fransaya qarşı addımları və verdiyi rəsmi bəyanatlar yalnız bu ölkənin destruktiv fəaliyyətinə cavab xarakterli olub. Ölkəmizə qarşı qarayaxma kampaniyasına baxmayaraq, tərəfimizdən hər zaman dialoq qapıları açıq saxlanılıb.



Fransa xüsusilə son 3 il yarım müddətdə atdığı addımlar ilə Azərbaycanla Ermənistan arasında suverenlik və ərazi bütövlüyü əsasında əlaqələrin normallaşdırılması səylərini ciddi şəkildə sual altına qoyub və vəziyyətin gərginləşməsinə rəvac verib.

Fransanın BMT Təhlükəsizlik Şurasında, Avropa İttifaqı, Frankofoniya kimi təşkilatlarda və digər beynəlxalq platformalarda dəfələrlə Azərbaycan əleyhinə sənəd layihələrinin təşəbbüskarı olması, bu ölkənin bitərəf vasitəçi iddialarının tamamilə əsassız olduğunu sübut edib.

Məhz Fransada hakim partiyanın nümayəndələrinin təşəbbüsü ilə Fransa Parlamentində ölkəmizə qarşı çoxsaylı əsassız ittihamların, təhqir və təhdidlərin əks olunduğu, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini sual altına qoyan və xələl gətirən, keçmiş qondarma rejimi tanıyan qərar və qətnamələr qəbul edildiyini xatırlatmaq istərdik.

Bu müddət ərzində Fransa ərazisində mövcud olan Azərbaycanofob mühitin nəticəsi olaraq səfirliyimizə qarşı dəfələrlə hücumların edilməsi və səfirliyin binasına zərər yetirilməsi, nəhayət ağlasığmaz addım kimi 19-cu əsr görkəmli Azərbaycan şairəsi Xurşidbanu Natəvanın büstünə qarşı vandallıq aktlarının törədilməsi və hökumət tərəfindən bunun qarşısının alınması üçün tədbirlər görülməməsi Fransanın Azərbaycan əleyhinə kampaniyasının tərkib hissələridir.

Eyni zamanda, Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyini və ev sahibliyini hədəf alan çağırışlar edən Fransanın Azərbaycanı birtərəfli addımlarda təqsirləndirməsi tam əsassızdır.

Bununla yanaşı, Ermənistanın geniş şəkildə silahlanmasını həyata keçirən, bölgədə militarizmi təşviq edən Fransanın addımlarının sülhə xidmət etmədiyi gün kimi aydındır.

Azərbaycan tərəfi dəfələrlə Fransaya təhdid və təzyiq dili ilə danışmağın heç bir nəticə verməyəcəyini bildirib və öz milli maraqlarının qorunması üçün bütün zəruri tədbirlər görəcəyini bir daha bəyan edir.

# *Bayden bilərəkdən səssiz qaldı*

**İranın İsrailə hücumundan sonra, ABŞ prezidenti Co Bayden guya vəziyyəti gərginləşdirməmək üçün bilərəkdən kölgədə qalmağa üstünlük verdi.**

Politico qəzeti yazır ki, "Baydenin Yaxın Şərqdəki gərginliklə bağlı amerikan autoriyası qarşısında çıxış etməklə bağlı dəqiq fikri yox idi... Geniş auditoriyaya telemüraciətində, prezident tədbirlərində bununla bağlı çıxış etməsi, eskalasiyanı daha da gərginləşdirə və Tehranın qızışmasına səbəb ola bilərdi"- deyə məqalədə bildirilir.

Xəbər verdiyimiz kimi, İran pilotsuz uçuş aparatları və ballistik raketlərlə İsrailə hücum cəhdi həyata keçirdi. İsrail hərbiçiləri müttəfiqlərinin də köməkliyi ilə bu raketlərin çoxunu elə havada məhv elədi.

İsrailin baş naziri Benyamin Netanyahu qeyd etdi ki, hücumların qaşısı müvəffəqiyyətlə alınnıb. The New York Times bildirir ki, Netanyahu ABŞ prezidenti ilə danışıqlardan sonra, İrana hücum etməkdən vaz keçib (Daha doğrusu "xozeyn" İrana hücum etməyə icazə verməyib).

İranın xarici işlər naziri Hüseyin Əmir Əbdüllaxanian bəyan edib ki, İsrailə edilən hücumlar məhdud xarakter daşıyıb və dinc əhaliyə zərər gəlməməsi üçün hədəflər yalnız hərbi obyektlərə yönəlib.

Daha sonra isə nazir, Vaşinqtonu İsrailə kömək etməməyə çağırıb, əks halda ABŞ-ın Yaxın Şərqdəki hərbi bazalarına hücum etməklə hədələyib.

**Əslində Birləşmiş Ştatların İranla İsrail arasında irimiqyaslı müharibənin başlamasında marağı yoxdur. Ağ Evin məqsədi Yaxın Şərqdə münaqişənin elə bu vəziyyətdə mümkün qədər uzadılmasıdır. Çünki münaqişə uzandıqca, region dövlətləri bütün sahələr üzrə gücdən düşür və zəifləyir, belə olan halda isə onları asılı vəziyyətə salmaqla idarə etmək asanlaşır...**

**Rüstəm Hacıyev**

*Elxan Şükürlü*



# *Bizim savaşımız itlərlə yox, o itlərin sahibləriylədir!*

***Bu, həyatımızın öyrətdiyi təcrübədir: bir itin sahibi ilə dalaşırsansa, həmin vaxt onun yanındakı itin üzərinə diş qıcayıb hürməsinə də normal baxmalı və buna həmişə hazır olmalısan!***

***Dostlar, bizim savaşımız itlərlə və ya həyatda özünə it rolu seçmişlərlə yox, o itlərin sahibləriylədir!***

***İnşallah, bir gün sahiblərinin başını əzdikdən sonra, bu it sürüsünün əniklərinin də, qancıqlarının da səsi birdəfəlik kəsiləcək, əmin olun! İctimailəşdirmək və diqqətinizi yönəltmək istədiyim vacib bir məsələ var: mən hələ görmədim ki, yazılarım və efirdə səsləndirdiyim fikirlərlə bağlı məni bu ölkənin gələcəyini düşünən namuslu, əxlaqlı, həqiqi vətənpərvər və ağıllı insanları tənqid etsinlər, tutduğum yolun yanlış olduğunu desinlər, məni çəkindirsinlər!***

***Əksinə, ağlına və vətənpərvərliyinə şübhə etmədiyim, ölkənin gerçək siyasi mənzərəsindən, bizi gözləyən risk və təhlükələrdən, yürüdülən rəsmi siyasətdən tam xəbərdar insanlar, dövlət xadimləri və siyasətçilər, mütəxəssislər fəaliyyətimizi, sabit və dayanıqlı mövqeyimizi təqdir edir, təhlillərimizin əksəriyyətiylə razılaşırlar.***

***O fakta da mütləq diqqət yetirmənizi istəyirəm: məni sosial şəbəkələr üzərindən tənqid və təhqir edənlərin və etdirənlərin, istisnasız olaraq, hamısı bu ölkənin ən ləyaqətsiz, əxlaqsız, binamus şəxsləri və ya qüsurlu ailələrindən çıxanlardır! Şübhəsiz ki, bunda da böyük bir hikmət var: bizim kimi insanlar həmişə belə zatıqırıqların, qanıxarabların, əyyaş həyatı sürən əxlaqsızların və binamusların hədəfində olub və olur! Bu da onlarla bizim aramızdakı sərhədin ayırıcı xətlərdir! Məni gah Rusiya, gah da İran "agenti" çıxarmaq, "vətən xaini" qismində cəmiyyətə təqdim edib gözdən salmaq və bununla düşüncələrimizi dəyişməyə söyq etmək üçün dərisi-qabığı soyulan, aylardır ətrafımda və sosial şəbəkələrdə primitiv "əməliyyat" qurub səs, raport və post yazan axmaqlar anlamır ki, mən içdiyi Hərbi Andın müqəddəsliyini ana südü bilən və ona sadiqliyini də heç vaxt unutmayan bir Azərbaycan zabitiyəm!***

***Məndən "vətən xaini" düzəltmək istəyən axmaqlar və ləyaqətsizlər sürüsü hələ də anlamırlar ki, əgər mən 4 ildir, - müharibə başlayandan üzü bu yana, - efirlərdə çıxış edir, yazdığım mövqeyi o efirlərdən də səsləndirirəmsə, deməli ki, dövlət üçün təhlükəli şəxs deyiləm!***

***Bunların məntiqiylə, mən "vətən xaini", "İran və Rusiya agenti"yəmsə, deməli, məni o efirlərə çağıranlar, yaxud həbs edib zərərsizləşdirməyənlərin də hamısı vətən xaini, Rusiya və İran agentləridir!***

***İşin ən maraqlı tərəfi də odur ki, mənə "vətən xaini" suçunu indi də dövlətimizdə yaşamağı bəyənməyib, ailəsiylə birgə başqa bir ölkəyə sığınan və o ölkənin qurumları qarşısında konkret öhdəliyi olan adamlara yazdırır, dedizdirirlər! Axmaqlığın, sarsaqlığın və əclaflığın, həqiqətən, hüdudu olmurmuş!***

# *BQXK Bakıda həbsdə olan separatçılara baş çəkib*



**Aprel ayında BQXK əməkdaşları Azərbaycan tərəfinin haqqında məlumat verdiyi erməni əsilli şəxslərə yenidən baş çəkiblər.**

Adalet.az xəbər verir ki, bu barədə BQXK-nın Azərbaycan nümayəndəliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri İlahə Hüseynova məlumat verib. Bildirilib ki, saxlanılan şəxslərlə təkbətək görüşlər keçirilib və onların ailələri ilə əlaqəsi üçün şərait yaradılıb.

Qeyd olunub ki, mandatına uyğun olaraq BQXK, bu cür başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir. BQXK həmçinin, şəxslərin ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nın prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır və müzakirə edilir.

**Xatırladaq ki, Azərbaycanın hüquq-mühafizə orqanları Qarabağda qondarma qurumun "prezidentləri" olmuş Arkadi Qukasyan, Bako Saakyan, Araik Arutyunyan, sabiq "xarici işlər naziri" David Babayan, eləcə də "parlament sədri" David İşxanyan, generallar Lyova Mnatsakanyan, David Manukyan və keçmiş "dövlət naziri" Ruben Vardanyanı həbs edərək Bakıya gətirib.**

# İRAN, BİR AZ KƏNDİNƏ GƏL

*İran qüdrətli dövlətdir, 90 milyona yaxın da əhalisi var və onların hamısı da bir bayraq altında birləşib. Təxminən nə vaxtsa 230 milyonluq Sovet xalqı necə bir bayraq altında, bir ideologiyada birləşmişdisə, indi İranda da elədir. Az-çox fərq var. O vaxt Sovet İttifaqında Stalin vardı, indi İranda Xameneidir. Və Stalin Xameneidən çox-çox güclü fiqurdur. Sovet xalqlarını kommunist ideologiyası birləşdirmişdi, bu gün İranı İslam ideologiyası, daha dəqiq desək, şiə ideologiyası birləşdirir.*

*Və sonra məlum oldu ki, kommunist ideologiyası saxta, Avropanın Leninə sırıdığı saxta bir ideologiyadır, axırda puç oldu.*







*Və əslində şiə ideologiyası da Avropanın İrana sırıdığı saxta bir ideologiyadır, yəni İran əsl şiə dövləti deyil. İran şiə dövləti olsaydı Ermənistanla və ermənilərlə bir ittifaqda olmazdı. Və əhalisinin 80 faizindən çoxu şiə olan Azərbaycana qarşı düşmənçilik eləməzdi. Daha dəqiq desək, məscidlərimizdə donuz saxlayan Ermənistana və ermənilərə bütün gücü ilə dəstək verməzdi.*

*Nə isə, özləri bilər, ermənilər bilər. Bu bizi çox ilgiləndirməz. İran bilər, Ermənistan bilər.*

*Amma nə olur-olsun biz İranın dağılmasını, məhv olmasını istəmirik. Bu heç də şiəliyə görə deyil. Birinci, müsəlman dövlətidir, ikinci, bu ölkədə 40 milyon azərbaycanlı yaşayır, üçüncü də qapıbir qonşumuzdu.*

*İndi İran ideoloji cəhətdən İsraildən güclü dövlətdir. Eləcə də hərbi və iqtisadi cəhətdən. Sadəcə olaraq, əgər müharibə olarsa dünyanın özündənrazı dövlətləri İsrailin tərəfində dayanacaq və İran təklənəcək.*

*Amma heç bir azərbaycanlı istəməz ki, İranda müharibə olsun. Birincisi, yuxarıda dediyim kimi, İranda 40 milyon azərbaycanlı müharibədən zərər çəkəcək, həm də bir müsəlman təəssübkeşliyi. Hərçənd ki İranda müsəlman təəssübkeşliyi yoxdur, olsaydı həmişə Ermənistanın yanında yer almazdı.*

*İran qonşu dövlətlərə xəbərdarlıq edib ki, hansı İsrail təyyarələri üçün öz hava məkanını açsa həmin dövlət onun düşmənidir və həmin dövləti bombalayacaq.*

*Yaxşı, bunu deyən İran necə olur ki, ABŞ və NATO ölkələrinə qapısını açan Ermənistanla dostluq edir? Əgər Ermənistanda ABŞ-ın başçılığı ilə NATO dövlətlərinin bazaları açılarsa ordan İranı bombalamaq, məhv etmək üçün daha hansısa başqa ölkədən icazə almaq lazım deyil və Ermənistandan İran şəhərlərini sapandla da vurmaq olar.*

*Təbii ki, biz istəmərik ki, qonşumuza od düşsün. Qonşuya od düşərsə o odun istisi bizi də vurar. Ən azı bir milyon azərbaycanlı canını qurtarmaq üçün Arazı keçmək məcburiyyətində qalar. Təbii ki, bu da özünün bir milyon məcburi köçkünü olan ölkəmizi çətin vəziyyətə salar. Həm də biz müsəlman dövlətiyik, istəmərik ki, bir müsəlman dövlətinin əhalisi qırılsın və işgəncələrə məruz qalsın. Hərçənd ki İran son 30 ildən sonra bizim, yəni bir müsəlman dövlətinin yanında deyil, ermənilərin yanında oldu və indi də ermənilərin yanındadı.*

*İranın ali rəhbər mollaları əmmamələrini qabaqlarına qoyub yaxşı-yaxşı fikirləşməlidir ki, kim onun dostu, kim onun düşmənidir.*

*Ermənistan qapılarını ABŞ və NATO-nun üzünə açıb, amma Azərbaycan və onun Möhtərəm Prezidenti Amerika və NATO-ya icazə vermədi ki, sən mənim ərazimdən istifadə edib İrana qarşı heç bir hərəkət edə bilməzsən. Ona görə ki, İran həm qapıbir qonşumdur, həm də müsəlman dövlətidir.*

# RUSİYA NÖVBƏTİ QƏLƏBƏ PARADINI HARDA KEÇİRƏCƏK?!





**ABŞ Sovet rəhbərliyinin maymaqlığından istifadə edib özünün agenti Mixail Qorbaçovu gətirdi İttifaqın başına, o da 3-4 ilin içində SSRİ-ni kişi qırığı kimi dağıtdı.**

İndi ABŞ və NATO dövlətləri yenə özünün agenti Volodimir Zelenskini Ukraynada hakimiyyətə gətirdi. Və Zelenski də ABŞ-ın təhrikiylə Rusiya ilə müharibəyə girişdi.

İndi ABŞ-ın və NATO dövlətlərinin istəyi odur ki, Ukrayna darmadağın olsun və bu müharibədə Rusiya da yanı üstə düşsün və yenidən parçalansın.

Napoleon da Rusiyanı məhv eləmək arzusu ilə bu ölkəyə hücum elədi və sonda ruslar qələbə paradını Parisdə keçirtdilər.

Hitler də bu arzu ilə SSRİ ilə müharibəyə başladı və cəmi 4 ildən sonra ruslar qələbə paradını Berlində keçirtdi.

Görən, indi Rusiya növbəti qələbə paradını Berlində keçirəcək, yoxsa Parisdə?

ABŞ uzaqdı, gedib orda parad keçirməyə ərinərlər.

# ABŞ İSRAİLƏ GÖZÜN AĞARDIB Kİ...

**İranla müharibəyə başlama, əlimizdə bir sürü işimiz var, hələ Ukraynanın zibilindən çıxa bilməmişik.**

İsrail də deyib ki, sən get öz işinlə məşğul ol, mən İranın hücumunu cavabsız qoymayacam. İran rəhbərliyi də deyib ki, əgər bizə Allahın bir bombasını atsan bu, cavabsız qalmayacaq və İsraili yer üzündən siləcəyik.

Beləliklə, ABŞ bunu dedi, İsrail bunu dedi, İran da bunu dedi, ortada da fındıq, altda qalanın canı çıxsın.

# GÜNƏŞİ ÖRTSƏ DƏ QARA BULUDLAR, YENƏ GÜNƏŞ ADLI BİR QÜDRƏTİ VAR



Saytların birində "Qarabağ"ın "Sabah"a uduzduğu oyun haqqında bir yazı gedib. Müəllif Azərbaycan futbolunun ağırlığını çiynində daşıyan, "Qarabağ"ı Avropanın "Top 50"liyinə salan, şöhrəti təkcə Avropada yox, dünyada yayılan Qurban Qurbanov haqqında ağlına və ağzına gələn nə var yazıb və Qurban Xocaya xeyli böhtan atıb. Az qala müstəntiq kimi Xocanı ittiham edib.

Jurnalistdi, azad mətbuatdı öz subyektiv fikirlərini yazıb, özü də həqiqətdən çox uzaq. Bu yazı da sosial şəbəkələrdə paylaşılıb. Yazını qoyuram bir kənara, altında trollar töküşüb, özü də saysız-hesabsız və bu dəfə onlar ağıllarına gələni yox, ağızlarına gələni yazıb. Özü də təkcə böhtan yox, təhqir də ediblər.

Futbol belə şeydi də, dünən çiynində gəzdirdiklərini sabah ayaqlarının altına atıb tapdalaya bilərlər. Amma kimi - Qurban Qurbanovu? Çempionatın qurtarmağına 8 tur qalmış Ölkə çempionu titulunu qazanan bir məşqçini? 10 nəfərlə "Bayer"in qapısına iki top vuran bir komandanın məşqçisini? Vay dədəm, vay, ölkədə nə qədər futbol "dahisi" varmış?!

Dahi dedim yadıma bir hadisə düşdü. Bir dəfə "Qarabağ" hansısa bir komanda ilə oynayırdı. Vaqif Cavadovun da ulduz vaxtları idi. Şərəf tribunasında oturub oyunu izləyirdik. Vaqifin atası, rəhmətlik Füzuli Cavadovla da yan-yana oturmuşduq. Yan-yörəmizdə oturanlar Vaqifin oyununu bərk tənqid edirdilər.

- Ötürməni düz vermədi.
- Topu gecikdirdi.
- Topa çatmadı.

Və sair və ilaxır. Füzuli müəllim axırda dözmədi, durdu ayağa, dedi:

- Burdakıların hamısı futbol dahisi imiş ki!

Və sonra oyunu yarımçıq tərk edib getdi.

İndi maşallah, Azərbaycanda hamı futbol dahisidi. Mən inanmıram belə yazılar və yazının altındakı mənasız şərhlər Qurban Qurbanovu çilədən çıxara.

Allah ona futbol istedadından başqa güclü səbr və təmkin verib.

Qurban Xoca futbolumuzun günəşidi, nə qədər trollar qara bulud kimi bu günəşi örtmək istəsələr də Qurban Xoca qüdrətini özündə saxlar.

# DEYƏSƏN, MƏN DEYƏN OLACAQ

*"Qəbələ" komandasının yüksək liqadan düşməsini heç istəmirəm. Ümumiyyətlə, mən əyalət komandalarının tərəfdarıyam, xüsusilə də "Qəbələ"nin. Bu şəhərdə futbol üçün Azərbaycanın özündənrazı komandalarında olmayan infrastruktur yaradılıb, akademiya yaradılıb, 4 stadion tikilib və sair və ilaxır.*

*Və yazmışdım, yaxşı olar ki, "Qəbələ" birinci divizyondan yüksək liqaya keçmək istəyən komandaların biri ilə pley-of oynasın. Əgər pley-ofda da bəxti gətirməsə day başqa sözüm yoxdur.*

*İndi mətbuatda oxuyuram ki, AFFA-nın yeni prezidenti Rövşən Nəcəf açıqlama verib ki, növbəti mövsümdə yüksək liqada klubların sayı 12-yə çatdırılacaq. Beləliklə, "Qəbələ"nin birinci divizyona düşmə ehtimalı sıfıra yaxınlaşır. Ya da uzaqbaşı, birinci divizyonun qaliblərinin biri ilə pley-of oynaya bilər.*

*Möhkəm ol, "Qəbələ"! Sən Azərbaycan futbolunda öz sözünü demiş bir klubsan və yenə də öz sözünü deyəcəksən.*

*Sənə uğurlar arzulayırıq!*

# DOVŞANIN AYIDAN ÜZR İSTƏMƏKLİYİ

**Deməli, İran İsrailə güc göstərisi yapandan və bu güc göstərisi alınmayandan sonra dərhal BMT-yə və ABŞ-a da bir "üzr" məktubu ünvanlayıb ki, bizim müharibə etmək istəyimiz yoxdur. Sadəcə olaraq, Dəməşqdəki konsulluğumuza İsrailin hücumunun intiqamını almaq istədik.**

Yadıma məşhur bir lətifə düşdü.

Dovşan hər gün gəlir çayın kənarına, çayın o üzündəki ayını çağırır:

***- Miş, miş...***

Ayı da tənbəl-tənbəl çıxıb soruşur ki, nədi ə, danbalaq?

Dovşan da ayının var-yoxu qalmır, söyür-söyür, ayı da ərinir çayı keçməyə və dovşan da çıxıb gedir. Ayı da yığılır boğaza, bir gün çayı keçir, gözləyir dovşan nə vaxt gələcək.

Dovşan da bütün qohum-əqrəbalarını yığır başına, gətirir çayın kənarına və deyir:

***- Siz ölün, ayının üzünə qarşı söyürəm qorxusundan mənə cavab verə bilmir.***

Və sonra durur çayın kənarında yenə bağırır:

***- Miş, miş...***

Ayı kolluqdan çıxır tutur dovşanın qulağından, qaldırır yuxarı və deyir:

***- Nə istəyirsən?***

Dovşan görür vəziyyət ingiliscədi, deyir:

***- Dyadya Miş, bütün qohum-əqrəbalarımı yığıb gətirmişəm ki, səndən üzr istəyim.***

İndi emblemi və totemi şir olan İran həmin dovşanın gününə düşüb.



Rüstəm Hacıyev

# ABŞ Yaxın Şərqi qarışdırmaqda israrlıdır

*Son günlər İranla İsrail arasında yaşanan gərginlik, nisbətən səngiməyə başlayır. Həm İran tərəfi, həm də İsrail tərəfi bu gərginlikdən "qalib" çıxdıqlarını bəyan edirlər.*

*Əslində isə "qalib tərəf" yenə ABŞ oldu. Yəni "kazinolarda" olduğu kimi, "fişkaları istər ağa düz, isyərsə də qaraya, udan yenə kazino olacaq"*

*Birləşmiş Ştatların Yaxın Şərqdə vəziyyəti gərginləşdirmək planları "bəhrəsini" verməkdədir. İsrailin Dəməşqdə İranının diplomatik korpusuna raket hücumu və bu hücumun nəticəsində həmin vaxt konsulluqda olan altı yüksək rütbəli İran hərbiçisinin qətlə yetirilməsi, İran rəhbərliyini cavab verməsk məcburiyyətində qoydu. İranın Ali dini rəhbəri bu hücuma ağır cavab veriləcəyini bəyan etdi və bu da təbii ki, ABŞ-ı narahat etməyə bilməzdi.*

*Bayden administrasiyası hərəkətlərini davam etdirməklə yanaşı, eyni zamanda "simasını " saxlamağa, böhranın daha da genişləndirilməsinə imkan verməməyə çalışır. Təbii ki, Vaşinqton İsrailə göstərdiyi dəstəyi dayandırmaq fikirində deyil, lakin eyni zamanda böhranın "qırmızı xətti" keçməsinə də imkan verməmək niyyətində deyil.*

*İranın özünün birbaşa İsrailə hücum edəcəyi gözlənilməsə də, bunu proksi-elementləri sayılan Yəmən Husilərinin, HƏMAS-ın, Livanda fəaliyyətdə olan "Hizbullahın" və yaxud da İraqdakı şiyə qruplaşmalarının əli ilə həyata keçirəcəyi heç kimdə, o cümlədən Birləşmiş Ştatlarda da şübhə doğurmurdu.*

*Okeanın o tayında da bilirdilər ki, İran bu qüvvələrdən istifadə edərək birbaşa və yaxud da ən azı zərbəyə qarşı zərbə ilə cavab verəcək.*

*Göründüyü kimi, İran İslam Respublikasına həm xaricdən, həm də daxildən ciddi təyziqlər var. Buna görə də, İran rəhbərliyi vəziyyəti obyektiv qiymətləndirməyə çalışır.*

*Ekspertlərin fikirincə, İranın bu günki gündə riskli, uzun davam edəcək müharibəyə iqtisadi gücü yetməyə bilər. Bunu yaxşı anlayan İran rəhbərliyi əsasən steateji qələbəyə köklənir. Lakin, İsrailə qisas zərbəsi endirməkdən geri çəkilmək fikirində olmadığını da nümayiş etdirirdi. "Qisas zərbəsi" raket hücumları ilə, və yaxud mobil qruplar tərəfindən də həyata keçirilə bilərdi ki, Tehran məhz dronlar və raket zərbələri ilə bunu etməyə çalışdı.*

*Bildiyimiz kimi, rəsmi Tehran uzun illərdir ki, İsraili "yer üzündən silməklə" hədələyirdi. Lakin hərbi ekspertlərin fikirincə, İran, hazırda iqtisadi təyziqlər altında bu prossesi başlamağa risk edə bilməz.*

*İranın dəstək verdiyi Fələstinin HƏMAS qruplaşması İsrail ordusuna və iqtisadiyyatına ciddi zərbələr vurmağı bacarır.*

*Amma göstərilən beynəlxalq kömək İsrailin hələ də ayaqda qalmasına güclü təkan verir. Ona görə də belə qənaətə gəlmək olar ki, vəziyyəti gərginləşdirmək heç bir halda İran planlarına daxil ola bilməz.*

*Netanyahu hökuməti isə, əksinə eskalasiyada maraqlıdır. Münaqişə uzandıqca, İsrail iqtisadi, siyasi və media sahələrində onun hökumətinə qarşı təyziqləri və təhdidləri ikinci plana keçirir. Ona görə də, Netantahu münaqişənin uzanmasını İrana hücum etməklə, yaxud Rəfaha qarşı hərbi əməliyyatlara başlamaqla, yeni səviyyəyə qaldırmaq istəyir.*

*Çünki Netanyahu bilir ki, vəziyyətin stabilləşməsi ölkədə onun hökumətinə qarşı etiraz dalğalarının və təyziqlərin artmasına gətirib çıxaracaq.*

*ABŞ-ın Yaxın Şərq üzrə çalışan institutları bütün bunları dəqiqliklə hesablayır, ona görə də məsələyyə ciddi yanaşır və "Vostok delo tonkoye" (Şərq incə məsələdir) prinsiplərindən yararlanaraq, planlarının nəzarətdən çıxmaması üçün ara-sıra müəyyən redaktələr etməyi də unutmurlar.*

*Onlar, hələ ki, Netanyahu hökumətini böhranın daha da qızışdırılması cəhdlərindən çəkindirməyi bacarırlar.*

*Görünən odur ki, ABŞ, Ukrayna cəbhəsində olduğu kimi, Yaxın Şərqdə də gərginliyi mümkün qədər uzatmağa çalışacaq, bunun üçün İran torpaqlarına əsgər göndərməkdən başqa, qalan bütün imkanlarından istifadə edəcək...*

*Gücdən düşmüş, zəifləmiş, böhran içində çabalayan hakimiyyətlərin, dövlətlərin üzərində hökmüranlıq etmək "Sem dayının" çoxdankı arzusudur... İnşallah arzusu gözündə qalar...*

Əntiqə Rəşid



# "Düşmənin ordusu qorxaqdır, amma biz qorxaq millət deyilik"-deyən erməni polkovnikə cavab

**2-ci Ordu Korpusunun Baş Qərargahının keçmiş komandir müavini, ehtiyatda olan polkovnik Mihran Maxsudyan "Hraparak" nəşrinə müsahibə verib.**

Jurnalistin "Siz uzun illər Silahlı Qüvvələrdə xidmət etmisiniz, əsgərlərimiz Tavuşda Azərbaycana təhvil veriləcək kəndlər uğrunda döyüşməyə hazırdırmı? sualını belə cavablandırıb:" Əminəm ki, hərbi-siyasi rəhbərlik döyüşə getmək əmri verərsə, Silahlı Qüvvələr qarşıya qoyulan vəzifəni yerinə yetirməyə hazırdır.

Hesab edirəm ki, xalq da torpağımızı, dövlətçiliyimizi, müstəqilliyimizi qorumaq üçün Silahlı Qüvvələrin yanında olacaq. Əminəm ki, ordu üzərinə düşən vəzifəni yerinə yetirəcək. Voskepar (Əskipara) kəndi1992-ci ildə Ermənistan üçün bir qapı idi və qələbənin simvolu idi. Kənd bu müharibədə də qələbə simvoluna çevriləcək. Mən öz xalqıma, erməni millətimə arxayınam. Biz birləşməliyik, birləşmək bizə lazımdır, artıq vaxt yetişib".

Daha sonra jurnalist "44 günlük müharibədə Azərbaycan ordusuna qarşı vuruşmusunuz, onların silahlı qüvvələrinin döyüş vəziyyətini və xarakterini necə xarakterizə edərdiniz? sualına bu dəfə



polkovnik "polnu" pafos püskürdüb. O deyib:" Azərbaycan ordusu qorxaqdır, bizim bir əsgərimiz onların 10 əsgərinə qarşı döyüşə bilər. Hazırda erməni ordusu 2020-ci ildə məğlub olduğu kimi deyil. Həmin müharibədə ordumuz bir neçə dövlətə qarşı döyüşüb. Azərbaycan milləti qorxaq idi, qorxaq olaraq qalır, məhz bu gün bizi qorxutmağa çalışırlar, amma biz qorxaq millət deyilik".

Erməni polkovnikin bu açıqlamasına xeyli şaqqanaq çəkib güləndən sonra bir faktı xatırlamağı özümə borc bildim. Deməli, s"arsaxın keçmiş bprezidenti, hazırda bizim "padvalımız"da çay içən Arayik Artyunyan müharibədən sonra FB -da yazırdı:" 44 günlük müharibə dövründə "Hadrutdan 1500 erməni hərbçisi bir neçə türk kəşfiyyat-diversiya qrupunun qarşısından qaçdı. Geri dönməyə və döyüşməyə razı salmağa çalışdım. Satqınlar Qarabağdan qaçan, cəbhəyə getməmək üçün Yerevanda gizlənən həmin kişilərdir".

**P.S.** İndi Azərbaycan orduğunun qabağından qaçan 2-ci Ordu Korpusunun Baş Qərargahının keçmiş komandir müavini, ehtiyatda olan polkovnik Mihran Maxsudyan belə bir müsahibə verməsi başa düşüləndir! Xəstədilər axı. Düşünmürlər ki, 30 ildi başlarını ayının pəncəsinə qoyub Qarabağda kef eləmək hələ qəhrəmanlıq deyil. Ayı yastığa dönmüş pəncəsini götürəndən sonra "qəhhhrəmanlıq" ortaya belə çıxır.Bütün dünya bildi ki, I Qarabağ müharibəsi dövründə Rusiya hərbi birləşmələri və texnikası ilə Ermənistanın yanında oldu. Amma Vətən müharibəsində bu baş vermədi.

Ermənistan Azərbaycanla təkbətək döyüşə girdi. Yox əgər deyirsən ki, "ordumuz tək Azərbaycana yox, bir neçə dövlətə qarşı döyüşüb" o zaman bunu sübut edin... Məsələn 2020-ci ilin 44 günlük müharibəsindən sonra savaşı izləyən heç bir xarici ölkə Azərbaycan ərazisində başqa bir dövlətin nümayəndəsini görmədiyini təsdiqlədi. Yəni, ən azından ortaya fakt qoya bilmədilər.

Bir toplum ki, dirəşəki, Qara Qarayev erməni bəstəkarıdır, Sarı gəlin erməni mahnısıdır, Qarabağ erməni torpağıdır, dolma, bozbaş, küftə erməni yeməyidir .... Day bunlardan - belə ağır şizofreniya xəstələrindən nə gözləyə bilərik ki? Amma, öz aramızdır, itin ağlına gəlməyən bunların ağlına gəlir... Bunlardan nə desən, gözləyə bilərsən...

**Allah və torpaq ayıblarınızı örtsün!**

# Qarabağı tərk edən Rusiya sülhməramlıları Qazaxa gedir? - Paşinyanın Əskiparaya qəfil səfəri

**Məlumdur ki, Azərbaycan Qazaxın işğalda olan 7 kəndindən ilkin mərkələdə anklav olmayan 4 kəndinin qaytarılmasını tələb edir.**

Bu isə ermənilərin hiddətinə səbəb olur. Onlar hökümətdən- şəxsən Baş nazir Nikol Paşinyandan bu xəbərlərə açıqlama verməsini, kəndlərin verilməyəcəyi deməsini tələb edirlər.

Paşinyan məlumatların düzgün olmadığını ifadə etmək üçün bu gün Əspiparaya səfər edib.

Paşinyanın Əskiparaya səfəri haqqında məlumatı Əskipara (Voskepar) administrativ rəhbəri İşxan Ağbal-



yan "Hraparak"a açıqlamasında bildirib. O deyib ki, Paşinyanın səfəri ilə bağlı xəbəri bir az əvvəl öyrəniblər.

Qeyd edək ki, ötən gün Ermənistanın müxalif "Hayastan" fraksiyasından olan deputat Anna Qriqoryan açıqlama verərək deyib ki, hökümətin Tavuşdan kəndlərin verilməsi ilə bağlı qərarı yoxdur, yəni bu qərar səlahiyyətli orqan tərəfindən deyil, prinsiplərə və xəritələrə əsaslanaraq, başqa dairədə verilib:"9 noyabr bəyanatında bu ərazilərlə bağlı müddəa var idi, lakin sonradan ləğv edildi və Əskiparada Rusiya bazası peyda oldu. Yəni deyə bilərik ki, noyabrın 9-da bu müddəanın mətndən çıxarılması ilə bağlı razılaşmalar olub, onun icrası sonraya planlaşdırılıb".

***P.S.* Bu açıqlamalardan belə naticəyə gəldim ki, "Rusiya ordusu gedir" xəbərləri növbəti dəfə yanlış xəbərdir. Əslində onlar Qarabağı tərk edib, Qazax zonasına - Əskiparaya gedə bilərlər. Azərbaycanı isə heç vaxt tərk etmək fikrində olmayacaqlarına əminəm!**

Əntiqə Rəşid

# Şarl Mişeldən Gürcüstana sərt təpki: «Bu sizi Aİ üzvlüyünə yaxınlaşdırmaz»

**Xəbər verdiyimiz kimi, Gürcüstan parlamenti büro iclasında "Xarici agentlər haqqında" qanun layihəsini qeydiyyata alıb. Layihə ilkin olaraq baxılması üçün parlamentin Hüquq Məsələləri Komitəsinə təqdim edilib. Büro iclası ilə paralel olaraq parlamentin xidməti girişində onlarla insan qanun layihəsinə qarşı etiraz aksiyası keçirib. Hətta "Xarici agentlər haqqında" mübahisəli qanunun müzakirəsi zamanı Gürcüstan parlamentində əlbəyaxa dava baş verdi.**

Adalet.az xəbər verir ki, insidentlə bağlı Avropa Şurasının prezidenti Çarlz Mişel xəbərdarlıq edib.

O bildirib ki, "Xarici agentlər haqqında" qanun layihəsinin qəbulu Gürcüstanı Aİ üzvlüyünə yaxınlaşdırmaz, əksinə, onu prosesdən kənarlaşdıra bilər.

Qanunun parlament tərəfindən qəbul edilməsinə qarşı çıxan Gürcüstan prezidenti Salome Zurabişvili dünən Fransa prezidenti Emmanuel Makron və Avropa Şurasının sədri Şarl Mişelə müraciət edərək, Şuranın çərşənbə



günü iclasında Gürcüstanda baş verən son hadisələri müzakirə etməyi xahiş edib.

Qeyd edək ki, Gürcüstan Daxili İşlər Nazirliyinin məlumatına görə, Tbilisidə parlament binası qarşısında keçirilən nümayiş zamanı 11 nəfər həbs edilib. Aksiya iştirakçılarının polisə müxtəlif ağır əşyalar, o cümlədən daş və butulkalar atdığı, bir polis əməkdaşının yaralandığı, nazirliyə məxsus avtomobilə ziyan dəydiyi qeyd edilib.

**Nümayişi dağıtarkən Daxili İşlər Nazirliyi xüsusi tədbirlərdən, o cümlədən gözyaşardıcı bibər tozundan istifadə edib.**

Əntiqə Aslan

## *139 yaşı olan erməni qəbiristanlığı 6-cı dəfə yandırıldı - Kaliforniyada*

**Yəqin ki, bir çoxunuz bilirsiniz ki, ABŞ ermənilərin sayına görə , Rusiya ermənilərindən sonra Ermənistan kənarında yaşayan ikinci ən böyük ölkədir. Beləki, 2011-ci ildə ABŞ-da əhalinin etnik tərkibi üzrə aparılan araşdırmalar zamanı məlum olmuşdur ki, Amerikada yaşayan əhalinin 483.366 nəfəri etnik baxımdan ermənidir. Sonuncu dəfə ABŞ-da ermənilərin sayı 2018-də dəqiqləşdirilməyə çalışılmış, müxtəlif hesablamalara görə, bu ölkənin 2 milyona qədər erməni əhalisi olduğu bildirilir.**

Bilirsiniz, erməni çox olan yerdə erməni qəbristanlığı da mövcud olur. Ermənilərin ən sıx yaşadığı Kaliforniya ştatının Fresno şəhəri də artıq ermənniləşib.

Burada Ararat Massis erməni qəbiristanlığı və ya sadəcə Ararat qəbiristanlığı yerləşir ki, ötən gün bu erməni qəbiristanlığı yenidən yandırılıb.



Oxucularımıza məlumat üçün bildirim ki, Ararat qəbiristanlığı 25 dekabr 1885-ci ildə yaradılıb. Moses J Kilsəsi Fresnonun erməni icması üçün yer ayırdıqdan sonra ermənilər burda gömülür.

1919-cu il iyunun 9-da Ararat qəbiristanlıqlar cəmiyyəti yaradıldı. 1930-cu ildə yanğın Ararat qəbiristanlığı bağlı bir çox tikililəri məhv etdi . 1956-cı ildə dərnəyin səyləri ilə qəbiristanlıq genişləndirildi və qəbiristanlığın yanında iki hektar torpaq sahəsi əldə edildi. 1969-cu ildə daha da genişlənmə baş verdi və qəbiristanlıq Ararat Masis qəbiristanlığı adlandırıldı.

Qəbiristanlıqda qondarma erməni soyqırımının yalançı zərərçəkmişlərinin xatirəsinə abidə də ucaldılıb. Abidəyə Suriyanın Deyr Zor şəhərindən gətirilən naməlum digər "qurbanların" sümükləri daxildir

Hazırda erməni mediası bu yanğından danışır. Çünki bu şər məkanına ermənilərin qəhrəmanları da gömülüb: Türkiyənin diplomat oğlu Tələt Paşanın qatili Soqomon Teyliryan, terrorçu Andranik Ozanyan, rəsmi şəxs Viktor Maqakyan və ABŞ yazıçısı Vilyam Saroyan burada basdırılıb.

Maraqlıdır ki, yanğının yanvarın əvvəlindən bəri altıncı dəfə baş verir və cinayətkar tapılmır.

Qeyd edək ki, Ararat Massis qəbiristanlığı bir əsrdən artıq müddətdə Ermənistan və Yaxın Şərqdən kənarda tikilmiş yeganə erməni qəbiristanlığı idi.

Qəbiristanlıq rəhbərliyi baş verənləri məqsədyönlü nifrət cinayəti hesab edir.

**Əntiqə Aslan**

## *Quterreş İranı deeskaladiyaya çağırdı*

**Birləşmiş Millətlər Təşkilatının baş katibi Antoniu Quterreş, İranın xarici işlər naziri Hüseyn Əmir Abdollahyanla telefon danışıqları zamanı, İranı təcili olaraq deeskslasiyaya çağırıb və Yaxın Şərqdə sülhün yaranması üçün vəziyyətin bərpa olunmasına səy göstırməyə səsləyib.**

Bu barəfə beynəlxalq təşkilatın baş katibinin rəsmi nümayəndəsi Stefan Dyujarrik BMT-in birbaşa trandlyasiya olunan saytında məlumat verib. Dyujarrik qeyd edib ki, Qeterreş bu məsələ barədə İsrail hakimiyyəti ilə birbaşa əlaqə yaratmayıb. Qutteres yazıq da bilir ki, İsrail onsuzda beynəlxaq təşkilat zad vecinə almır...

## *Bloomberg: "Makron Putini təəcübləndirə bilmədiyi üçün özündən çıxır"*

**Fransa prezidenti Emanuel Makron özündən çıxır. Sərsəm və mənasız bəyanatları ilə Rusiya prezidenti Vladimir Putini qəfil təəcübləndirmək istəyir, lakin alınmır.**

Bloomberg agentliyi xatırladır ki, Makron bəyan etmişdi ki, "Avropa Ukraynaya kömək etmək üçün hərbi kontingentini göndərə bilər. Lakin onun bu bəyənatı digər dövlətlər tərəfindən, xüsusilə də Almaniya tərəfindən qəbul edilmədi. Heç bir dövlət Rusiyanı qarşısına almağa cürət etmədi.

"Fransa prezidentinin özünü gah sülhpərbər, gah da təxribatçı kimi aparması, onun çağırışları kimsə tərəfindın ciddiyə alınmadı"- deyə Bloombergin dərc etdiyi məqalədə bildirilir. Rusiya prezidenti Vladimir Putin jurnslistlərlə görüşü zamanı bildirib ki, Makronun antirusiya mövqeyindən verdiyi bəyənatları yəqin ki, Parisin Afrikada nüfuzunun itirilməsi ilə bağlı ola bilər. "Fransız lideri, yəüin ki, Afrika kontingentində "onun quyruğunu tapdaladığımız" üçün bizdən qisas almaq istəyir"-deyə Putin bildirib.

**Rüstəm Hacıyev**

# Mənimsənilmiş Göycənin Kəvər rayonu, Ağqala kəndi: "Berdkunk" olmuş Ağ qala

**Ermənistan sahib çıxdığı daha bir tarixi qalamızla bağlı tədbirlər həyata keçirəcək.**

Beləki, aprelin 18-də Beynəlxalq Abidələr və Görməli Yerlər Günündə Geqarkunik (Göyçə) rayonunun "Berdkunk" ("Ağ qala") qalasında tədbir keçiriləcək, tədbirdə Ermənistan Respublikasının təhsil, elm, mədəniyyət və idman naziri Janna Andreasyan və Avropa Birliyinin səfiri iştirak edəcək.

Tədbirlər Respublika meydanından saat 12:00-da başlayacaq.

Erməni mediası yazır:"Avropa İrs Günləri" proqramının "Avropa İrsinin Gənc Yaradıcıları" müsabiqəsinin 11-17 yaşlı iştirakçıları "Berdkunk qalası"na gedəcəklər. Tarixi abidənin ərazisində məlumat lövhəsinin yerləşdirilməsi, gənclərlə tanışlıq və ünsiyyətin təşkili, sertifikatların verilməsi nəzərdə tutulur. "Berdkunk" ("Ağ qala") qalası çoxqatlı abidədir, e.ə. II-I minilliklərdə yenidən qurulmuş və orta əsrlərdə inkişafın zirvəsinə çatmışdır.

Bəs ermənilərin "Berdkunk qalası" adlandırdığı bu qala haqqında nə bilirik?

İrəvan quberniyasının Yeni Bayazid qəzasında, indiki Kəvər (Kamo) rayonunda bir kənd vardı, adı Ağqala! Rayon mərkəzindən 12 km şimal-şərqdə, Göyçə gölünün sahilində yerləşirdi. Qafqazın 5 verstlik xəritəsində adı qeyd edilib. Toponim rəng bildirən "ağ" sözü ilə "qala" sözünün birləşməsindən əmələ gəlib. Məlumatlara görə, kənd adını kəndin ərazisindəki albanlara məxsus ağ rəngli qaladan götürübdür. Daha dəqiq, kəndin şimal-şərq hissəsində e.ə. II minillikdən 1-ci minilliyə aid Alban kilsəsi var.

Kənddə 11-12-ci əsrlərə aid kilsə və onun ətrafında XII-XX əsrlərə aid qəbiristanlıq mövcud olub. Ermənistanın prezidentinin 19.IV.1991-ci il tarixli fərmanı ilə kəndin adı dəyişdirilib Berdkunk (Qala yeri) qoyulur.



Kənddə 1831-ci ildə 39 nəfər, 1873 - cü ildə 192, 1886-cı ildə 253 nəfər, 1897-ci ildə 331, 1904 - cü ildə 424, 1914 - cü ildə 507, 1916-cı ildə 520 nəfər azərbaycanlı yaşayıb. 1918-ci ildə azərbaycanlılar, ermənilər tərəfindən qırğınlarla qovulur.

Azərbaycanlılar kənddən qovulandan sonra buraya Türkiyədən köçürülən ermənilər yerləşdirilir. İndiki Ermənistanda Sovet hökuməti qurulandan sonra sağ qalan azərbaycanlılar öz doğma kəndlərinə dönür.

Arxiv sənədlərinə görə, burada 1922-ci ildə 3 azərbaycanlı, 31 erməni, 1926-cı ildə 76 azərbaycanlı, 105 erməni, 1931-ci ildə 202 nəfər azərbaycanlı, 111 erməni, 55 kürd, 1939 - cu ildə 442, 1959 - cu ildə 287, 1970-ci ildə 2200 nəfər[6] azərbaycanlı və erməni əhalisi yaşamışdır.

Sonralar azərbaycanlıları sıxışdırıb çıxarmaq məqsədilə Ağqala kəndi ilə Əyrivəng kəndi birləşdirilir. Kənddə yaşayan azərbaycanlılar da 1988-ci ildə Ermənistan dövləti tərəfindən qovulur və Azərbaycana deportasiya edilir.

**Əntiqə Rəşid**

# Ermənilər alçaltdıqları yezidiləri «dəyərli» edirlər: Sincar yezidi soyqırımı ilə bağlı layihə

**Yezidilər - özlərini kürdlərdən ayırmış və çoxluq etibari ilə xristianlığı ve yaxud Xususi Yezidizm dinini qəbul etmiş , ermənilərə qaynayıb-qarışmış, türkləri özlərinə düşmən bilən bir toplumdur. Fakt olaraq qeyd edək ki, Ermənistan parlamentinin hakim "Mənim addımım" fraksiyasından olan kürd millət vəkili Knyaz Həsənov dəfələrlə parlament iclaslarında bildirib ki, erməni və kürd xalqlarının ortaq düşməni - Türk hökumətidir və Türkiyənin uzaq planlarının qarşısını almaq üçün bu iki millətin əməkdaşlıq etməsi zəruridir:"Erməni və kürd xalqlarının ortaq bir düşməni - Türk hökuməti olduğunu nəzərə alaraq, xalqlarımız bir-biri ilə əməkdaşlıq etməli, partiya səviyyəsində ünsiyyət qurmalı və türk hökumətinin xalqlarımızla əlaqəli uzaq planlarına qarşı çıxmalıdır.**

Əslində düşüncəsi erməni kimi qan, terror, soyqırım, facie kimi olayları törətmək üçün çalışan bu etnik azlıq nəhayət ki, Ermənistanın "gözünə" girə bildi.

Beləki, bu gün Ermənistan parlamentində baş nazir Nikol Paşinyanın rəhbərlik etdiyi "Vətəndaş müqaviləsi" fraksiyasının yezidi (kürd) əsilli deputatı Rüstəm Bakoyanın təqdim etdiyi layihə birinci oxunuşda qəbul edilib. Avqustun 3-ü Ermənistanda Sincar yezidi soyqırımı qurbanlarının anım günü kimi qeyd olunacaq.

Layihənin lehinə 88 deputat səs verib, bitərəf və əleyhinə olan olmayıb. Qeyd edək ki, yezidilər əsasən İraqın şimalında, İraq Kürdüstanında yaşayır.

2014-cü ildə onlar Sincar vilayətini ələ keçirən İŞİD tərəfindən amansız soyqırıma məruz qalıb. Bəzi məlumatlara görə, silahlılar 10 minə qədər yezidini öldürüb.




Yeri gəlmişkən, siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyev bir neçə il əvvəl tarixi faktlara əsaslanaraq yazırdı: "İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını XIX əsrin əvvəllərində baş verən Rusiya-İran, Rusiya-Türkiyə müharibələrindən sonra da davam etmişdir. Həmin dövrdə ermənilərlə yanaşı, yezidi kürdlər də gəlib indiki Ermənistan ərazilərində yaşamışdılar. 1834-cü ilin məlumatına görə, İrəvan əyalətində Bayaziddən gəlmiş 1000 nəfər (təqribən 300 ailə) yezidi kürdləri məskunlaşmışdılar. Yezidi kürdləri 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, ri əhatə edən Arağats rayonu təşkil edilmişdir.

Hal-hazırda Ermənistanda bu ölkənin vətəndaşı olan 40620 nəfər yezidi kürd yaşayır. "Dünya Yezidilər İttifaqının sədri Əziz Tamoyan bildirib ki, yezidilər Ermənistana XX əsrin əvvəlində köçüblər və sayı 40 mindən artıqdır.

Tamoyanın sözlərinə görə, Ermənistanda yezidilərin hüquqları ermənilər tərəfindən pozulur. Əsasən, ermənisoyad sonluqlarından istifadə edən yezidi icma işğalçı ölkədə 1990-cı ildən Yerevanda "Danqs Ezdya" ("Yezidinin səsi") qəzeti nəşr edirlər. Yezidilərə Ermənistanda aşağı millət kimi baxırlar. Yezidlərin adət-ənənələri Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində yerləşmişdilər.

Nəhayət, yezidi kürdləri 1877-ci ildə Bağdad, Dolu-Taxt və Kiçik Cəngi kəndlərinə gəlib çıxmışdılar. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən, bu kəndləyerli ermənilər tərəfindən rişxəndlə qarşılanır".

Yerli televiziya kanallarından birində "Nə? Harada? Nə vaxt?" verilişində iştirak edən Manvel Badeyan jurnalistlərdən birinin: "Ermənistan televiziyasında rus dilində aparılan verilişin Ermənistan hökuməti tərəfindən maliyyələşdirilməsi düzgündürmü?" sualını cavablandıran millət vəkili deyib: "Elə bilirsən, jurnalistsənsə, axmaq sual verməyə ixtiyarın var? Doğrudanmı belə səviyyəsizsən? Küçədə dayanan yezid belə sual versəydi, təəcüblənməzdim".

2012-ci il mayın 6-da keçirilən parlament seçkilərində yezidlər Ermənistanın hakim Respublika Partiyasına 40 min səs verdiklərini iddia edir və öz problemlərinin həllini Serj Sarkisyanın üzərinə qoyurlar. İqtidar isə "Ermənistan ermənilər üçün" prinsipini irəli çəkərək, yerdə qalanları ikinci dərəcəli ermənilər olmağa, heç bir hüququ olmayan qula çevrilməyə vadar edirlər.

**Hazırda dünya ictimaiyyəti üçün nümunə kimi etniklərdən ibarət xırda qruplarda milli azlıqlar olsa da, yezidlərdən başqa digər etnik millət də yoxdur, onların vəziyyəti isə bu cür acınacaqlıdır. Deməli, Ermənistanda milli azlıqların vəziyyəti ermənilərin öz vəziyyətlərindən də betərdir. Lakin ermənilər bir bəzək kimi öz etnik tərkiblərini daima nümunə göstərməyə çalışırlar.**

**Əntiqə Rəşid**



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# Məni ölməyə qoymayın...

**Bu gün tanınmış xanəndə və muğam ustası Sabir Abdullayevin Ali Baş Komandan, Prezident İlham Əliyevə müraciətini oxudum və çox kövrəldim. Çünki o, cənab Prezidentə müraciət edərək, kömək istəyir, yaş həddinə görə təqaüdə göndərildiyi üçün işsiz qaldığını bildirir. Yazır ki, mən Asəf Zeynallı adına Musiqi Məktəbində muğamdan dərs deyirdim. Fəxri adım olmadığına görə, yaş həddim də çatdığı üçün təqaüdə göndərildim. İndi evdə oturub ölümümü gözləyirəm. Bu da mənim üçün çox ağırdır. Çünki mənim yüzlərlə tələbəm var və onların arasında yüksək fəxri ada layiq görülmüş ifaçılar da az deyil. Bu gün mən özümü fiziki cəhətdən çox sağlam, gümrah hiss edirəm və düşünürəm ki, indən sonra da kollecdəki tələbələrə xalq musiqisini öyrətmək imkanım böyükdür. Cənab Prezident, mən Sizdən heç bir fəxri ad, titul və digər kömək istəmirəm. Sadəcə olaraq, işə qayıtmağıma kömək etsəniz, məni ölməyə qoymaz və yeni bir nəfəs vermiş olarsınız!**



**Təbii ki, böyük xanəndənin cənab Prezientə müraciəti diqqətsiz qalmayacaq. Ən azından ona görə ki, Sabir Abdullayev düz 60 ilə yaxın xalq musiqisini, muğamı dünyada təbliğ edib, sevdirib və eyni zamanda çoxlu sayda tələbələr yetişdirib.**

**O, ABŞ-da Kanadada, Fransada, Rusiyada, İsrayılda, Meksikada və eləcə də Avropa ölkələrində muğamımızı əcnəbilərə sevdirməyi bacarıb. Heydər Əliyev Fondunun dəstəyi ilə işıq üzü görmüş "Qarabağ xanəndələri" albomunda onun da gözəl ifaları var.**

**Məni ən çox kövrəldən o oldu ki, Sabir Abdullayevə indiyə kimi nə Mədəniyyət Nazirliyi, nə də digər qurumlar kömək etməyib. Amma bir Allah bilir ki, bu böyük xanəndə hansı ürəyin və hansı səsin sahibidir. Mən dəfələrlə onun möcüzəli səsinin şahidi olmuşam.**

**1992-ci ilin oktyabr ayının əvvəllərində Müdafiə Nazirliyinin təşkil etdiyi briqadada mən onunla birlikdə cəbhə bölgəsində bir həftə ezamiyyətdə oldum. Bu briqadada sənət adamları, jurnalistlər və eləcə də digər ziyalılar var idi. Biz Laçında, Cəbrayılda, Qubadlıda, Füzulidə, Ağdamda və digər döyüş mövqelərindəki səngərlərdə igid əsgərlərimizlə günlərlə bir yerdə olduq, onların döyüş ruhunun yüksəldilməsində əlimizdən gələni əsirgəmədik. Hansı ki, həmin vaxtlar ermənilər mövqelərimizi raketlərdən, müxtəlif çaplı silahlardan fasiləsiz atəşə tuturdu. Amma xanəndə Sabir Abdullayev və onu müşayiət edən ansambl güllələrin altında konsert verməkdən qorxmur, hətta bu yolda ölümə getməkdən belə çəkinmirdilər. Sabir qardaşımızın əsgərlər qarşısında oxuduğu "Qarabağ" şikəstəsi onlara elə bir ruh verirdi ki, sanki bu xanəndə ən güclü silahı onlara bəxş eləmişdi. Vaxtilə məşhur topçu komandiri olmuş və indi isə "Təzadlar" qəzetində çalışan Elçin Məmmədli həmin hadisələrin şahididir. Elçin deyir ki, Faiq müəllim, siz gedəndən sonra bizim əsgərlərimiz daha da ruhlandı və düşmənin nəzarətində olan bir neçə yüksəkliyi işğaldan azad edərək orada möhkəmləndi.**

**Bu yazını ona görə qələmə aldım ki, qoy Azərbaycan xalqı, eləcə də hörmətli nazirlərimiz bilsin ki, xanəndə Sabir Abdullayev Vətənin ağır günündə başqaları kimi toylara gedib pul qazanmayıb, amma həftələrlə döyüş mövqeyində, səngərdə Azərbaycan əsgərini ruhlandırıb. İndi də onun çətin günüdür, biz onun yanında olmalıyıq və qeyri-adi səsə, yüksək vətənpərvərliyə malik, ən nəhayət şərəfli, namuslu xanəndəmizə arxa durmalıyıq.**

**Yoxsa musiqimizi "manıs"lar işğal edəcək, toylarda at oynadacaq və üstəlik böyük sənətkarlarımızın uzun illər göz bəbəyi kimi qoruduğu muğamı gözdən və urvahdan salacaqlar.**

**Çünki Azərbaycan xalqı 100 illərdir ki, bu musiqini qoruyub, onu yaşadıb bu günümüzə çatdırıb. Xanəndə Sabir Abdullayev də məhz belə sənətkarlardan biridir. O, muğamımızı qoruduğu kimi, biz də onu qorumalıyıq. Əks təqdirdə bir böyük sənətkarın ürəyini və ümidlərini çilik-çilik etmiş olarıq!..**

# Avropa Komissiyasının rəhbəri: "Rusiyaya görə hərbi büdcə xərclərimizi 20 faiz artırmışıq"

**"Rusiyanın Ukraynada hərbi müdaxiləsindən sonra Avropa İttifaqı ölkələrinin hərbi büdcələrinə ayırdığı vəsait 20 faizə qədər artıb".**

Bu açıqlama ilə Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen çıxış edib.

O, Avropa müdafiə sənayesinin səmərəliliyini artırmaq üçün Avropa Komissiyasının rəhbərliyi altında birləşməyə çağırıb.

Ursula fon der Lyayen İranın İsrailə hücumunu da şərh edərək vurğulayıb ki, ABŞ və Böyük Britaniyanın dəstəyi ilə İsrailin hava hücumundan müdafiə sistemlərinin İranın, demək olar ki, bütün raketləri zərərsizləşdirməsi Avropa İttifaqı üçün dərs olmalıdır. "Bu, uzunmüddətli investisiyalar fonunda yaradılan müdafiə sisteminin nə qədər əhəmiyyətli olduğunu göstərir", - deyə Ursula fon der Lyayen qeyd edib.

# Tatoyan Paşinyanın saxta erməni soyqırımını "şübhəyə alan" qərarını qınadı: "Bunu ancaq türk edər"

**Qondarma "erməni soyqırımı" qondarma "qurbanlarının" adlarının siyahıya alınması ilə bağlı hökumətin , daha dəqiq Ermənistan Baş naziri N.Paşinyanın son bəyanatı erməniləri əməlli-başlı qəzəbləndirib. 109 ildir yaydıqları, təbliğatını uğurla həyata keçirdikləri yalanın üstünün açılacağından dəhşətə gələn ermənilər hökumətə qarşı hücuma keçiblər**

Beləki, Ermənistanın keçmiş hüquq müdafiəçisi Arman Tatoyan öz Facebook səhifəsində qondarma "erməni soyqırımı" qondarma "qurbanlarının" adlarının siyahıya alınması ilə bağlı hökumətin , daha dəqiq Ermənistan Baş naziri N.Paşinyanın son bəyanatına istinadən status yazıb:""Hökumət Erməni Soyqırımı qurbanlarının 1,5 milyon nəfərinin siyahısının yaradılmasını "Soyqırımla bağlı real əsasların qurulması" kimi qiymətləndirərək, erməni kimliyinə və Ermənistanın dövlətçiliyinə qarşı qətiyyən qəbuledilməz addım atır".

Tatoyandaha sonra şərhdə bu sözləri qey edir:"Türkiyə hökuməti hər zaman "erməni soyqırımı" qurbanlarının sayını sorğulamaq ideyasını irəli sürüb və bununla da öz inkar siyasətini irəli sürüb. Soyqırım alimləri, eləcə də erməni soyqırımını tanıyan dövlətlər 1,5 milyon qurbanın sayını heç vaxt şübhə altına almayıblar. Heç vaxt müzakirə olunmayıb. Üstəlik, qurbanların sayının soyqırımı cinayəti ilə heç bir əlaqəsi yoxdur. Soyqırım müəyyən sayda insanın sadəcə öldürülməsi və ya məhv edilməsi deyil, irqi, etnik, milli və ya dini nifrət əsasında bir qrup insanın qəsdən məhv edilməsidir. Bu yanaşma həm də günahsız qurbanların xatirəsinə açıq-aşkar hörmətsizlikdir.

"Böyük Soyqırım" və "Soyqırım" anlayışlarının eyni olması barədə deyilənlər yolverilməzdir. Bu anlayışlar arasında bərabərlik işarəsinin qoyulması həm Ermənistanın maraqları, həm də beynəlxalq soyqırımın qarşısının alınması prosesi baxımından yolverilməzdir.

Soyqırım beynəlxalq hüquqi təsbiti olan bir anlayışdır, beynəlxalq səviyyədə tanınmış cinayətdir. Bunun üçün konkret cinayət cəzası, cinayət təqibi mexanizmi müəyyən edilib. Üstəlik, soyqırımların qarşısının alınması məqsədi daşıyan soyqırımı cinayətinə görə məsuliyyətin və cəzanın həyata keçirilməsidir" - deyə Tatoyan bildirib.





Qeyd edək ki, ermənilər 100 ildən çoxdur, iddia edirlər ki, guya 1915-ci ildə türklər 1,5 milyon ermənini qırıblar. Türk Tarix Qurumunun keçmiş başqanı Yusif Halacoğlu Osmanlı arxivlərinə istinadən belə nəticəyə gəlibdir ki, ermənilərin köçürülməsi zamanı yollarda hücumlara məruz qalaraq öldürülən ermənilərin sayı təqribən 8,5 min nəfər olub. Qalan ermənilər döyüş cəbhələrində əllərində silah türklərə qarşı vuruşarkən öldürülüblər.1919-cu ilin yayında Paris sülh konfransının gedişində ermənilərin "Qərbi Ermənistan" adlandırdıqları ərazilərdə və Cənubi Qafqazda vəziyyəti öyrənmək məqsədi ilə prezident Vudro Vilson ABŞ ordusunun Fransadakı baş qərargahının rəisi general Ceyms Harbordun başçılığı altında regiona xüsusi missiya göndərib. Regionu incələyən Harbordun Ərzurumdakı dialoqu həmin günlərdə çox sayda şahidlərin də gündəliklərinə düşmüşdü. O, türklərdən soruşur:

**- Daha öncədən Ərzurumda erməni çoxluğu varmıdı?**

Bu soruyu alan Ərzurum Bələdiyyə Başqanı Zakir Gürbüz bəy Amerikalı generalı pəncərə önünə çağıraraq açıq görünən Gez və Kavak məzarlıqlarını göstərib deyir: "Bunlar gördüyünüz kimi, müsəlman-türk məzarlarıdır. Şəhərin öteki yerlərində də bunların on qatı türk məzarlığı daha vardır. İndi yaxşı baxın, çevrəsi divarlarla hörülü o kiçik məzarlığı da görürsünüz? Bax o da ermənilərin məzarlığıdır. Özünüz deyin, ermənilərmi, ya türklərmi çoxluqda? Ermənilər ölülərini yemədilər ki! Ərzurumun ölüsü də Türk, dirisi də Türk!" deyə tarixi cavab vermişdir."

General Ceyms 16 oktyabr 1919-cu ildə ABŞ Senatına təqdim etdiyi raportunda yazırdı ki, Qara dənizdən İran sərhəddinədək uzanan ərazini gəzdik, lakin ermənilərin iddialarını doğruldacaq heç bir fakta rast gəlmədik. General Harbordun bu məruzəsi ermənilərin Şərqi Anadoluda heç zaman çoxluq təşkil etmədiklərini və soyqırıma məruz qoyulmadıqlarını təsdiqləyirdi. Harbord yazırdı ki, missiyanın keçdiyi yollarda tez-tez ermənilərin zülmündən qaçan türklərlə rastlaşırlarmış. Həmçinin məşhur amerikalı siyasətçi Bryus Feinin, ABŞ-ın ali komissarı, admiral Mark Bristolun, britaniyalı siyasətçi və admiral Kolbi Çesterin, dünyanın nüfuzlu alimlərindən Stenford Şounun, Castin Makkartın, Prinston Universitetinin professoru Hitom Lourin, britaniyalı tarixçi, professor Norman Stoun, amerikalı professor Günter Levin, türkiyəli alim Mehmet Perincək tarixi faktlara istinad edərək "erməni soyqırımı"nın əslində cəfəngiyatdan başqa bir şey olmadığını sübut ediblər.

**Əntiqə Rəşid**

## *Adam bıçaqlamaq adi hal alıb*

**Biz tez- tez müxtəlif informasiya vasitələrinindən kimlərinsə, bıçaqlandığını eşidirik .**

Artıq bu adi hala çevrilib. Yeni cəmiyyətimiz bu qəbildən olan cinayətlərə və xəbərlərə bir növü öyrəşmişik. Ona görə də bu cür məlumatları eşidəndə daha təəccüblənmirik. Bu gün cəmiyyəti ən çox narahat edən bıçaqlanma hadisələrinin yeniyetmələr və şagirdlər arasında olması, eyni zamanda olayın bəzi hallarda məktəblərdə baş verməsidir.



Təbii ki, burada bıçaqlanma olursa, məktəb direktorlarının və pedaqoji kollektivlərinin məsuliyyəti az deyil. Deməli, belə bir durumda cəmiyyət, məktəb və valideyn münasibətlər düzgün qurulmalıdır! Bununla yanaşı, odlu silah kimi, soyuq silah da çox təhlükəlidir. Cinayət Məcəlləsində odlu silah gəzdirməyə görə, cinayət məsuliyyəti var, amma soyuq silaha gəzdirənlər bu məsuliyyəti daşımırlar.

Elə ona görə də hər gün olmasa da tez- tez bıçaqlanma hadisələrinin şahidi oluruq! Bir neçə gün bundan əvvəl gecə saat birə işləmiş rayonların birində bir gənc kəndə gələrək 24 yaşlı oğlanı küçəyə çağırıb və münaqişə zəminində onu bıçaqlayaraq öldürüb. Sonra isə Payın Prokurorluğuna gedərək təslim olub! Bax bütün bu hadisələr göstərir ki, soyuq silah gəzdirənlər də məsuliyyətdən kənarda qalmamalıdırlar. Polis lazım gələndə şübhələndikləri vətəndaşların üzərində axtarış aparmalı və onlar barəsində profilaktik tədbirlər görməlidir və buna görə heç kəs polisi qınamamalıdır! Lazımi tədbirlər vaxtında görülməsə, belə bıçaqlanmalar hələ yenə də olacaq!

## *Şəhərə taksilər gətirilir...*

**Onsuz da Bakıda nə qədər desən, taksi var.**

Qeyri- rəsmi məlumata görə, bu gün paytaxtımızda 60 min insan taksi fəaliyyətilə məşğuldur. Bəlkə də iş yerləri olsa, onlar taksi sürməz və gedib bir işin qulpundan yapışarlar. İş yerə olmadığı üçün də onlar bir işin qulpundan yapışa bilmir, taksi fəaliyyətilə gündəlik çörək pulu aparırlar. Bu həm əhaliyə, həm də onlara sərf eləyir.

Məsələn , bir neçə gün bundan əvvəl biz Yeni Günəşlidən metronun "Xalqlar dostluğu" stansiyasına taksi ilə 2 manat 50 qəpiyə getdik! İndisə deyirlər ki, Bakıya yeni taksilər gətiriləcək və gediş haqqı bahalaşacaq! Niyə qardaş? Məgər camaatın imkanı yaxşılaşıb!



Onsuz da metroda və avtobuslarda günün "ças- pik" vaxtlarında sıxlıqdan tərpənmək olmur. Belə anlarda insanlar mənzil başına taksilər gedir. Bunu camaata çox görürsünüz? Bir az maaş təqaüdlər artan kimi o dəqiqə həmin pulları əhalinin əlindən almaq üçün müxtəlif yollar axtarıb tapılar. Bu taksi oyunu da həmin yollardan biridir.

Hələ bir nazir utanmaz-utanmaz deyir ki, taksi xidməti əlçatan olmalı deyil. Nazir qardaş,bəs nə əlçatan olmalıdır? Kasıblar üçün ev almaq əlçatan deyil,maşın almaq əlçatan deyil. Yazıq camaat ucuz taksilərə minirdi, indi onu da əlçatmaz edirsiniz?.

**Bəs Allahdan qorxmursunuz?**

**EMİL FAİQOĞLU**

# "Atam atadan çox pərəstiş etdiyim, oxşamaq istədiyim qəhrəmanım oldu"

*"Bəlkə də bütün övladlara elə gəlir ki, onun atası fövqəltəbii gücə malikdir, çox adamın bacarmadığını bacarar, çox qüdrətlidir, çox güclüdür, çox ağıllıdır, əsl qəhrəmandır! Amma mənə belə gəlmir! Çünki mənim atam sözün həqiqi mənasında fövqəltəbii gücə malikdir, çox adamın bacarmadığını bacarıb, çox qüdrətlidir, çox güclüdür, çox ağıllıdır, sözün həqiqi mənasında əsl qəhrəmandır".*

*Bunu bizimlə söhbətində Milli Qəhrəman Pəhlivan Fərzəliyevin kiçik oğlu Mobil Fərzəliyev deyir.*

*Mobil söyləyir ki, atası şəhid olarkən onun cəmi 3 yaşı olub:"Mən körpə olmuşam o vaxt... Hadisələrin, müharibənin elə bir vaxtı olub ki, atam evdə demək olar ki, çox az olub. Baxmayaraq ki, onun məndən əvvəl 1 oğlu, bir qızı vardı, onlar da azyaşlı idi... Amma atam onları, məni yox, vətəni seçdi.*

*Vətəni sevdi, onun qayğısına qaldı, ona nəvaziş göstərdi. Onu tanıyanların hamısı deyir , Pəhlivan Vətəni qarşılıqsız və dəlicəsinə sevən oğul idi".*

*XÜSUSİ QEYD: Azərbaycan zabiti, baş leytenant, Azərbaycanın Milli Qəhrəmanı, Birinci Qarabağ müharibəsi şəhidi Pəhlivan Fərzəliyev 7 sentyabr 1958-ci ildə Füzuli rayonunun Qobu Dilağarda kəndində doğulub.*

*Doğma kənddə səkkizinci sinfi başa vurduqdan sonra Şuşa Kənd Təsərrüfatı Texnikumuna daxil olub. İdmanla məşğul olub, Şuşada keçirilən çempionatda Qarabağ çempionu adını qazanıb. O, 1979-cu ildə orduya çağırılıb.*

*1986-cı ildə Orenburq Politexnik Universitetini bitirib. BTR-n ekipaj komandiri olan Pəhlivanın taqımı Füzuli rayonundakı sərhəd kəndlərinin qorunmasında mərdliklə vuruşurdu. Onun şücaəti nəticəsində Xələfşə kəndində bir erməni bölüyü və bir BTR məhv edildi. 1992-ci il 11 apreldə taqım komandirinin son döyüşü olur.*

*Evli idi. İki oğlu, bir qızı yadigar qalıb.*

*Azərbaycan Respublikası prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı fərmanı ilə baş leytenant Fərzəliyev Pəhlivan Əhliman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.*

*Füzuli rayonunun Qobu Dilağarda kəndində dəfn edilib.*

*Bakı şəhərindəki qəsəbələrdən biri qəhrəmanın adını daşıyır. Milli Qəhrəmanımıza həsr edilən və Dövlət sifarişi ilə "Yaddaş" studiyasında lentə alınan"Şərəfli ömrün manifesti" sənədli filmi çəkilib. Filmin ssenari müəllifi və quruluşçu rejissoru İltifat Hacıxanoğludur.*

Mobil - Bütün füzulilər, bütün qarabağlılar bilir, biz ailəlikcə Qazaxıstanda yaşamışıq. Atam Azərbaycanda təhsilini başa vurduqdan sonra Orenburq (Rusiya) Politexnik İnstitutuna qəbul olunub. Sonradan ailəsi ilə birlikdə Qazaxıstanın Aktubinsk şəhərində yaşayıb və həmin şəhərdə polis baş leytenantı kimi xidmətdə olub.

**- Mobil, ananız Sona xanımla söhbətimizdə o dedi ki, Aktyubinskdə çox rahat bir yaşayışımız, evimiz, imkanımız vardı:"Həyat yoldaşımın namuslu əməyi, nümunəvi fəaliyyəti, davranışı ailəmizə hörmət gətirmişdi". Qəflətən nə baş verdi ki, atanız qərib ölkədə bütün qazandıqlarını əlinin arxası ilə itələyib, Azərbaycana döndü?**





-Qardaşım Xaliq atam haqqında mediaya müsahibəsində demişdi ki, atam, polis baş leytenantı Pəhlivan Fərzəliyev 1990-cı ilin yanvarın 20-də Sovet ordusu tərəfindən törədilən faciədən sonra elə həmin illərdə vətəninə dayaq durmaqdan ötrü illərlə öz ailəsi ilə birlikdə yaşadığı, işlədiyi Qazaxıstandan Azərbaycana gəlib.

Birinci Qarabağ Savaşı başlayan kimi könüllü olaraq, zabit təcrübəsini vətən uğrunda vuruşanlarla, Azərbaycan Milli Ordusu ilə bölüşməkdən ötrü müharibəyə yollanıb. Bəli yuxarıda qeyd etdiyim kimi atam vətəni hamıdan çox sevdi, onun uğrunda döyüşməyi, ölməyi seçdi.

**- Ən ürək yaxan olay isə o idi ki, atanızın dəfn olunduğu Dilağarda 1993-cü ildə işğal olundu və atanızı ziyarət etmək imkanınız da əlinizdən çıxdı.**

- Atam yaşımın elə çağında şəhid oldu ki, o vaxt çox körpə idim və heç nə anlamırdım. Atam haqqında təəssüratlarım mən böyüdükcə formalaşmağa başladı, anamın, qohum əqrabanın, atamın dostlarının, sağ qalmış silahdaşlarının, bir sözlə atamı tanıyan hər kəsin danışdığı təəssüratlar atamı mənə atamdan daha çox bir qəhrəman kimi tanıtdı. Atam atadan çox kumirim oldu, pərəstiş etdiyim peyğəmbərim oldu... Bir sözlə, atam atadan çox pərəstiş etdiyim, oxşamaq istədiyim qəhrəmanım oldu.Bilmirəm e, necə deyim, necə çatdırım ata aclığımı sizə...

Hərdən, yolda, marşrutda gözlərində kədər, bənizi solğun bir uşaq görəndə elə bilirəm şəhid uşağıdır. Az qalıram, onu elə ordaca bağrıma basam, saçını-başını tumarlayam, deyəm, qaqaş sənin atan bir igiddir, bir elin fəxr edəcəyi qəhrəmandır, belə kədərli durma, belə məzlum baxma... baxışlarındakı o dumana- çənə qurban!...

Bax, mənim atam da əlçatmaz, ünyetməz bir müqəddəs varlıqdı, əlim çatmır, ünüm yetmir. Ta uşaqlıqdan tay-tuşlarımın, sinif yoldaşlarımın məktəbə gedərkən, məktəbdən gələrkən, lap elə oyun oynadığımız yerlərə atasının əlindən yapışaraq gəlməsi, atasının yanında uşaq sevinci ilə atdanıb düşməsi, ürəkdən gülməsini, sevinməsini gördükcə Allaha yalvarırdım ki, tək bircə dəfə atam gəlsin mən də onun əlindən bərk-bərk yapışım, yanında hoppanım-düşüm, gülüşüm oralara yayılsın. Heç olmasa, 1 dəfə "valideynlər iclası"na anam yox, atam getsin, iclasdan çıxan ataların arasında anam yox, atam olsun! Gəlib qucaqlasın məni, desin ki, oğluma halal olsun, əsl mənəm! Amma anam deyirdi bu sözləri. Deyirdi ki, elə bil atansan ki, durmusan!

Uşaq vaxtı savaşırdıq, bilirsiniz, balaca oğlanların adəti idi savaşmaq! Həmişə döymürdüm ki, döyülürdüm də! Anama demirdim, amma gecələri başımı yastığa basıb doyunca ağlayırdım. Axı, niyə yanımda deyilsən, niyə filankəsin atası onu qorudu, amma sən gəlmədin ... ?Elə çılğınca ağlayırdım ki..

Çox vaxt yuxuda olanda da ağlayırdım, çünki, çox vaxt anam məni yuxudan oyadıb, nəvaziş göstərirdi, nə olduğunu, niyə ağladığımı soruşurdu. Amma mən təbii ki, demirdim, atamı gözləyirdim, gecələr qaranlıq otaqda ona şikayət edirdim, dərdimi deyirdim...

Amma böyüdükcə, xalqımızın qəhrəman oğluna, şəhid övladına verdiyi dəyər dünyaya baxışlarımı dəyişdi! İndi deyirəm ki, nə yaxşı mənim atam vətəni-xalqı uğruna döyüşüb.

Nə yaxşı ki, xalqı onunla fəxr edir! Nə yaxşı ki, mən şanlı övladam və elə kişinin oğluyam! Şəhid övladlarına üz tutub deyirəm...Siz də sevinin! Böyüdükcə necə dəyərli bir insanın övladı olduğunuzu dərk edəcəksiniz!

**- Atanızın yolu ilə getdiniz... Siz də polissiniz!**

- Məni belə şərəfli bir quruma layiq bilib qəbul edənlərə dərin təşəkkürümü bildirirəm! Bütün şəhidlərimizin o cümlədən şəhid polislərimizin ruhu qarşısında baş əyirəm!

**- Bu gün atanızın şəhidliyə yüksəldiyi bir gündür! Dilağardaya getmişdinizmi?**

- Düzünü deyim nə qədər ki, Dilağarda işğal altındaydı, atamın anım gününü xalqımızla birgə Füzuli rayonunun Horadiz şəhərindəki Milli Qəhrəmanlar Parkında qeyd edirdik. Qobu Dilağarda kəndi (Dilağarda, Qobu Dilağarda, Araz Dilağarda) 2020-ci il noyabr ayının 9-u Azərbaycan Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildi. 2021-ci ilk dəfə ayağım Dilağada torpağına dəydi. Atamın qovuşduğu torpağa. Bilmirəm , e, o hissləri necə başa salım...

Təsəvvür edin, bir səhradan susuz, dili-ağzında qurumuş kimi gəzirsiniz, girinc olmusunuz su axtarmaqdan və qəflətən qarşınıza bir şəlalə çıxır.

Atamın qəbrini görəndə sanki, o susuz adam mən idim şəlaləmi gördüm. Yanan qəlbimə su səpildi. Qəbrin üzərinə yıxılıb, 34 illik gizlətdiyim açılarını, göz yaşımı rahatca çölə buraxdım. Hönkürtümdən vahimələnirdim... Atam torpağına qovuşmuşdu, mən atama.. Sarmaş-dolaş idik sanki... *(kövrəlir, özünü toplamağa çalışır və susur... )*

Hər dəfə ora gedəndə özümü çox xoşbəxt, şad hiss edirəm... 2022-ci ildə Dilağardaya gedəndə "eyni yaşımız mübarək , atam" deyədeyə ora çatdım ! Çünki həmin il mənim 34 yaşım vardı və atamın şəhid olduğu yaşdaydım. Amma yaşasaydı bu ilin sentyabrında 66 yaşını bayram edəcəkdik...

**- Mobil, atanız Pəhlivan Fərzəliyevin simasında bütün şəhidlərimizin ruhu qarşısında baş əyirik! Ruhları şad olsun, neçə ki, artıq şaddır! Sən son olaraq nə demək istərdin!**

- Bu arada məni atama qovuşduran Allaha, Ali Baş Komandana və Azərbaycan ordusuna minnətdaram! Elə o vaxtdan atamı hər il ziyarət edirəm. Gələn ay da gedəcəyəm, inşallah!Atamı ürəyim istəyir.Tez-tez istəyir... Gedəcəyəm!

**- Gözünüz aydın olsun!Yurdunuz azad, atanız qəhrəman , özünüzdə onun yolunun davamçısı! Allah xalqımızı hər zaman qələbə, zəfər və səadətlə müjdələsin!**

**Söhbətləşdi:**
**Əntiqə Rəşid**

## *Leyla Əliyevanın iştirakı ilə ağacəkmə aksiyası keçirilib*



**Aprelin 16-da Heydər Əliyev Fondunun vitse-prezidenti, "IDEA" İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın iştirakı ilə "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən boş ərazidə ağacəkmə aksiyası həyata keçirilib.**

Adalet.az xəbər verir ki, bu ərazi vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmişdir. "IDEA" İctimai Birliyinin təşəbbüsü və könüllülərin iştirakı ilə həmin ərazi tullantılardan təmizlənib, torpaq qatının tökülməsi ilə rekultivasiya edilib.

Təəssüf ki, bu gün paytaxtımızda hava təbəqəsi avtomobil nəqliyyatı, istehsal və istehlak fəaliyyəti zamanı yaranan tullantılarla çirklənir, havada olan toz və digər yad maddələr insan sağlamlığına, bütün ekoloji tarazlığa zərər verir. Meşə zolağının salınması, yaşıllaşdırma fəaliyyətləri ekoloji tarazlığın bərpasına və havanın keyfiyyətinin yaxşılaşdırılmasına müsbət təsir edir.

Leyla xanım Əliyevanın iştirakı ilə baş tutan budəfəki aksiyada meşə zolağının salınması nəzərdə tutulan ərazinin sahəsi iki hektara yaxındır. Aksiya zamanı 500 Eldar şamı, sərv, tuya, akasiya, zeytun ağacları əkilib və abadlıq işləri aparılıb. Bu ərazidə ağacların səmərəli sulanması və su israfının qarşısının alınması üçün damcılı suvarma sistemindən istifadə nəzərdə tutulub.

"IDEA" İctimai Birliyi bu cür ekoloji aksiyaların mütəmadi olaraq təşkili ilə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir.

## *Əsgəran avtomobil yolunun inşasına start verilib*



**Azərbaycan Respublikası Prezidentinin tapşırıq və sərəncamları əsasında Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə yol infrastrukturu layihələrinin icrası fasilə verilmədən davam etdirilir.**

Adalet.az xəbər verir ki, bu layihələrdən daha biri - Əsgəran avtomobil yolunun inşasına başlanılıb.

Bərdə-Ağdam avtomobil yolunun 40-cı kilometrini Əsgəran qəsəbəsi ilə birləşdirən (Ağdam şəhərinin dairəvi yolu) və uzunluğu 18 km olan avtomobil yolu Qarabağın inkişaf planı nəzərə alınmaqla II texniki dərəcəyə uyğun olaraq inşa edilir.

Hazırda avtomobil yolunda layihə üzrə torpaq işləri görülür. Belə ki, xüsusi texnikalardan istifadə olunmaqla yararsız qruntun çıxarılması, yolun genişləndirilərək profilə salınması işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü suötürücü borular, su keçidləri, həmçinin zəruri olan yerlərdə yeraltı və kommunikasiya xətləri üçün nəzərdə tutulan ehtiyat keçidlərinin inşası da aparılır.

Avtomobil yolunun tikintisinin başa çatdırılması imkan verəcəkdir ki, Bərdə istiqamətindən Xankəndi, Şuşa və Laçın şəhərlərinə getmək istəyən sürücü və sərnişinlər, Ağdam şəhərinə daxil olmadan bu dairəvi yoldan istifadə edərək sürətlə və təhlükəsiz hərəkətlərini davam edələr.

Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə və tərtib edilmiş qrafikə uyğun şəkildə, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin nəzarəti altında həyata keçirilir.

**Əsgəran avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# "SALAM, XATİRƏLƏRİM..." – dedi

Bu da may... Bu da ömrün daha bir ayı, daha bir mayı... Bu da illərin 1959-dan başlayan və 2024-ün qapısını açan "mayovka"sı. Amma 1991-ci ilin oktyabr ayının 30-dan 31-nə keçən gecədən 27 sentyabr 2020 -yə kimi yoxdur mənim üçün nə may, nə də mayovka!..

Düşünməyin ki, mən təqvimi qarışıq salıram, günləri, ayları dolaşdırıram. Bunu heç ağlınızın ucuna da gətirməyin. Ona görə ki, mən təqvim yazmıram, təqvim tutmuram və bir də bunu mən heç ağlımdan da keçirməmişəm. Ona görə ki, təqvim məndən öncə tutulub və məndən sonrakı təqvim də yazılıb. Bu güc sahibi hər kəsə - yerə də, göyə də, canlıya da, cansıza da nəzarət edəndi. Sadəcə, mən Allahın verdiyi ömrün mayovkalı günlərinin nisgilini, həsrətini yaşayıram. Onun ömrümə, günümə necə yazıldığını, yaddaşıma necə hoduğunu düşünəndə, gözümün önünə gətirəndə yaramın qaysaqları qopur... göynərtisi tüstümü təpəmdən çıxarır. Və inana bilmirəm ki, mən o günləri yaşamışam, mən o anların xoşbəxt bəndəsi olmuşam... İnana bilmirəm ki, indi günlər boşuna, mənasız və hətta bəzən cansıxıcı və üzücü keçir. Şəxsən mən bu günləri nə ömürdən saymıram, nə də onları "ölü günlər" adlandırmaqdan çəkinmirəm. Hətta...

Bəli, bu "ölü günlər" ömrə gün calayır... Ömrü zaman baxımından, say baxımından uzadır. Lakin bu günlər bir şeirdə yazdığım kimi:

*Misraların*
*arasında*
*ötür günlərim...*
*Vergüllərlə*
*uzansa da,*
*nöqtələrlə*
*bitir günlərim...*
*Bəzən olur*
*baş qarışır*
*dost, tanışa...*
*ya bir işə*
*ya görüşə...*
*Ya da elə tənhalığa*
*çəkilirəm*
*bir anlığa...*
*Bütünlüklə*
*söylədiyim məqamlarda,*
*küsür məndən*
*qələm, kağız,*
*misralar da...*
*İnan,*
*cismən yaşasam da*
*bu arada,*
*elə-belə...*
*səs-səmirsiz*
*bitir günlər...*
*gəlib, keçib*
*ötür günlər!..*

Hə, bax, belə yaşamağın mənasını, mahiyyətini düşünmək zənnimcə, heç kimin ürəyincə olmaz, necə ki, mənim də ürəyimcə deyil. Və ürəyimcə olmayan bu günlərdən qurtuluşumu mən xatirələrimdə tapıram. Ona görə də daha çox təkliyə, tənhalığa üz tuturam, daha çox səssizliyə çəkilirəm... həmsöhbət oluram xatirələrimlə. Yəni dünənimlə, özümlə və bir də bu xatirələrin personajları olan iştirakçılarla. Təbii ki, bu personajların içərisində canlı, nəfəsli, bu gün də yaşayanlar var, təbiət parçaları da, dünyasını dəyişmiş tanışbiliş də, doğmalar da...

Bəli, indi gözümün qarşısındadı doğulduğum kənd, oxuduğum məktəb, uşaqlıq dostlarım, müəllimlərim, şagird yoldaşlarım... Birmənalı şəkildə hamısının adını da, soyadını da, boy-buxununu da xatırlayıram. Təəssüf edirəm ki, sinif yoldaşlarımdan Pəhlivan, Aydın, İradə Şövkət... dünyasını dəyişib. Şagird dostlarımdan müharibənin yaralarını canında daşıyanlar da var, şəhid olanlar da var. Və onların hələ orta məktəbdən necə qəribə xüsusiyyətlərə malik olduqları az qala bir kitablıq yazı kimi yaddaşıma hopub... Bilmirəm, hansı anı dilə gətirim, hansı sözlərini təkrar edim. Ona görə də gücüm bir "ah" çəkməyə çatır. Hardasa inanıram ki, bu "ah" bir rəhmət duası kimi gedib çatacaq onlara, ruhlarını sevindirəcək. Elə dünyasını dəyişmiş müəllimlərimi də, doğmalarımı da, iş yoldaşlarımı da... Çünki axirətin sakini olan bu insanların hər biri nakamdı, Qarabağ nakamıdı... Gözləri o torpağın, o yurdun nisgilini özü ilə aparıb...

Hə, indi xatirələrlə bağlı ovqatın içərisində olduğum an kəndimin o gözəl mənzərəsi, o gözəl günləri çəkir məni özünə.

Elə bil ki, cənnət çağırır məni... elə bil ki, dupduru hava, su, göz, könül oxşayan, ürəyi dağ boyda edən sevgi haraylayır məni. Və mən də dostlarımla evimizin nemətlərindən, bərəkətindən çantama yığıb bulaq başına gedirəm - Mayovkaya!

Süfrə açırıq... Özümüzlə gətirdiyimiz nemətləri düzürük süfrəyə. Topladığımız quru ağaclardan ocaq çatırıq. Öncədən evdə basdırma etdiyimiz əti çubuq şişlərə çəkirik.

Bu işin ustası uşaqların içərisində daha fəal olan Zakirdi. Bu da səbəbsiz deyil. Onun atası rəhmətlik Həmid kişi meşəbəyi idi. Ona görə həmişə meşədə, təbiətin qoynunda olan Zakir atasının "çölçülüyünü" yaxşı mənimsəmişdi. Hansı bulağın başında əyləşməyi, hansı ağacın közündə kabab bişirməyi və kababa hansı otlarla, çiçəklərlə dada gətirməyi mükəmməl bilirdi. Beləcə, başlayırdı "mayovkamız!". Bütün günümüz demməklə, gülməklə, zarafatla, hətta müxtəlif oyunlarla keçirdi. Bir də baxıb görürdük ki, şər qarışıb, artıq evə qayıtmaq vaxtıdı... Doğrusunu deyim ki, həmin günün səhəri adamın heç məktəbə getməyə həvəsi olmurdu. Amma getməliydik. Həm şagird kimi borcumuz idi, həm də valideyn nəzarəti bizim başımızın üstünü kəsmişdi. Və biz məktəbdə də, fasilələr zamanı ancaq mayovkadan söhbət edirdik...

İndi bütün bunların ovqatını yaşaya-yaşaya bir vaxtlar yazdığım şeirin misralarını da yaddaşımda təzələyirəm. Onda yazmışdım ki:

*Daha dağdan enirəm*
*Yavaş-yavaş sönürəm...*
*Dünənimə dönürəm -*
*Salam, xatirələrim...*
*Balam - xatirələrim!..*
*O ləzətlə, o, tamla -*
*Əlin dolu bir camla...*
*Gəldim yenə, bir damla -*
*Alam, xatirələrim...*
*Salam, xatirələrim...*
*Bir də bu yol salınmaz*
*Bir də o ney çalınmaz...*
*Bircə sənsən, alınmaz -*
*Qalam, xatirələrim!*
*Salam, xatirələrim...*
*İçdin ruhumun yağın*
*Öpdün gözümün ağın...*
*Mənə hamıdan yaxın -*
*Balam, xatirələrim*
*Salam, xatirələrim...*
*Haqdan mənə "çök!"-gəlib*
*Karvan yorğun - lök gəlib!*
*Öz ömrümə köklənib..*
*Lalam,xatirələrim!*
*Salam, xatirələrim...*

***

Bəli, xatirələr adamı danışdırır. Hətta ən susqun adamın da dilini açır. Və bir də görürsən ki, ömrün, günün çözələnib.

Həmin çözələn zamanın içərisində kədərin özü də adama doğmadı. Çünki o kədəri sən öz çevrənlə, öz mühitinlə, səni anlayanla birlikdə yaşamısan. Sağında, solunda, hətta kürəyində doğma nəfəs, güvəncli nəfəs hiss edirən. Onda kədərə güc gəlirsən, kədər dizindən aşağıda qalır. Qalib sən olursan, kədər yox!

Nə deyim illərə... Nə deyim zamana... Doğrusunu etiraf etsəm, deməyə söz çoxdu. Amma illər, zaman ötüb gedibdi.

Deyəcəyim söz elə bir sürət sahibi deyil ki, gedib onlara çatsın, yetişsin. Odur ki, elə bildiklərimi, duyduqlarımı xatirələrim kimi ürəyimdə çözüb özümün həmsöhbət olmağım daha dürüst qərardı. Mən də bu qərara istinad edərək bu nəticəyə gəlirəm ki, insanın iç dünyası özünəməxsus olmaqla yanaşı, həm də ən böyük sığınacağıdı. O sığınacaqdan insanı yalnız ölüm çıxara bilir və bir də harda olduğunu Allah bilir! Və bir də o sığınacaq ömür uzadır. Çünki səni arzuladığın, xatırladığın yerlərə, adamlara aparır...

İndi bu xatirələr ovqatının diqtəsiylə öz-özümə pıçıldayıram:

*Qapım daha döyülmür*
*Gün düşmür pəncərəmə...*
*Bütün bunlara görə*
*Allahı dəng eləmə -*
*Sus... otur...*

*Günü günə qaynaq et*
*Qəlbi dərdə yaylaq et!*
*Vüsalını bayraq et*
*Həsrətlə cəng eləmə -*
*Sus... otur...*

*Gecdi ta umma öyüd*
*Ömür payını üyüt!*
*Ümidini sən böyüt*
*Heç kimə zəng eləmə -*
*Sus... otur...*

*Yazı birdi, pozan bir*
*Mənim kimi ozan bir!*
*Olsa da bil, yozan bir*
*Dünyanı çəngələmə -*
*Sus, otur!..*

***

Hə, mən bu yazını illərimin yaddaşımda qaladığı ocağın işığında yazıram. Bu obrazlı bir fikir olsa da, əslində bir gerçəkdi. Çünki yaş artdıqca həyatın gerçək üzü daha çox çılpaqlaşıb özünü büruzə verdikcə dünyanın necə namərd olduğunu anlayırsan. Ömrün etibarsızlığına, adamların biganəliyinə alışırsan. Tam şəkildə bilirsən ki, bu dünyada sənə qalan və özünlə aparacağın iki qismətin var, iki payın var - onun biri xatirələrindi, biri də sevgin! Hər an səninlə olan xatirələrin və sevgin canına, qanına o qədər bağlıdır ki, onu ölüm də səndən ala bilmir. Məcbur olub səninlə birlikdə aparır. Yaddaşa köçürsən, bax, onda kimlərinsə o xatirələrdən, o sevgidən xəbəri varsa, məqamı gələndə, söz-sözü çəkəndə dilə gətirir. Xəbəri olmayanlar isə...

... Hə,birdə sizlərdən kimsə mayovkada olubsa, onun da yaddaşında bu yazı bir qığılcım kimi işaracaq... onu da dünənə çəkib aparacaq... onu da mənim kimi kövrəldəcək... Məhz həmin o adamlar mütləq mənimlə həmfikir olacaqlar. Axı biz eyni şineldən çıxmışıq, eyni zamanın adamlarıyıq. Və deməli, hər gün xatirələrimizə doğru gedir və ona qovuşmağa can atırıq...

## Yeni hazırlanmış 7 dərslik istifadəyə veriləcək

**2024-2025-ci tədris ilində Təhsil İnstitutunun (ARTİ) hazırladığı V sinif Azərbaycan dili (dövlət dili) və riyaziyyat, VI sinif coğrafiya, VII sinif fizika, kimya və biologiya dərslikləri kütləvi istifadəyə veriləcək. V sinif dərslikləri iki il, VI və VII sinif dərslikləri isə bir il sınaq prosesindən keçib.**

Adalet.az xəbər verir ki, bu barədə "Azərbaycan müəllimi"nə açıqlamasında



ARTİ Tədris Resursları Mərkəzinin direktoru Zaur İsayev məlumat verib.

Onun sözlərinə görə, hazırda VI sinif Azərbaycan dili (tədris dili), riyaziyyat, coğrafiya, VII sinif fizika, kimya, biologiya və coğrafiya dərslikləri sınaq prosesindədir.

"Növbəti il VI siniflər üçün Azərbaycan dili (tədris dili) və riyaziyyat, VII sinif coğrafiya, VIII siniflər üçün fizika, kimya və biologiya dərslikləri sınaq prosesinə veriləcək" - deyə Zaur İsayev bildirib.

Mərkəz direktoru yeni hazırlanan dərslərin üstünlüklərindən danışaraq deyib ki, yeni dərsliklərdə müasir yanaşmalardan və yeni pedaqoji texnologiyalardan geniş istifadə edilir:

"Məsələn, VI və VII siniflər üçün yeni hazırlanmış coğrafiya dərslikləri indiyə kimi coğrafiyanın ənənəvi təhsil üsullarında bir qədər fərqli, ən qabaqcıl təhsil institutlarının tətbiq etdikləri coğrafiyanın müasir öyrətmə üsullarının istifadə edilməklə hazırlanıb.

Ənənəvi dərsliklərə alışan müəllimlərin yeni dərsliklərdən səmərəli istifadə etmələri üçün onlardan müəyyən səylər tələb olunur. Təbii ki, zamanla bu problemlər də həllini tapacaq".

Direktorun fikrincə, problemin daha sürətlə aradan qaldırılması üçün Elm və Təhsil Nazirliyi təlimlər təşkil edir, müəlliflərə yeni yanaşma ilə bağlı mütəmadi məlumatlar verilir:

"Digər fənlərlə bağlı da analoji problemlərlə rastlaşırıq. Sınaq prosesi bütün bu problemləri aşkar etməyə və bunların səbəblərini müəyyən etməyə imkan verir".

## Rusiyadan gətirilən dondurulmuş toyuq məhsullarında bakteriya aşkarlandı

**Rusiyadan Azərbaycana idxal edilən dondurulmuş toyuq məhsulunda salmonella aşkarlanıb.**

Bu barədə Adalet.az-a Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən məlumat verilib.

Qeyd olunub ki, "Ladess Group" MMC-nin Rusiya Federasiyasından idxal etdiyi "Stavropolskiy Broyler" MMC-nin "Nevinnomısskiy" filialının istehsalı olan ümumi çəkisi 19,2 ton dondurulmuş toyuq filesi məhsulundan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib.

Aparılan sınaq nəticəsinə əsasən, nümunələrdə salmonella bakteriyası aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq təhlükəli məhsulun gömrük ərazisinin hüdudlarından kənara çıxarılması və ya məhv olunması barədə qərar qəbul edilib

# "Şəhid Əhməd - Oğluma məktub" filminin təqdimatı keçirildi

**Qarabağ müharibəsində qəhrəmancasına həlak olan Əhməd Məmmədovun şəhadətə ucalmasının 30-cu ildönümüdür.**

Adalet.az xəbər verir ki, bununla əlaqədar Sumqayıt şəhər Nəriman Nərimanov adına Mədəniyyət Mərkəzində anım tədbiri keçirilib. Eyni zamanda, şəhidimizin həyatı və döyüş yolundan bəs edən filmin təqdimatı baş tutub.

Tədbirdə şəhid ailələrinin üzvləri, qazilər, dövlət və ictimaiyyət nümayəndələri, fəlsəfə doktoru Mail Yaqub, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Sumqayıt şəhər şöbəsinin sədri Hacızadə Tərlan, millət vəkilləri Ceyhun Məmmədov və Müşfiq Məmmədli iştirak ediblər. Tədbirdə öncə şəhid Əhməd Məmmədov barəsində məlumat verilib. Daha sonra şəhi-







dimizin oğlu, tanınmış jurnalist Zaur Əhməd çıxış edərək Azərbaycan xalqının yaddaşında hər bir şəhidin qəhrəmanlıq dastanı əbədi qalacağını bildirib. Sonra o, hazırlanan "Şəhid Əhməd - Oğluma məktub" filminin necə ərsəyə gəlməsindən danışıb. Daha sonra filmin ssenari müəllifi, ehtiyatda olan zabit Seymur Şahbazzadə çıxış edib. O da film barədə ətraflı məlumat verib. Filmdə müharibənin ilk illərindən son qələbəyə kimi baş verən proseslərin əks olunduğunu, ağır müharibə dövründən mütləq qələbəyə qədərki hadisələrin yer aldığını bildirib. Sonra film təqdim olunub.

Təqdimatdan sonra şəhər icra hakimiyyətinin nümayəndələri, millət vəkilləri, ictimaiyyət adamları çıxış edərək fikirlərini bölüşüblər.

**Daha sonra tədbir bədii hissə ilə davam edib.**

# Həcc ziyarəti ilə bağlı 500 nəfər aldadıldı

**Qafqaz Müsəlmanları İdarəsi Həcc ziyarəti ilə bağlı vətəndaşlara xəbərdarlıq edib.**

Adalet.az-ın məlumatına görə, bu barədə Qafqaz Müsəlmanları İdarəsinin Xarici Əlaqələr şöbəsinin müdiri və Həcc Elektron Sistemi üzrə məsul Vüsal Cahangiri məlumat verib. Şöbə müdiri deyib ki, keçən il Həcc mövsümündən sonra, yəni iyul ayının sonunda Səudiyyə Ərəbistanı Krallığının Həcc və Ümrə Nazirliyi bir çox ölkələrə, o cümlədən Azərbaycan vətəndaşlarına elektron viza almaq şəraitini yaradıb: "Elektron viza birillik və çoxgirişli verilir. Bəzi işbaz şirkətlər və yaxud fərdlər isə vətəndaşların başını aldadaraq elektron viza ilə Həcc ziyarətinə, daha ucuz qiymətə aparacaqlarını bildiriblər.




Bizdə olan məlumata görə, hazırda təxminən 500-ə yaxın vətəndaş bu işbazların qurbanıdır. Keçən il də belə işbazların çoxlu qurbanı olub, onlardan pul yığıblar, lakin apara bilməyiblər, xeyli vətəndaşın pulları batıb. Bununla bağlı bizdə dəqiq məlumatlar var, həmin şəxslərin ələtilları bu il eyni vizalarla vətəndaşları aldadıblar. Həcc ziyarəti üçün xüsusi viza alınır. Krallıqda Həcc ziyarətinə getmək üçün xüsusi sahələr və ərazilər var - Ərəfat, Mina, Müzdəlifə. Bu yerlərə yalnız Həcc vizası ilə daxil olmaq mümkündür.

**Vətəndaşlardan xahiş edirik ki, bu cür təşviqedici təkliflərə aldanmasınlar. Səudiyyə Ərəbistanı Krallığının müvafiq nazirlikləri bundan tam xəbərdardırlar və bu barədə tədbir görməyə hazırlaşırlar. Elektron vizalarla Həcc ziyarətinə getmək istəyənləri deportasiya və cərimələr gözləyir"./lent.az**

# Bəlkə ictimai kanal cəmiiyyətin bütün təbəqələrini qucaqlamaq istəyir?

**"Bəlkə ictimai kanal cəmiiyyətin bütün təbəqələrini qucaqlamaq istəyir? Bəlkə də reytinq savaşında zirvələrə bayraq sancacaq? Bilmirəm. Mən hər halda bu məsələni də xeyirə yozuram. Amma yenə də nə olursa olsun efirdən "bildiyin p..x", "q ə", "o ş" və qeyri ibarələrin açıq və hətta xüsusi vurğu ilə işlənməsinin əleyhinəyəm".**

Adalet.az xəbər verir ki, bu sözləri redaktor, jurnalist Lalə Əliyeva öz sosial şəbəkə hesabında yazıb. O, İTV-də yeni yayımlanan "Alatava" serialı haqqında fikrini bildirib.

"Axır vaxtlar hansısa serialda yumora reaksiya verdiyim yadıma gəlmir. Amma "Alatava"ya baxıb az qala hər epizoda güldüm. Düzdü, mənə yoldaşlıq edən Abdulqənidən utanırdım bir az. Elə Abdul da başını aşağı salmışdı. Niyə? Hə, niyəsi qəliz məsələdir. İş ondadı ki, əvvəllər istedadlı insanların məşhurlaşmaq üçün televiziyaya ehtiyacları vardı. İndi tam əksinə. Telekanallar youtube və s. şəbəkələrdə populyarlıq qazananlardan reytinq cədvəlində qədlərini düzəltmək üçün kömək umurlar.

Yəni son illər kiçik büdcəli filmlərdə sözlərini demiş Əlixan Rəcəbov, Taleh Yüzbəyov öz yollarına sadiqdirlər. Ölkədə ən ağır sınaqlarla üzləşən, yaşamaq uğrunda mübarizədə əzilən, tapdanan təbəqənin yanındadırlar. Rus demiş,



"razve çto" janrın tələblərinə uyğun, adətən açıq səsləndirdikləri ağır söyüşləri hələ ki, İTV-nin xatirinə bir birinin qulağına pıçıldayırlar...

"Hələ ki" ifadəsini ona görə işlətdim ki, söyüş də təbiiliyin, səmimiyyətin, həqiqət və ədalətin tərkib hissəsi sayılır, onsuz süjetin və dialoqların "ədvası" azalır ki, adlarını çəkdiyim rejissor, ssenarist, layihə rəhbərləri buna uzun müddət yol verməzlər.

Yaxşı bəs İTV niyə yolunu dəyişir? Çiçəklənən vətən naminə konyukturaya ciddi riayət edib, sosial həyatdakı qatı qaranlıqları çömçə ilə qarışdıran məşhur aparıcıların canlı efirlərinə qədər "əyilmədiyi" halda, "Əqrəb mövsümü", "Alatava" kimi seriallar vasitəsilə problemlərin və söyüşlərin qaynaşdığı acı gerçəyin bədii mənzərəsini "prime time" rahat əks etdirir?

**Bəlkə də reytinq savaşında zirvələrə bayraq sancacaq? Bilmirəm. Mən hər halda bu məsələni də xeyirə yozuram. Amma yenə də nə olursa olsun efirdən "bildiyin p..x", "q ə", "o ş" və qeyri ibarələrin açıq və hətta xüsusi vurğu ilə işlənməsinin əleyhinəyəm. Bir azdan söz verdiyim kimi, serialın müsbət tərəflərini də yazacam. Cəmi 1 həftəyə yarım milyondan çox izləyicinin bəyəndiyi cəhətləri görməmək üçün gərək kor olasan. İntəhası, bir az da fikirləşməyə ehtiyacım var".**

**Emin**

*Əntiqə Kərimzadə*



# Xoşbəxt görüntü, acı həyat hekayəsi...

***Bu daha çox Şərq ölkələrində belədir ki, övlad nankorluğu həmişə lənətlənib. Ümumiyyətlə, nankorluq insana mənəvi zərbə endirən xarakterdir. Yaxşı övlad ataana üçün sevinc gətirirsə, pis övlad dərd dağarcığına çevrilir. Bu fotoşəkil Azərbaycanın korifey bəstəkarı, şöhrətli dirijor Niyazinin arxivindəndir. Şəkil ilk baxışda xoşbəxt bir sovet ailəsinin adi gününü xatırladır. Bəstəkar iş stolu arxasında, balaca oğlu da royal arxasında... Dərhal sovetsayağı "atalardan oğullara şanlı estafet" şüarı yada düşür.***

***Amma tale bəzən insanla pis oynayır. Dirijor Niyazi ilə dünyalar qədər sevdiyi Həcər xanımın izdivacından övladları olmayıb. Onların övladları olmadığından qohumlarından Ceyhun adlı oğlanı övladlığa götürüblər. Amma Niyazi və Həcər xanımın böyütdüyü bu oğlan məşhur ailəyə fəlakət gətirib.***

***Bütün qayğısız uşaqlıq dövrünü bu məşhur ailənin evində keçirən Ceyhun günlərin birində narkotik alüdəçisinə çevrilir. Elə ailə dramı bundan sonra başlayıb. Ceyhun Niyazi və Həcər xanımı min bir əziyyətə düçar edib. 1990-cı il isə Niyazinin ailəsi üçün dəhşətli hadisə ilə yadda qalıb. Bəzi məlumatlara görə, narkotik almaq üçün pul dalınca evə gələn Ceyhun istədiyini əldə edə bilməyəndə analığı Həcər xanımı öldürmək qərarına gəlir. Əvvəl analığının***

***başından vurur, sonra isə onu boğur və evi qarət edərək qaçır.***

***İndi Niyazinin ev-muzeyində sahibinə məxsus xatirə əşyalarının və əlyazmalarının çoxu yoxdur. Deyilənə görə, o əşyaların bəzilərini (məsələn, Maestronun həmişə barmağına taxdığı brilliant qaşlı üzüyü) Ceyhun evdən çıxararaq satıb, puluna narkotik alıb.***

***Ceyhunun taleyi də acınacaqlı olub. Bəzi məlumatlara görə, o, həbs olunub və 2000-ci ildə azadlığa çıxıb, səfil həyatı keçirib. Deyilənə görə, azadlıqda olduğu müddətdə atalığının mənzilinə də ara-sıra baş çəkib. Onun əşyalarına, paltarlarına baxıb fikrə dalırmış, ağlayırmış, özünü söyürmüş...***

***Son məlumatlara görə, Ceyhun qanunsuz silah gəzdirdiyinə görə 2012-ci ildə həbs edilib. Onun hazırda həbsxanada olduğu qeyd edilir...***

*Eminquey*



# Bu plakatla başlayan bir etiraza "yox" deməzlər

**Türkiyədə kəndlərin birində kənd muxtarlığı maraqlı bir addım atıb. Kənddə asılan plakatda "Cənazə evində yemək yeyilməz, yemək aparılar. Bundan sonra yas məclislərimizdə yas yeməyi qadağan olunub. Kəndlilərimizə saygı ilə duyururuq" deyə yazılıb.**

**Vallah, o tam haqqı,**

**Hər kənddə, hər məscidin önündə, hər məhəllədə, hər qəbiristanlığın qarşısında bu plakat olmalıdır.**

**Təbii ki xalq özünü düşünürsə.**

**Düşünmürsə, heç nə, yas aşını, halvanı, qoğalı, mərsiyəxanların yaxşı ağlada bilib-bilmədiyini müzakirə etməyə davam edin!**

## "BMT TŞ-sı Yaxın Şərqdə eskalasiyaya imkan verməməlidir"

**Rusiyanın xarici işlər nazirliyinin mətbuat katibi Mariya Zaxarova mərkəzi telekanalda çıxışı zamanı bəyan edib ki, BMT Təhlükəsizlik Şurası Yaxın Şərqdə eskslasiyaya imkan verməlidir.**

"Biz, vəziyyətin daha da gərginləşməməsi üçün eskakasiyanın qızışdırılmaması tərəfindən çıxış edirik. BMT Təhlükəsizlik Şurası bunun üçün bütün imkanlarından istifadə etməlidir"- deyə xanım Zaxarova bildirib. Mariya Zaxarovanın da qeyd etdiyi kimi, BMT TŞ-sı "bir çox ölkələrin tutduğu mövqeyə görə, resurs bazalarından istifadə edə bilmir". Diplomat xanım "bir çox ölkələr" dedikdə, təbii ki, ilk növbədə ABŞ-ı nəzərdə tutur. Çünki Birləşmiş Millətlər təşkilatının "resurs bazalarının" açarlarının Vaşinqtonun əlində olduğunu bilməyən yoxdur.

**Rüstəm Hacıyev**



Səxavət Məmməd

# İran İsraili cəzalandıra bildi?

***İranla İsrail arasında baş verənlər düşmənçiliyin yeni mərhələsidir. İlk dəfə idi ki, İran İsrailə birbaşa zərbələr endirdi.***

***Suriyadakı konsulluğun İsrail tərəfindən vurulması İranı çətin vəziyyətə saldı. İran buna ya cavab verməli, ya da rejim imicinin yerlə bir olmasına göz yummalı idi. İrandakı rejimi molla, əhalini isə müqəvva kimi görə bilərik.***

***Unuduruq ki, ətrafımızdakı ölkələr arasında ən çox mitinq, aksiya, üsyan olan ölkə İrandır. İranlılar reaksiya vermədiyi üçün hakimiyyəti qınamağa başlamışdı. Bunu ən azı sosial şəbəkələrdən görə bilərdik.***

***İran hadisədən dərhal sonra cavab verəcəyini bildirdi. Hücumdan 48 saat əvvəl İran 9 adda 100 ədəd ballistik raketi hazır vəziyyətə gətirmişdi. Hücumdan bir gün əvvəl isə "Hizbullah" 2 dalğa kütləvi raket hücumu həyata keçirdi, bir dəfə isə HƏMAS. Bu, İranın hücumu üçün vacib amil idi.***

***Çünki kütləvi hücumlar hava hücumundan müdafiə sistemlərinin tükədilməsinə hesablanmışdı. İranın hücumundan əvvəl də qeyd edirdim ki, İran raket hücumlarını bir neçə dalğa dron hücumundan sonra həyata keçirəcək və bu da baş verdi. İran bu hücumu daha dəhşətli hala da gətirə bilərdi. Misal üçün dronlar İsrail sərhədinə yaxınlaşanda "Hizbullah" kütləvi raket zərbələri endirə bilərdi.***

***Bu zaman İsrail və müttəfiqləri çətin vəziyyətə düşəcəkdi. Nəinki Azərbaycanda, hətta xaricdə belə hörmət etdiyim bəzi ekspertlər İranı hücumdan əvvəl xəbərdar etdiyinə görə lağ obyektinə çevirdi.***

***Gəlin, məsələyə obyektiv baxaq. İran İsrailə hücumda özünü haqlı tərəf sayır və konsulluğunun vurulmasına cavab zərbəsi endirir. Beynəlxalq konvensiyalar İranı burda haqlı hesab edir. Təsəvvür edin, İran özünü haqlı bilir və xəbərdarlıqsız dron hücumu, raket zərbələri endirir. Havada mülki təyyarələrdən biri vurulardısa, İran yenə özünü haqlı hesab edəcəkdi? Qətiyyən! Yəni, İranın xəbərdarlığı "İsrail, hazırlaş, raket göndərirəm" deyildi, heç İsrailə də deyildi. İranın xəbərdarlığı raketlərin uçacağı trayektoriyadakı dövlətlərə idi. Dronlar qaldırılmamışdan əvvəl Yaxın Şərqin hava məkanının xəritələrini yəqin görmüşdünüz, havada İsrail, ABŞ, Böyük Britaniya və İordaniyanın hərbi təyyarələrindən başqa heç nə yox idi. Bir çoxlarına başa salmaq olmur ki, müharibənin özünün də qaydaları var.***

***İran istəyinə çata bildi? Ümumiyyətlə, İranın hədəfi nə idi, məqsədi nə idi? Öncə bu suallara cavab tapıb, sonra qərar vermək lazımdır. İran konsulluğu vurulandan da yazırdım ki, hücumlar yalnız və yalnız cəzalandırmaq xarakteri daşıya bilər. İran İsraili cəzalandıra bildi? Düşünmürəm. Ancaq ciddi şəkildə İsrail və müttəfiqlərinə xəbərdarlıq etdi ki, cəzalandırmağı bacarar. Bundan əlavə, İran daxildəki pıçı-pıçıları da kəsmiş oldu. Dolayısı ilə İranın İsrailə bu hücumu həm də daxilə hesablanmış ola bilər.***

***İranın hücumundan sonra ABŞ anladı ki, İsrailin müdafiəsini təşkil etmək üçün daha ciddi addımlar atmalıdır. Bu isə Rusiya və Çinin işinə yarayır. İranın hücumdan əvvəl Rusiya və Çinlə danışıqlar aparması da buna bir işarədir. Rusiya Ukrayna cəbhəsində öz işini görməkdə davam edir. Proqnozlar onu deyir ki, Üçüncü Dünya Müharibəsi Çin və Tayvan toqquşması ilə başlayıb, davam edəcək. Çin də maraqlıdır ki, ABŞ-nin başı digər ocaqlara qarışmış olsun.***

***İranla İsrail arasındakı gərginlik bəlkə də ən çox Azərbaycanı və Azərbaycan ictimaiyyətini düşündürməlidir. Hesab edirəm, dövlət bunu düşünür, ancaq ictimaiyyətlə bağlı bunu demək o qədər də asan deyil. Dəfələrlə yazılıb, deyilib ki, İranın vurulması üçün Azərbaycandan hava məkanı istənilib, rəsmi Bakı buna birmənalı olaraq "yox" deyib. Hesab edirəm ki, Azərbaycan bu məsələni birdəfəlik və illər öncədən həll edib. Yəni, İran Azərbaycan üzərindən vurulmayacaq. Azərbaycanla İsrail münasibətləri ortadadır. İsrail Azərbaycana silahlar satır. Bir çoxları məhz buna görə Azərbaycanın İsrail arasında seçim edərkən İsraili seçməli olduğumuzu deyir. Sual yaranır. Ticarət, yoxsa dövlətin təhlükəsizliyi?***

***İran İsrail məsələsinə Azərbaycan ictimaiyyəti Türkiyənin gözü ilə baxmalıdır. Çünki Azərbaycan Türkiyənin strateji maraqlarına uyğun davranacaq. Səbəb? Açıq və gizli müqavilələr. Türkiyə İranın İsrailə zərbə endirəcəyini bəyan edəndən dərhal sonra açıq şəkildə bildirdi ki, onun hava məkanından İran vurulmayacaq.***

***Diqqət ediriksə, İran da Xamneyinin raketin üstünə otuzdurulmuş şəkillərini yox, dövlətin addımlarını ciddiyə alır.***

# Bakı Dövlət Universitetində Aqil Abbasla görüş

**Bakı Dövlət Universitetində millət vəkili, yazıçı Aqil Abbasın tələbələrlə görüşü keçirilib.**

Adalet.az xəbər verir ki, tədbirdə BDU-nun sosial məsələlər, tələbələrlə iş və ictimaiyyətlə əlaqələr üzrə prorektoru Əliş Ağamirzəyev Aqil Abbasın həyat və yaradıcılığı barədə geniş məlumat verib.

"Əvvəlcə istədik, tədbirini adını "BDU-nun nüfuzlu məzunları" qoyaq, sonra düşündük ki, onsuz da BDU-nun tələbələrinin demək olar hamısı nüfuzludur. Sonra fikirləşdik ki, "BDU-nun məzunları qonağımızdır" olsun,





gördük ki, məzunlarımız heç vaxt burada qonaq olmayıb, BDU onların öz evləridir. Ona görə də bu tədbiri "BDU-nun məzunları" adlandırdıq. Tale elə gətirib ki, mən həm jurnalistika üzrə, həm də ədəbiyyat üzrə mütəxəssisəm. Aqil Abbas imzasını həm jurnalist kimi, həm də yazıçı kimi yaxşı tanıyıram. Aqil Abbas hər şeydən əvvəl xalqın ziyalısıdır. Xalqın dilində, xalqın sözünü deyən ziyalıdır" - deyən Əliş Ağamirzəyev Aqil Abbası salamlayıb və görüşdə iştirak edən tələbələri yazıçını daha yaxından tanımağa, müzakirələrdə iştirak etməyə çağırıb.

Çıxışını zarafatla başlayan Aqil Abbas tələbələri salamlayıb, BDU-nun 1976-cı ildə məzunu olması səbəbilə bu görüşdən məmnun olduğunu vurğulayıb:

"Çox yaxşı oxuduğuma görə məni 1 il kursda saxladılar ki, getmə, qal biraz da oxu. Əslində səbəb başqa idi. Biraz davakar idim deyə bu da bir gün başıma bəla oldu. Biz tələbə olanda mühazirə yazdığımız dəftərin yuxarısına "Azərbaycan Dövlət Universiteti" yazıb taxırdıq toqqamıza. Küçədə fəxrlə gəzirdik, qoy qızlar görsün ki, biz harda oxuyuruq. O vaxt bir universitet var idi. Şifahi xalq ədəbiyyatını keçəndə bayatı da yazmışdıq. "Əzizinəm dilən gəz, Əlini aç dilən gəz, APİ-də xan olunca, Universitetdə dilən gəz". APİ-də oxuyanların xətrinə dəyməsin, bu bizim öz aramızdakı zarafat idi. Əvvəllər bir universitet var, elə indi də bir universitet var. Sonralar nə oldusa, bütün institutlar adını dəyişib universitet elədi. Mən də qəzetdə yazdım ki, kasıb itinin adını gümüş qoyan kimi institutlar da adını dəyişib universitet qoydular, elə bildilər universitet olacaqlar. Mümkün deyil".

Daha sonra yazıçı universiteti bitirdikdən sonra 1 illik müəllimlik fəaliyyətindən də danışıb:

"Taleyim elə gətirdi ki, Ağsuda yaşayan bir qohumum katib idi. Universitetdən təyinat veriləndə məni Ağsuya saldılar. Orada 1 il internat məktəbində ədəbiyyat müəllimi işlədim. Gördüm ki, Ağsu camaatı qonağına nə qədər mehribandır. Ondan sonra jurnalistika ilə maraqlanmağa başladım. Jurnalistika fəaliyyətimdə heç vaxt 3 rayon haqqında tənqid yazmamışam, işçilərimi də yazmağa qoymamışam. Biri Ağdamdır, oralıyam, biri Ağcabədidir, orada doğulmuşam, biri də Ağsudur, 1 il ağsuluların çörəyini yemişəm".

Yazıçı çıxışını bitirdikdən sonra tələbələrin suallarını cavablandırıb. Tələbələr xüsusən "Dolu" romanı, yazıçının şəxsi həyatı ilə bağlı suallar ünvanlayıblar.

**Sonda yazıçı "Çay qırağında bitib, susuz qalan ağacların sağlığına" povestini tələbələrə hədiyyə edib. Tələbələr kitabı maraqla qarşılayıb. Aqil Abbas kitab çatmayan tələbələrə də kitab göndərəcəyinə söz verib, tələbələr onunla şəkil çəkdiriblər.**

**Eminquey**

# İsrail ağalarını çeynəyəcəkmi?

**İsrailin baş qərərgah rəisi İranın zərbələrinə "cavab reaksiyası" veriləcəyini vəd etdi**

İsrailin baş qərırgah rəisi, general-mayor Hertsi Halavi Nabatimdə HHQ-nin aviabazasını ziyarət edərkən bəyin edibdi ki, İranın İsrailə pilotsuz uçuş aparatları və raketlərlə hücuna cavab reaksiya verəcək və gələcək addımları müəyyənləşdirəcək.

"Biz ərazilərimizə çoxlu sayda raker zərbələri endirilməsinin cavabını verəcəyik"- deyə "Ynet" potalı generaın bəyənatını yayıb.

"İran İsrail dövlətinin strateji imkanlarına zərbə vurmaq istəyirdi"-deyə bildirən Halevi, qeyd edib ki, əvvəllər bu cür hallar baş verməyib.

"İsrail irəli baxır, biz atılacaq addımlarımızı düşünürük və İsrailin ərazilərinə raket hücumları cavabdız qalmayacaq"- deyə baş qərərgah rəisi əmin edib.

Xəbər verdiyimiz kimi, İsrailin baş naziri Benyamin Netanyahu bildirmişdi ki, ABŞ prezidenti Co Baydenlə məsləhətləşmələrdən sonra, İranın raket hücumlarına cavab verməmək qərara alındı. (yəni "xozeyn" icazə vermədi...R.H.) Birləşmiş Ştatların dövlət katibi Entoni Blinken də qeyd edib ki, ABŞ bundan



sonra Yaxın Şərqdə münaqişənin eskslasiyasına imkan verməməyə çalışır. Dövlət katibinin sözlərinə görə, Tehranın hücumu göstərdi ki, İsrail təkbaşına müdafiə olunmamalıdır.

Ağ Evin milli təhlükəsizlik komitəsinin strateji kommunikasiyalar üzrə kordinatoru Con Kirbi məsələyə aydınlıq gətirərək bildirib ki, ABŞ İsrailin İranın hücumlarına cavab verəcəyinə qərar verib-verməyəcəyini bilmir. Onun sözlərinə görə, Vaşinqton Yaxın Şərqdə genişmiqyaslı müharibənin başlamasını istəmir və İranla münaqişə axtarmır. İndi əsas məsələ odur ki, bütün baş verənlərdən sonra İsrail okeanın o tayındakı müttəfiqlərinin (ağalarının) sözünü çiynəyib, İranın raket hücumlarlna cavab verəcəkmi?

Cavab verməyə qalxacaqsa, bunun İranla genişmiqyaslı müharibəyə başlaması olduğunun fərqindədirmi? Yoxsa bu bəyanatlar sadəcə İsrail xalqının qəzəbini soyutmaq üçün verilən vədlərdir?

Xatırladırıq ki, İsrailin İranın Dəməşqdəki diplomatik korpusuna hücumundan sonra, İran tərəfi də, ən yüksək səviyyədə İsrailə qarşı kəskin bəyənatlarla çıxış etmişdi. Az qala "böyük müharibənin" başlayacağı anonsunu vermişdi.

Lakin İsrail ərazilərinə-uğurlu, ya uğursuz- raket hücumlarından sonra, bu hücumların məhdud çərçivədə planlaşdırıldığını bəyan edərək, İranın bundan sonra İsraillə eskalasiysya getməyəcəyini açıq şəkildə nümayiş etdirmişdi.

**Yəni hələlik Yaxın Şərqdə də, vəziyyət Ukrayna cəbhəsində olduğu kimi, ABŞ-ın istədiyi məcarada davam etməkdədir. Münaqişələr nəzarətdən çıxmır, gərginliyin artmasına imkan verilmir, yalnız Birləşmiş Ştatlarln planına uyğun olaraq qeyri-müəyyən sonsuzluğa qədər davam edir...**

**Rüstəm Hacıyev**

## Antibiotiklərin zərəri varmı?

**ABŞ-da aparılan bir araşdırma göstərdi ki, antibiotiklər aşağı tənəffüs yolları infeksiyalarının əksəriyyətinin müalicəsində təsirli deyil və hətta infeksiya bakteriyalar tərəfindən törədilsə belə, öskürəyin şiddətinə və ya müddətinə təsir göstərmir.**

Corctaun Universiteti Tibb Mərkəzi və Viskonsin Universitetinin tədqiqatçıları ABŞ-da aşağı tənəffüs yolları infeksiyaları üçün ilkin tibbi yardım və ya təcili yardım şöbələrinə müraciət edən insanlar üzərində araşdırma aparıblar.

Tədqiqatçılar, bakterial infeksiyaların müalicəsində istifadə edilən müvafiq antibiotiklərin təyin olunduğu bu xəstələrin yüzdə 29-unda antibiotiklərin öskürəklərinin şiddətinə və ya müddətinə təsir etmədiyini və bu mənada onlarla xəstə olan xəstələr arasında heç bir fərq olmadığını müəyyən ediblər. təyin edilməyən antibiotiklər.

İnfeksiyanı müəyyən etmək üçün mikrobioloji laboratoriya testlərində patogen skrininq aparan tədqiqatçılar nəticələri 4 sinfə böldülər: tərkibində yalnız bakteriya olanlar, yalnız viruslar, həm bakteriya, həm də viruslar olanlar və heç bir orqanizm olmayanlar. Təsdiqlənmiş bakterial infeksiya olan insanlarda sağalma müddəti antibiotik qəbul edənlər və qəbul etməyənlər üçün eyni idi, yəni 17 gün.

Tədqiqatçılardan Dan Merenstein, yuxarı tənəffüs yollarının infeksiyalarına soyuqdəymə, faringit, sinus və ya qulaq infeksiyalarının daxil olduğunu və antibiotiklərin yazılmalı olub-olmadığını müəyyən etmək üçün yaxşı qurulmuş yolların olduğunu ifadə etdi.Digər tərəfdən, aşağı tənəffüs yolu infeksiyalarının daha təhlükəli olma potensialının olduğunu və bu xəstələrin yüzdə 3-5-ində pnevmoniyanın görüldüyünü ifadə edən Merenstein, ilkin səhiyyə şöbələrində rentgen şüalarına çıxışın asan olmadığını qeyd etdi.

Araşdırma məqaləsi "Journal of General Internal Medicine" jurnalında dərc olunub. Antibiotiklərin həddindən artıq istifadəsi başgicəllənmə, ürəkbulanma, ishal və səpgilərə səbəb olur, həmçinin anafilaksiya, həyati təhlükəsi olan ciddi allergik reaksiya, Stivens-Conson sindromu, dəri və dəridə nadir bir pozğunluq kimi ciddi mənfi təsirlərin təxminən 4 faiz riskinə səbəb olur. Selikli qişalar və Clostridioides difficile ilə əlaqəli ishal təsirlərə səbəb ola bilər. Ümumdünya Səhiyyə Təşkilatının aprelin 4-də dərc etdiyi açıqlamaya görə, antibiotiklərin həddindən artıq istifadəsi nəticəsində yaranan nəzarətsiz antimikrobiyal müqavimətin orta ömür müddətini qısaltacağı və görünməmiş sağlamlıq xərcləri və iqtisadi itkilərə səbəb olacağı gözlənilir.

**Emin**


**Ramiz Göyüş**
**Yazıçı-publisist**




# Şair İbrahim İlyaslının sevgi şeirləri üstə gəzişmələr

**Araşdırmalar və müşahidələr göstərir ki, məhəbbət şeirləri şairlərin ilk şeirlərinin mövzusu olub. Şairlərimizin böyük əksəriyyəti də ilk məhəbbət bəlasına düçar olduqdan sonra şeir yazmağa başlayıblar və onlar uzun müddət ilk məhəbbətin təsiri altında çoxsaylı, silsilə şeirlər yazıblar. İlk məhəbbətdən yaranmış duyğular getdikcə püxtələşmiş, kamilləşmiş və sonda ilk məhəbbət şeirləri tədricən ictimai məzmun kəsb edən şeirlərlə əvəz olunmuşdur. Müşahidələr də sübut edir ki, dünyaca məşhur şairlərin də ən gözəl şeirləri sevgi və məhəbbətə həsr olunmuş əsərlərdir. Elə bilirəm ki, dediklərimə dahi Nizaminin "Xosrov və Şirin", Füzulinin "Leyli və Məcnun", Şeksprin "Romeo və Julyetta", Puşkinin "Ruslan və Lyudmila" poemalarını, müəllifi və yaranma tarixi bilinməyən "Yusif və Züleyxa", "Tahir və Zöhrə", "Şahsənəm və Qərib", "Əsli və Kərəm" məhəbbət dastanlarını misal gətirsəm kifayət edər. Deyilənlərdən belə nəticə hasil olur ki, məhəbbət mövzusu poeziyamızın əzəli və əbədi mövzusu olaraq qalacaqdır. Bir həqiqət də aydındır ki, dünyada nə qədər insan var, o qədər də məhəbbət var və bu məhəbbətlərin heç biri də bir-birinə oxşamır. Bu səbəbdən şairlərin məhəbbət mövzusunda yazdığı şeirlərin məzmunu da, müəllifin ustalığı da, poetik ifadə forması da fərqlidir.**

Yaradıcılığını araşdırmaq istədiyim İbrahim İlyaslı fitrətən məhəbbət şairidir. Onun nəinki məhəbbət mövzusunda yazdığı şeirlər, əslində bütün yaradıcılığı tamamilə səmimiyyətdən yoğrulub. Elə ona görə də şeirləri bu qədər oxunaqlı, cəlbedici, yaddaqalandır. Xalq şairi, Ustadımız Nəriman Həsənzadə demiş: "Onun təfəkkür tərzi aydın olduğu üçün, fikrini sadə şəkildə ifadə edir, istədiyi oxucuda istədiyi poetik ovqatı oyada bilir. İbrahim sözə qənaət edir, o, fikrə geniş yer verməyə çalışan oxunaqlı şairlərimizdəndir:"

***Sən gözəl olmaya bilməzsən, xanım!***
***Sözlərindən çəmən, çöl ətri gəlir.***
***Bircə yol tel vurub səsini duydum,-***
***Bir ildi ovcumdan gül ətri gəlir.***

***Xəyalımda əsmər bənizin durur,***
***Unutmam - çalına İsrafil Suru...***
***Bu qara sevdadan, gözümün nuru,***
***İbrahim qoxuyan kül ətri gəlir.***

Təsadüfi deyil ki, İbrahim İlyaslı çağdaş poeziyamızda şeirləri bədii qiraətçilərin diqqətini özünə cəlb edən, radio və televiziya kanallarında, sosial şəbəkələrdə ən çox səslənən və dinlənən barmaqla sayılan şairlərimizdən biridir. Bədii qiraətçilərimizin ustalığına və ifasına zərrə qədər xələl gətirmədən elə burada xüsusulə qeyd etmək istəyirəm ki, İbrahim İlyaslının şeirləri öz səsində, öz ifasında daha möhtəşəmdir. Və mənə elə gəlir ki, şairin öz səsində şeirləri birbaşa öxucunun, dinləyicinin qanına, iliyinə işləyir.

Səmimi desək, İbrahim İlyaslının poeziya yaradıcılığı özünəməxsusluğu ilə fərqlənir və onun şeirlərində bir misra belə boşuna deyilməyib. Sanki bu misraların hər biri göydən bir vəhy şəklində diktə olunur:

***Könlümün gizli bir şahzadəsidi,***
***Ayın sirri, Günün ağ haləsidi.***
***Bu qoşma bir ahın şəlaləsidi,***
***İbrahim eləcə mirzədi, deynən.***

Elə bu baxımdan bu yazıda mən fikirlərimi İbrahim İlyaslının sevgi şeirləri üzərində kökləmək istəyirəm.

Görkəmli ədəbiyyatşünas-alim, professor Rüstəm Kamal şairlərin sevgi şeirlərindən söhbət salanda demişdir: "Qadın sevgisi kişi yaddaşının varlığını şərtləndirir. Uşaqlıq xatirələrindən, yurd nisgilindən sonra sevgi tarixçələri kişinin xatırlamaq istədiyi, ən şirin xatirələrdir". Rüstəm müəllimin bu kəlamları fonunda, İbrahim İlyaslının "Sizin də məhləyə yağış yağırmı" sətri ilə başlayan şeirini nəzərdən keçirək:

***Sizin də məhləyə yağış yağırmı,***
***Sular söyləşirmi navalçalarda?***
***Ala gözlərinə qonan buludun,***
***Neçə yaşı olur bu son baharda?***

***Kəndə dönürsənmi xəyallarında,***
***Yadına düşürmü o payız günü?-***
***Birlikdə məktəbdən evə dönürdük,***
***Yeni haqlamışdıq "Sarı Körpü"nü.***

"Və qəfil başladı leysan tökməyə, sel ağzına aldı, bərəni, bəndi". Bu şeiri oxuduqca mənə elə gəldi ki, şair bu şeiri elə həmin anda, o dəm, bədahətən, məktəbdən evə qayıdanda yazıb. Baharda yenicə tumurcuqlamağa başlayan çiçəklər kimi içində çücərmək istəyən pak, təmiz, şəffaf və zərif duyğuların ifadəsidir bu şeir. Adama elə gəlir ki, müəllif içində bu cücərən müəmmalı, anlaşılmaz duyğuların sevgi adlandığını bəlkə heç özü də hələ dərk də bilmirdi. Şeiri oxuduqca ifadənin səmimiliyi oxucunu heyrətə gətirir:

***Başqa yermi vardı daldalanmağa,***
***Qaçıb akasiyanın altında durduq...***
***...Titrəyib əsirdin həyacanından,***
***Tutub əllərindən qorxma söylədim.***
***Qorxulu nağıllar düşdü yadıma,***
***Sənin qəhrəmanın olmaq istədim.***



"Sonrası?.... Nə deyim, sonrası heç nə. Buludlar dağıldı, yağış da kəsdi, Ancaq ürəyimdə şırım açmağa, mənə bu xatirə bir ömür bəsdi." İndi aradan 40 il keçdikdən sonra o vaxt cücərməyə başlamış, lakin gül açmamış bu sevdanın sızıltısı, göynərtisi yenidən müəllifi özündən alıb düz 40 il bundan əvvələ aparır:

***Sizin də məhləyə yağış yağırmı,***
***Sular sevişirmi navalçalarda?***
***Qırx ildi həməncə ağacın altda***
***Səni gözləyirəm, hardasan, harda?***

İbrahim İlyaslı öz yaradıcılığı haqqında danışarkən yazır: "Yazdıqlarımda uğurlu nə varsa hamısına görə çanağını ürəyim bildiyim saza, Yunus Əmrəni, Füzulini, Nəsimini, Seyyid Mir Həmzə Nigarini, müqəddəs ziyarətgahım Hacı Mahmud Əfəndini mənə anladan Nəqşibəndi müridlərinə... və bir də əzəlim-sonum İncə Dərəsinə borcluyam". Düşünürəm ki, İbrahim İlyaslı yaradıcılığının araşdırıcıları onun əsərlərini gələcəkdə məhz bu kontekstdə öyrənməli və araşdırmalı olacaqlar.

Bu mənada, filologiya üzrə fəlsəfə doktoru, şairə Adilə Nəzər - "İbrahim İlyaslı bütün yaradıcılığı ilə Mövlanə,Yunis Əmrə mürididir". - deyəndə tamamilə haqlı imiş.

Mənim qənaətimcə sevg- məhəbbət şeirlərinə münasibətdə İbrahim İlyaslı həm də Füzuli mürididir. Füzulidə olduğu kimi İbrahim İlyaslı da ilahi bir Eşqə mübtəla olub və şeirlərin qəhrəmanı da Füzuli kimi müəllifin özüdür.

Əgər Füzuli "Məndə Məcnundan füzun aşiqlik istedadı var, Aşiqi sadiq mənəm Məcnunun ancaq adı var", və ya "Nə pərvanə doyar bir şöləyə, nə şəm bir aha, Füzuli, sanma kim, bənzər sənə aləmdə hər aşiq." deməklə, indi 500 il keçdikdən sonra bütün ədəbi aləm Məcnun obrazının məhz Füzulinin özü olduğunu etiraf etməyə məcbur edirsə, o zaman Füzuli dühası qarşısında bir daha baş əyməli olursan. Və həqiqətən ona bənzər bir aşiqin olmadığını qəbul etməkdən başqa bir imkan qalmır. Məhz İbrahim İlyaslı da öz mürşidinin yolu ilə gedərək yaratdığı məhəbbət dastanlarında (Onun sevgi məhəbbət haqqında yazdığı şeirlərin hər biri bir dastan yükü daşıyır) baş qəhrəman olaraq özünün obrazını yaradıb.

***Mən eşq əsiriyəm, gül sevdalısı,***
***Bircə bülbüllərə həsədim qalır.***
***Mən eşqə düşəndə canla düşürəm,***
***Çıxanda quruca cəsədim qalır.***

Diqqət yetirsək görərik ki, İbrahim İlyaslı bir qayda olaraq sevgi şeirlərinə müxtəlif müəlliflərdən epiqraflar seçir. Seçilmiş epiqrafların xeyli hissəsi Füzuli qəzəllərindən götürülmüşdür və bu da təsadüfi deyil. Əslində seçilmiş bu epiqraflar şairin-aşiqin, Füzuli dühasına, onun şəxsiyyətinə, yaradıcılığına böyük sevgisindən, məhəbbətindən irəli gəlir. Ancaq təkcə bu da deyil.

Füzulinin qəzəllərindən seçilən, bir növ həm də Füzuli şeirinin ruhundan, məzmunundan, ahəngindən vəcdə gələrək onun qəzəlləri ruhunda öz qoşmalarını yaratdığına dəlalət edir. Gəlin şairin "Məni ömrüm boyu çək imtahana" sətri ilə başlayan şeirinə diqqət yetirək. Şeirə Böyük Füzulinin "Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni, Bir dəm bəlayi-eşqdən etmə cüda məni" bəndi epiqraf seçilmişdir.

Böyük Füzuli burda epiqraf gətirilən şeirini qəzəl janrında, İbrahi İlyaslı İsə qoşma janrında yazıb. Hər iki əsərdə aşiq sevgilisinin vüsalına yetmək üçün hər cür cəfa çəkməyə hazırdır.

***Ya Rəb, bəlayi-eşq ilə qıl aşina məni!***
***Bir dəm bəlayi-eşqdən etmə cüda məni!***
***Az eyləmə inayətini əhli-dərddən.***
***Yəni ki, çox bəlalarə qıl mübtəla məni!***

İbrahimi İlyaslının böyük məhəbbət şairi Füzuliyə müraciət etməsi təkcə ona olan böyük sevgidən irəli gəlmir, həm də sevgi və məhəbbətin əbədiliyindən irəli gəlir, hisslərin, duyğuların təkrar olunduğunu sübut edir.

***Məni ömrün boyu çək imtahana,***
***Mənə ömrün boyu zülm elə, noolar.***
***Görüm nə çəkibdir dəli-divana,***
***Görüm eşq əhlinə zülm ilə noolar.***

Şeirin ikinci bəndində İbrahim İlyaslı sanki yenidən Füzulinin "Məni candan üsandırdın, Cəfadan yar usanmazmı" məşhur beytinə müraciətən şeirin növbəti bəndini davam etdirir:

***Təsəlli umduqca kəs umudumu,***
***Görüm necə olur candan usanmaq!***
***Tutuşub odlara, deyim-budumu***
***Füzulidə yanmaq, Vaqifi qanmaq!***

Şeir davam etdkcə oxucunu ovsunlayır, sehrinə salır. Sanki müəllifin aləmində, vəcd məqamındasan:

***Yaşıl ağac olam, qara daş olam,***
***Yolların üstündə bitməyə qoyma,***
***Sərgərdan ruh olam, kəsik baş olam***
***Qoyma vüsalına yetməyə, qoyma.***

Göründüyü kimi Füzulinin 500 il bundan əvvəl yazdığı qəzəllə, İbrahim İlyaslının indi yazdığı qoşma mənə etibarı ilə eyni səsələnsə də, həm forma, həm də məzmunca fərqlənir.

Şairin, "Şair olmaq zülümdür" kitabında "Bir havanın dörd qoşması" başlığı ilə təqdim olunmuş "Ömrüm" adl qoşmaya müəllif Füzulinin

***Nalədəndir ney kimi avazeyi- eşqim bülənd,***
***Nalə tərkin qılmazam, neytək kəsilsəm bənd-bənd.***

Böyük Üzeyir Bəyin "Arşın mal alan" operettasında və filmində Füzuli və Üzeyir Bəy dühalarının birgə məhsulu kimi təqdim olunan Əsgərin ariyasının sözləri də, musiqisi də, ifa da doğrdan da möhtəşəmdir.

Mən indi deyə bilmərəm ki, Füzuli qəzəli filmdəmi İbrahim İlyaslının diqqətini cəlb edib, yoxsa tamaşadamı? Hər halda Əsgərin ariyasını dinlədikcə dərhal xəylındən ilk sevgi oxu daşa dəymiş, sevgilisinin vüsalına çatmaq üçün hər əzab, əziyyətə qatlaşmağa hazır olan aşiqin kədərli anları göz önündən keçir.

Şair İbrahim İlyaslı isə təkcə Füzulinin deyil, həm Əsgərin, həm də müəllifin özünün sevgi iztirablarını qeyri adi ifa tərzi ilə poetik ustalıqla ifadə edə bilib. Və güman edirəm ki, son dövrlərdə ədəbiyyatımızda və poeziyamızda bu səpkili bir əsər yaranmamışdır. İbrahim İlyaslının bu şeirini bəlkə də Füzuli qəzəlinə bir nəzirə adlandırmaq olardı. Lakin hər iki şeirin mətni mahiyyət etibarı ilə eyni olsa da, həm də bir-birindən ciddi sürətdə fərqlənir.



Tamella Həmidqızı, jurnalist

# Məramın əlacdırsa...

*Biri mənə şair dedi, dondum yerimdə,*
*Dünya məndən yer istədi bəbəklərimdə.*

*M.Araz*

**Şairlik insana Tanrıdan bəxşiş verilən cövhərdir. Zəhmətlə hər damlasını mayalandırıb bərəkətləndirsən, onun halallığını alarsan. İnsan yorulmazlığı, səbr etməyi ilahidən öyrənmədimi?!.**

Yusif Mədət kimi tanınmağa başlayanda təbinə, duyğularına, sənətə "hə" dedi, "yox demə"di. Qələminə elə sarıldı ki, barmaqlarından sözün şirəsi, suyu çıxdı:

*Sahil ümüdümü qırma,*
*Gözünü açsın oyanış.*
*Ağzına su alıb durma,*
*Su, yuxunu mənə danış.*

Şair dünyadan xəbərdar olanda bir məcraya sığışmır. Yusif Mədət hələ gənc şair ikən "Oyuncaq mağazası"nı yazanda müdrik idi, sözə dəyər verə-verə "Nəğməkar" oldu. Şöhrətə yol belə başlandı:

*Nalə nəğmədən öncəmi?!*
*Göz yaşı gözdə incimi?!*
*Aşıb-daşan sevincimi*
*Kədərimlə tarazladım.*

Sevdiyim şeirlər içərisində heç zaman köhnəlməyən bir "Anamdan yadigar oxlov" da var. Hər gün gördüyümüz, lirikadan uzaq saydığımız əşyalar, hamımızın baxdığı, lakin duymadığımız şeir mövzuları. Şair fitrəti ilə "varam" deyən detallar. Bir küncdə nəzərimizi cəlb etməyən, işimiz düşəndə əlimizə aldığımız nazik, uzun, odun parçası şair Yusifin lirikasında nida kimi şax dayanıb:

*Oxlovu görüncə yandım, "ox" dedim,*
*Oxlandım, qaraldım girdə sac kimi.*
*Ana həsrətinə əlac yox, dedim,*
*Oxlovu köksümə sıxdım ac kimi.*

Analara yazılan minlərlə əsər içərisində sözügedən şairin oxlova yazdığı şeir də analıdır. Elə misralar var ki, onların altında şairin adı, təxəllüsü, üstündə isə möhürü var. O möhür əsrlər boyu parıldayır, gücünü itirmir. Yusif milliliyi ilə poeziyada xalqının və bütün türk ellərinin dəyərini bəşər övladına elə gözəl tanıdır ki, şairin poetik manevrinə, üslubuna heyran qalırsan. Türkcü yazar olmaq (Bu məqsədlə dara çəkilən 27 yazarın- Cavid Əfədinin, M.Müşfiqin, Ə.Cavadın, Almaz İldırım və s. ruhları şad olsun.) istiqlaliyyət aşiqi kimi dəyərləri qoruyub, gələcək nəsillərə ötürməkdə inadcıl və qətiyyətli ola bilmək deməkdir. Şair bəzən məfhumdan başqa detalla da ölməz əsərlər yarada bilir:

*İstəyir yüz il də, min il də yaşa,*
*Papaqsız hər nizam çaş düşməlidir.*
*Xocalı dərdirini dərk etməz başa*
*Papaq əvəzinə daş düşməlidir.*

Başı, sinəsi dopdolu sənətkarın "Papaqçı"ya yazdığı şeirin bütün bəndləri (12 bənd) hikmətlə elə aşıb daşır ki, bir bəndini bu yazıma gətirməklə ürəyim soyumadı:

*Başa köklənibdir indi qəlbimiz,*
*Bir papaq altında, bəlkə, birləşək.*
*Bəs hardan tapaq ki, o papağı biz,*
*Qoyub qarşımıza bir fikirləşək?!.*

Sənət zövq işidir. Məsələn, ədəbiyyat haqqında ən sadə tərif belədir: "İnsanların bədii zövqünü formalaşdırır". Üslub xarakterə yaxın, orijinallığa meyillidir. Mədəniyyət, incəsənət və ədəbiyyatda əvvəlkiləri unutmayan, təzədən dəbə gətirən zövqlü adamlar var. Bu, sələflərə olan rəğbətdən, varislik haqqına sədaqətdən irəli gəlir.

Y.Nəğməkar sözün, sazın sirrini bilərək aşıq şerinin dildönməz, dodaqdəyməz cəfasını çəkib, müasir poeziyamıza gətirib. 200 yaşlı Dədə Ələsgərin ruhunu şad edib:

*Dərilərdə dərələrdə çiçəklər,*
*Aşiqindi, qızılçalar, çiçəklər.*
*Yaz yalayan yanaqların çiçəklər,*
*Çiçəklərin əlac edər yarana.*

Təbii ki, şairin sevgi dünyasında səsi, sazının incə telləri kimi kövrək, sinə kamanının sədası kimi həzindir. Bu yanğı (əks-səda) həm minorda, həm majorda onun adına layiq (Nəğməkar) əks olunur. Yusifin məhəbbəti qəlbdən sözə kamalla enir:

*Gözlərin bir haqqı, bir də düzü var,*
*Gözlərin gözdən də çox sözü olur.*
*Göz ilə baxanın iki gözü var,*
*Qəlb ilə görənin min gözü olur.*

Baxın, müəllif "Bəsirət gözəli"ni bəsirət gözü ilə görür.

Yusif "arzum, məni körpü elə", "hər gözüm bir günəş, hər sözüm bir ulduz olsaydı" dualarıyla, "ilahi verdiyin dərdlərə şükür" təmkini və səbri ilə "dünyanı sözə tutan", "mən hər an zirvə dumanı kimi dünyadan gedir, hər an zirvənin başağrısı kimi dünyaya gəlirəm, özümü bu dünyaya mən gərəkli bilirəm" düşünən, poeziyanı sevdirməyi bacaran şairdir:

*Əllərimi daş qəlbinə sürtməyə,*
*Könül qıran can daşında qəribəm.*
*Qara ulduz gözlərini silməyə,*
*Bulud olan göz yaşında qəribəm.*

Yusif Nəğməkar hələ orta məktəb şagirdi olarkən müəllimindən "Mənim Vətənim SSRİ-dir" adlı inşa yazmaq tapşırığı alsada, o, "Mənim Vətənim Azərbaycandır" adlı inşa yazmışdır... O, "Azərbaycan" şeiri ilə böyüyən nəslin nümayəndəsidir. Sonralar özü də yazdı ki:

*"Can" söyləyib verməsən can,*
*"Can"dan Azərbaycan olmaz.*
*Çağlamasa nəfəslə qan,*
*Qandan Azərbaycan olmaz.*
*...Qovusmasa, o tay, bu tay,*
*Ondan Azərbaycan olmaz!*



Azərbaycan-Türkiyə bayrağını birgə sözün zirvəsinə qaldıran şair bütün türk ellərinə birlik amalı ilə yaradıcılığının ilk dövründə müəllimlik etmişdi. Vətəndaş yetişdirmək həm dərslərin, həm əsərlərin məsuliyyəti idi. Axı, bəşəriyyətin xilası yüksək amallarla mümkündü:

*Xor milyonlar oxuduğu*
*Ölməz nəğmə, şeirdi.*
*Xorda min-min adamın*
*Səsi bir, qəlbi birdi.*

**("Xor")**

Yusif Nəğməkar qələmini çox sınaqlara çəkib, onun bütün qüdrətini oxucularına tanıtmaq istəyib. Ustadı olan Səməd Vurğun, Rəsul Rza, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Əli Kərim, Fikrət Qoca, Cabir Novruz, Məmməd Araz, Musa Yaqub və sair sənətkarların davamçısı kimi poeziyanın ağır çəkili epik janrında da maraqlı əsərlər yaradıb.

Müəllif "Çanaqqala-türkə qala" poemasını 2015-ci ilin fevral-mart aylarında qələmə alıb. Özü demişkən, ömrünün "60-cı" yuxusu" nda bu əsərinə görə ilin şairi kimi mükafatlandırılıb.

O zaman röyalarımızda Qarabağa getdiyimiz illər, Şuşanı Tanrıdan dualarımızla istədiyimiz günlər idi. Şair sanki, bu həsrətin yanğısını Çanaqqala hünərinin təsəllisi ilə ovudurdu.

O zəfərdən bu səfərə yola çıxmışdı. Sanki Çanaqqalaya ziyarətə yox, bu savaşda vuruşmağa getmişdi. O hünərdən bu zəfərə can ataraq yazırdı:

*O könül, idrak, düşüncə,*
*Tanrısıyla ortaq eşqi.*
*Bütün eşqlərdən öncə*
*Vətən eşqi, torpaq eşqi.*

Oxucu poemanı birbaşa, su kimi oxuyub müharibənin qələbəsini qazanmağa tələsir:

*Savaş gedir, bir səs gəlir,*
*Haydı, haydı, top başına!*
*Mərmiləri mərdimazar quldurların*
*səp başına.*
*Yer üzünün ədəbində,*
*su üzünün qəzəbində*
*Bir daş gəmi üzür-üzür.*
*İçdə savaş, savaş gedir.*
*Ruhda savaş, iştə savaş.*

Türkün böyük zəfərini şair Qarabağa yansıda bilmişdi. O mərdəkanlı Əsəd, vəfalı sevgilisi və silahdaşı Gülcöhrə və Çanaqqala savaşının minlərlə türkiyəli və azərbaycanlı şəhidin qəhrəmanlığını tarixə təzədən yaza bilmişdir. İkinci Qarabağ müharibəsinə tam və qəti qələbə üçün hazırlaşdığımız o illərdə və həmişə bizə belə əsərlər gərəkdi. "Qələm və güc, mənəviyyat və güc. Mən Qarabağın azadlıq düsturunu belə görürəm". "Bu düstur dünyada ən səviyyəli alimlərdən biri, fəxrimiz Rafiq Əliyevindir. Onun dillər əzbəri olmuş cümlələrindən birində "Gəlin xor oxuyaq deyir". Yusif Nəğməkar da "Xor" şeirində belə yazır:

*Xor basılmazlığın əzəli adıdır.*
*Ağıllı qələbənin*
*Namuslu övladıdır.*
*Sözlərin birliyidi,*
*Səslərin diriliyidi, xor.*

Xorla oxunan "Zəfər marşı" istəyir Vətən. Azad olmuş torpaqlarımızı oyatmaq üçün, yenilməz zəfərin qəhrəmanlarını unutmamaq üçün. Şəhid harayı, anaların ağısı, qazilərin ağrısı, əsirlikdə həlak olan qız-gəlinlərin, uşaqların, qocaların xatirəsi üçün, qisasımızı almaq üçün dolğun Vətən nəğmələri də oxumaq lazımdır.

"Zəfər marşı"nı qələmini süngü kimi düşmənin gözünə soxan söz sahibləri yazacaq.

Üzeyir Hacıbəyov (müəllifdən- Hacıbəyli) adına Dövlət simfonik orkestrinin və üçlü xorun müşayiəti ilə Yusif Nəğməkarın "Azərbaycanım" adlı möhtəşəm əsəri Heydər Əliyev adına sarayın səhnəsində səsləndirilib.

**"Məramın əlacdırsa, bu, Vətən torpağıdır" deyən şair indi yaradıcılığının ən bərəkətli çağındadı. Sanballı mövzulardan yeni dəyərli əsərlər yaranacağına əminik. Onun indi Şuşaya, Kəlbəcərə baş çəkən "Laçın ətri" duymaq istəyən vaxtıdı. Hələ qarşıda ömrünün, qələminin möhtəşəm sürprizləri var. Qəlbi cavan, sözü təzə-tər şair istəsə, "Zəfər marşı"da yazar, çünki, o, arzularının çin olması uğrunda əzmlə, ardıcıl mücadilə edən, uğurlu nəticələrə qadir fövqəladə istedada malik, daim vətəndaşlıq ruhunda olan bir şairdir.**

# Troya xarabalıqları

**Müxtəlif dövrlərə aid 10 fərqli şəhər təbəqəsi ilə mürəkkəb və zəngin arxeoloji quruluşa malik Troyada ən qədim yaşayış məskənləri e.ə. 3 min il əvvələ aiddir. 500-cü illərə qədər fasiləsiz məskunlaşan bu unikal ərazi bölgə sakinlərinə o dövrdə Ege dənizindən Qara dənizə qədər bütün ticarəti nəzarətdə saxlamağa imkan verdi.**

Troya Avropa sivilizasiyasının ilkin inkişafını anlamaqda mühüm şəhərdir. Homerin İlyadasına və yaradıcılıq sənətinə verdiyi töhfələrə görə də mədəni əhəmiyyətə malikdir.

Çanakkale vilayətinin sərhədləri daxilində Kaz dağının ətəyində yerləşən Troya 1996-cı ildə Milli Park elan edilib və 1998-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib. Xalq arasında Trova Atı ilə tanınan Troya Qədim Şəhəri Çanakkalenin Mərkəz mahalındakı Tevfikiye kəndinin qərbində yerləşir.

Məlumdur ki, Karamenderes (Skamender) və Dümrek çaylarının axdığı bir körfəzin kənarında yerləşən Troya ilk qurulduğu illərdə dənizə çox yaxın idi və zamanla dənizdən uzaqlaşdı. Min illər boyu müharibə və təbii fəlakətlər nəticəsində dağıdılan, dəfələrlə yenidən qurulan şəhər getdikcə əhəmiyyətini itirmiş, dənizdən uzaqlaşması nəticəsində tərk edilmişdi.

Aparılan qazıntılar nəticəsində 16-cı əsrdən etibarən səyyahların ziyarət etdiyi bölgənin tikililərində çiy kərpicdən istifadə olunduğu üçün şəhər təbəqələrinin üst-üstə yığılıb təpəyə çevrildiyi anlaşılıb. Qədim məbədlərin sələfi olan meqaron tikililərin ən möhtəşəmi Troyada eramızdan əvvəl e.ə. 3 min ildən bəri görülür. Bundan əlavə, hələ dəmirin bilinmədiyi zaman Troyada e.ə. 2500-cü illərdən bəri kəsilmiş daş texnikasından istifadə edilən divar hörgülərinə rast gəlinir.

Müasir muzey yanaşması ilə dizayn edilmiş yeni muzey binası "Troya muzeyi" adlandırılmış və 10.10.2018 tarixində ziyarətçilərin istifadəsinə verilmişdir.

Troya Muzeyi 1998-ci ildə UNESCO tərəfindən Dünya Mədəni İrs Siyahısına daxil edilmiş Troya Qədim Şəhərinin girişində, Çanakkale vilayətinin Mərkəz rayonundakı Tevfikiye



kəndi sərhədlərində yerləşir. Muzey 12 min 765 kvadratmetr qapalı muzey sərgisi, anbar, inzibati vahidlər, sosial obyektlər və təxminən 90 min kvadratmetr böyüklüyündə parsel daxilində 37 min 250 kvadratmetr açıq sərgi, abadlıq və ziyarət sahələrindən ibarətdir. 2018-ci ildə ziyarətçilərin istifadəsinə verilən Troya Muzeyində qazıntılardan aşkar edilən əsərlər vasitəsilə tarixə Homerin "İliadası" ilə keçən Troas bölgəsində iz qoymuş Troyanın həyatı və arxeoloji tarixi və mədəniyyətləri danışılır.

Muzeydə gəzərkən ziyarətçilər yeddi başlığa bölünmüş bir hekayəni izləyirlər:

Troas bölgəsinin arxeologiyası, Troyanın tunc dövrü, İliada dastanı və Troya müharibəsi, Antik dövrdə Troas və İlion, Şərqi Roma və Osmanlı dövrü, Arxeologiya tarixi və Troyanın izləri.

Qərbi Anadolu sahillərində, indiki İzmirdə (qədim Smirna) e.ə. VIII əsrdə yaşamış Homerin "İliada" və "Odisseya" epik dastanları II minilliyə aid şifahi ənənəyə əsaslanır. "Troya müharibəsi" mifi və bu müharibədə iştirak edənlərin kədəri "İliada" və "Odisseya" misraları vasitəsilə bu günə qədər gəlib çatmışdır. Homerin "İliadası" müharibənin 9-cu ilində, Axillesin Axay ordularının baş komandanı Aqamemnona qarşı dərin qəzəbləndiyi və buna görə də müharibəni tərk edərək kazarmalarına çəkildiyi zaman başlayır.

Axilles ən yaxın dostu Patroklosun ölümünə görə müharibəyə qayıdır və Troya kralı Priamın oğlu Hektorla döyüşür, onu öldürür, arabasına bağlanmış cəsədini Troya divarları ətrafında sürüyür və nəhayət Hektorun cəsədi ilə barışması və onu atası Kral Priama qaytarması ilə başa çatır. Paris və Helen əfsanəsinin mövzusu olan Troya Atı, Əhələrin sərkərdəsi Odisseyin Troya şəhərini ələ keçirmək üçün planlaşdırdığı tarixin ən ağıllı döyüş hiyləsi idi.

**Troya Qədim Şəhərinin simvolu olaraq şəhərin girişindəki 12,5 metr hündürlüyündəki at 1975-ci ildə Kaz dağlarından gətirilən şam ağaclarından istifadə edərək türk rəssamı İzzet Senemoğlu tərəfindən dizayn edilib. 2004-cü ildə Troya müharibəsindən ilhamlanaraq çəkilən Troya filmində istifadə edilən atı Çanaqqalanın mərkəzində görə bilərsiniz.**



Fidan Abdurahmanova

# MÖCÜZƏ

*Anam rəhmətə gedəndən iki ay sonra, hələ evdəki əşyaların üzərindən əlinin isitisi getməmiş atam evləndi. Atamın yeni övladı, bizim bacımız olmuşdu. Atam bütün varlığı ilə yeni ailəsini qoruyurdu. Daha sonra atam iki otağın arasında dəhlizdə bizim üçün balaca bir otaq düzəltdi. Bizimlə aralarına divar çəkərək otaqlarını ayırdı. Bu atamın bizim üçün gördüyü sonuncu iş oldu. Həmin yerdən onların otağında yanan sobanın qolu keçirdi. O vaxt anam sobanın bu əlavə qolunu atama düzəltdirəndə heç ağlına da gəlməzdi ki, bir gün bura bizim iki qardaş yeganə sığınacağımız olacaq. Otağımızda baş-ayaq yata biləcəyimiz çarpayı və bir də, sobanın qolu vardı. Sobanın qolunun bizim otagımıza düşməsi heç də təsadüfi deyildi. Bizim evimiz sonuncu mərtəbədə yerləşdiyindən güclü yağış yağan zaman bura su damırdı. Növbəti yay bələdiyyənin siyahısı üzrə bizim binanın damına da növbə çatmışdı. Bu damcılar zərif olsa da, davamlı olduğu üçün öz işini uğurla görmüşdü, döşəmənin sərt taxtasında neçə yeri dələrək keçmişdi. Zaman keçdikcə həmin yerlər çürüyərək bir az da böyümüşdü. Qış aylarında ordan yaman soyuq gəlirdi. Mən qardaşımla həmin yerləri təmir etmək məqsədi ilə köhnə kitablarımızın qalın üzləri ilə bağlamağa çalışmışdım.*

*Bir gün dərsdən gələndə anamın bəzi əşyalarını yeşiklərdə bizim üçün kəsib düzəlmiş ensiz otağın bir küncündə üst-üstə yığılmış gördük. Yeşiklərin üzərində içki şəkilləri olduğu üçün dəyişmək qərarına gəldik. Anam ilin hər ayının on gününü oruc tutardı... Biz elə həmin günü mağazaları gəzərək yenilərini tapıb gətirdik. Anamın paltarlarına iy düşməsin, öz ətrini saxlasın deyə yeşiklərin bir neçə yerini kəsdik. Bu paltarları büküb əzizləyərək, xatirələri ilə birlikdə yenidən yığdıq. Doğum günlərimizdə geyindikləri ilə rastlaşdıqda həmin günün sevincli anlarını yaşadıq, sonuncu dəfə geyindiyi paltarını görəndə darıxdıq...*

*Paltarların altından tapdığımız quzu dərisini isə ayağımızın altına sərdik. Atam sonuncu dəfə bizim üçün qurban kəsəndə dərisi ağappaq idi. Anam demişdi ki, bu dərini yuyub atacam qışda uşaqların ayaqları altına. Bu elə həmin dəri olmalıdı. Bizim üçün bu balaca ensiz otaq gözümüzdə böyüyərək daha da doğma oldu.*

*Dərini çarpayının yanına atdığımız gündən üstünü bağladığımız həmin yerlərdən bəzən siçan səsləri gəlsədə, otağımızda yeməyə bir şey olmadığından gəldikləri kimi də gedirdi. Bir gün dərsdən gələndə həmin dərini otağımızda görmədik. Onların otağına girməyə icazəmiz olmadığından dərini axtara bilmədik. Hər dəfə soruşanda atam bizi möhkəm danlayırdı. Ümumiyyətlə belə bir əşyanın bu evdə olmadığını deyirdi. Bir gün onların otağından - siçan var, deyə bərk qışqırıq səsi gəldi. Biz artıq əmin idik ki, dəri onların otağında idi. Siçanlar qoyun ətinin iyinə gəlir, görəndə ki, qurumuş tüklü dəridir cıxıb gedirdilər. Siçanlar onların otağına məhz o qoxuya görə gediblər. Otaqlarında şirniyyat, konfet olduğundan gecəni orda puskuda dayanır, hava işıqlananda qaçıb gizlənirdilər. Ertəsi gün, siçanlar sizin otağa dəriyə görə girir, dediyim sözdən çox peşman oldum. Atamın vurduğu şillənin gücündən qardaşımı da yıxıb, yerə sərildim. Onların otağından hər gün qışqırıq, siçan səsi gəlsə də, biz bir də bu barədə söz açmadıq.*

*Artıq fevral ayı idi. Dayanmadan qar yağırdı. Evdəki bütün xalça-palaz onların otağında idi. Biz soyuqdan çarpayıdan düşmürdük. Əllərimizi gah sobanın qoluna yaxınlaşdırır, gah da yorğanın altında gizlədirdik. Otağımız qızmırdı ki, qızmırdı. Atama soyuqdur deyəndə, siz yekə kişilərsiz əsas bacınızı qorumalısız, deyirdi. Beləliklə kiçik qardaşımın soyuğa qarşı müqaviməti getdikcə azalırdı. O axı balaca idi, hələ ikinci sinifdə oxuyurdu. Otağımızda isə kitab-dəftərimizdən başqa bircə anamın əşyaları idi. Mən, anamın paltarlarını üstümüzə, ayaqlarımızın altına yığaraq qardaşımın yanına uzanıb onu bərk qucaqladım. Biz yuxudan ayılanda xilasedicilər anamı axtarırdı. Anlaya bilmirdim, bu yuxu idi, yoxsa gerçək. Zəlzələnin gücündən hər yer dağılmış, viran olmuşdu. İnsanlar dağıntılar altından bir-birini çıxarırdı. Hamı ağlayırdı, qışqırırdı, hər kəs kiminə çağırırdı. Xilasedicilər tez-tez anamı soruşurdu. Ananız hara getdi, sizi ona təhvil verməliyik. Anam iki ildir rəhmətə gedib, dedim. Qardaşımı yoxlayan həkim onun büründüyü jaketi, paltarı görüb təəccübləndi. Axı indicə bu paltarları geyinmiş qadın bizə sizin yerinizi göstərdi. Dedi bu divarın altında uşaqların yatıb, xilas edin onları. Onlar əvvəlcə bir-birinə, daha sonra diqqətlə bizə baxıb ağladı.*

*Uzaqdan atam gəlirdi. Qucağında ağ quzu dərisinə bükülmüş uşağı sinəsinə sıxaraq kimisə axtarırdı. Biz təcili yardım maşını ilə həmin ərazidən yavaş-yavaş uzaqlaşırdıq. Yaşadıqlarımız bir möcüzə idi.*

# Azərbaycanda bu provayderlər cərimələndi

**Azərbaycanın telekommunikasiya və poçt xidmətləri üzrə tənzimləyici qurumu İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyinə (İKTA) fəaliyyətləri barədə məlumat təqdim etməkdən yayınan ”Fibernet” və ”ButaTelecom.az” MMC-lər cərimələnib.**

İKTA-dn Adalet.az-a verilən məlumata görə, adıçəkilən provayderlər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 370-2.1-ci maddəsinə (telekommunikasiya operatoru və provayderi tərəfindən sorğuların müəyyən edilmiş müddətdə cavablandırılmaması) uyğun olaraq cərimə növündə inzibati tənbeh tətbiq edilməsi haqqında məhkəmə qərarları qəbul edilib.

İKTA bir daha vurğulayır ki, sahə üzrə məlumatların toplanması telekommunikasiya xidmət bazarlarında təhlillərin aparılması və xidmət bazarlarının formalaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsində mühüm əhəmiyyət kəsb edir.

Sorğulara vaxtında, tələb edilən qaydada və ətraflı cavab verməyən və qanunla üzərilərinə qoyulmuş digər öhdəlikləri icra etməyən operator və provayderlərə qarşı qanunvericiliyə uyğun olaraq tədbirlər görülməsi istiqamətində işlər davam etdiriləcək.

Qeyd edək ki, İnformasiya Kommunikasiya Texnologiyaları Agentliyi ölkədə informasiya-kommunikasiya texnologiyaları və rabitə (telekommunikasiya və poçt) sahələrində tənzimləmə və nəzarəti, eləcə də radiospektr idarəçiliyini həyata keçirir.

Zakir Bayramlı,
şair-publisist, AYB və AJB-nin üzvü



# Ailənin, cəmiyyətin və dövlətin ortaq problemi

**Dünyada miyonlarla ailənin birliyini və möhkəmliyini sarsıdan, cəmiyyət və dövlət üçün böyük bəlaya, ağır yükə, çətin həllini tapan problemə çevrilən zorakılıq həmişə insanları maraqlandıran aktual mövzulardan olub. Zorakılıq sözünün mənası haqqında oxuculara əvvəlki söhbətlərimizdə qısa da olsa məlumat vermişik. Məişət zorakılığı yaxın qohumluq münasibətlərindən, eləcə də birgə yaşamaqlarından sui- istifadə etməklə ailənin bir üzvünün digər üzvünə və ya üzvlərinə qəsdən fiziki və ya mənəvi cəhətdən zərər vurmasına deyilir. Həmin zorakılıq halı güclü tərəfin zəif tərəfin insanlarını hədələmək, qorxutmaq, söymək,döymək, digər işgəncə üsullarından istifadə etməklə öz istək və maraqlarına uyğun zorla özünə tabe etdirmək cəhdi kimi qiymətləndirilir. Məişət zorakılığı yer üzünü bir kabus kimi dolaşaraq hər ölkəyə yayılmış, çoxlu araşdırma və təhlil tələb edən, çox ciddi, olduqca mürəkkəb və həssas , çox vaxt dramatik situasiyalarla və bədbəxt hadisələrlə, ölümlə və özünüməhvlə nəticələnən bir zorakılıq halıdır. Dünyada və respublikamızda məişət zorakılığının gündəlik vəziyyəti haqqında hər gün radio və televiziya xəbərlərindən, gündəlik qəzetlərdən ilkin məlumatlar almaq mümkündür.**

Məişət zorakılığından adətən müdafiəsiz, zəif, xəstə,əlil və qoca insanlar, eləcə də qadınlar, gənclər, xüsusilə gənc qızlar, yeniyetmələr, hətta uşaqlar da ciddi zərər çəkir, onlar müxtəlif formada təsvüzə məruz qalırlar. Ümumilikdə məişət zorakılığı həm ailə, həm də cəmiyyət üçün böyük təhlükə mənbəidir. Dünya üzrə zərərçəkənlərin statistikasını araşdırdıqda zərərçəkən insanlar arasında ən çox qadınlar və qızlar üstünlük təşkil edir.

Məişət zorakılığının qarşısının alınmasında ailənin, cəmiyyətin və dövlətin üzərinə böyük vəzifələr düşür. Bu vəzifələr ilk öncə ailələrdə geniş izahat və maarifləndirmə işlərinin aparılması ilə başlayır. Lakin aparılan maarifləndirmə işi effekt vermədikdə, zorakılığı tötədənin uzun müddət cəzasız qalması üzündən ailədə zorakılıq halı təkrar olunduqda və ya şiddətləndikdə, onda hüquqi normalar daxilində məsələyə müdaxilə edilməlidir.

BMT çərçivəsində məişət zorakılığının qarşısını almaq üçün BMT-nin İnsan Hüquqları Bəyannaməsi, Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Pakt, Avropa İnsan Hüquqları Konvensiyası və onun Protokolları, Avropa Sosial Xartiyası, Avropa Şurası Nazirlər Kabinetinin ”Cinsi ayrıseçkiliyə qarşı hüquqi müdafiə haqqında” və s. qərarlar qəbul edilmiş və onların icrası həyata keçirilmişdir. Lakin məişət zorakılığına qarşı beynəlxalq səviyyədə və ayrı-ayrı ölkələrdə nə qədər təbliğat və maarifləndirmə işləri aparılsa da , hər il bu mövzuda neçə-neçə qərarlar qəbul edilsə də , cild-cild kitablar, bülletenlər,bukletlər və s. çap olunsa da yenə də dünyada məişət zorakılığının səviyyəsi ildən-ilə artır. Nəticədə ailələr dağılır, boşanmalar artır, qadınlar və uşaqlar başsız və nəzarətsiz qalır, dövlətin büdcəsinə külli miqdarda ziyan dəyir. Eyni zamanda məişət zorakılığından qaynaqlanan ailə münaqişələri zamanı törədilən cinayətlər zamanı günahsız öldürülən və şikəst olan qadınların və uşaqların sayı getgedə çoxalır.

Azərbaycan Respublikası BMT-nin Baş Assambleyasının 1979-cu ildə qəbul etdiyi Qadınlara Qarşı Ayrıseçkiliyin Bütün Formalarının Ləğvi üzrə Konvensiyasına 1995-ci ildə qoşulmuşdur. Həmin konvensiyasının əsas məqsədi kişi və qadınların hüquq bərabərliyi əsasında siyasi, iqtisadi?sosial?mədəni və s. sahələrdə insan hüquqlarının qorunmasını təmin etmek? qadınlara qarşı ayrıseçkiliyi tam aradan qaldırmaqdır. Qadınlara qarşı törədilən zorakılığın bir sıra səbəbləri vardır. Bunlara spirtli içkilər,narkotik və psixotrop maddələr, qumar oyunu və b. səbəbləri göstərmək olar.

2010-cu ilin 22 iyununda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikası Qanununu təsdiq etdi. Həmin Qanun yaxın qohumluq münasibətlərində olmaqla birgə yaşayışdan sui-istifadə etmək yolu ilə törədilən zorakılıq hallarından yaranan mənfi hüquqi, tibbi və sosial nəticə doğuran halların qarşısının alınmasını tənzimləyir. Eyni zamanda həmin hüquqı sənəd məişət zorakılığına məruz qalmış şəxslərin sosial müdafiəsini təmin edir. Hüquqi yardıma ehtiyacı olanların yardımla təmin edilməsi, ailədə və cəmiyyətdə baş verən məişət zorakılığı hallarının aradan qaldırılması üçün müvafiq tədbirlər görülməsini nəzərdə tutur. Bu Qanunun və məişət zorakılığı ilə əlaqədar digər qanunvericilik aktlarının tələblərini pozan şəxslər Azərbaycan qanunları əsasında məsuliyyət daşıyırlar.

Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2011-ci ildən BMT-nin İnkişaf Proqramı ilə birikdə ”Azərbaycanda kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatında iştirakının təşviqatı” texniki yardım layihəsi həyata keçirilmişdir. 2020-ci ildə respublikada 9 Qadın Resurs Mərkəzi olmuşdur.

Məişət zorakılığının qarşısının alınmasında dövlətin yerinə yetirməli olan vəzifələr də çoxdur. Bura baş vermiş məişət zorakılığı ilə bağlı araşdırma aparılması, zorakılıq hadisəsini törətmiş şəxslərin məsuliyyətə cəlb olunması, zərərçəkmiş şəxslərin hüquq və azadlıqlarının və qanuni mənafelərinin müdafiə edilməsi, müraciət etmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi, zərərçəkənə dövlət hesabına hüquqi yardımın göstərilməsi, məhkəmə qərarlarının icrasının təmin olunması, zorakılıqla bağlı xəbərdarlığın icra edilməsinə nəzarət edilməsi, zorakılıq törətmiş şəxsin valideyn hüququnu məhdudlaşdırmaq və ya onu həmin hüquqdan məhrum olunması və digər vəzifələr daxildir. Məişət zorakılığı ilə bağlı baş vermiş zorakılıq halı barədə dövlət orqanına məlumat verənlər haqqında müvafiq icra hakimiyyəti orqanında məlumat bankı yaradılır. Bu bankda hər kəs üçün fərdi qaydada baş vermiş məişət zorakılığının vaxtı, təyinatı, məişət zorakılığını törədənin və zərərçəkənin şəxsi məlumatları saxlanılır. Bankın yekunlaşdırdığı məlumatlar toplusu müvafiq icra hakimiyyəti orqanına təqdim edilir. Dövlət tərəfindən məişət zorakılığından zərər çəkmiş şəxslər üçün yardım mərkəzləri təşkil olunur. Burada zərərçəkənlərə göstərilən bütün yardım və digər xidmətlər pulsuzdur. Yardım mərkəzlərinin əsas vəzifəsi zərərçəkən şəxsləri işlə təmin edilməsinə, yeni peşələrə yiyələnməsinə köməklik göstərmək, tələb olunduğu halda psixoloji reabilitasiya kurslarına cəlb etmək, sosial müdafiəsi məqsədilə sənədlərin hazırlanmasına yardımçı olmaq, lazım gələn zəruri hallarda zərərçəkənləri sığınacaqla təmin etməkdən və b. ibarətdir. Zərərçəkən yeniyetmələr 3 ay müddətinədək, digər şəxslər isə 2 ay müddətinədək sığınacaqdan istifadə edə bilərlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi məişət zorakılığı ilə bağlı araşdırma aparmışdır. Məlum olmuşdur ki, təkcə 2020-ci ilin yanvar-iyun aylarında qeydə alınmış məişət zorakılıq hadisəsi ilə bağlı 646 cinayət hadisəsi olmuşdur. Aparılmış araşdırma nəticəsində aydın olmuşdur ki, məişət zorakılığı respublikamızda baş verən cinayət hadisələrinin 4,9 %-ni təşkil edir. Zorakılıqla bağlı cinayətlərin 6,3%-i isə sərxoş vəziyyətdə törədilmişdir. Həmin statistik məlumata əsasən zərərçəkənlərin 77%-ni qadınlar, 1,4%-ni isə yetkinlik yaşına çatmayanlar təşkil etmişdir.

**Azərbaycan Respublikasında məişət zorakılığı ilə mübarizəyə dair Milli Fəaliyyət Planının həyata keçirilməsi üçün Respublika Nazirlər Kabineti başda olmaqla bir sıra nazirliklər, komitələr və digər baş idarələr bu işə cəlb edilmişdir. Bura Ailə,Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Daxili İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi, Maliyyə Nazirliyi, Dövlət Statistika Komitəsi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi və digər agentliklər daxildir.**

*Elxan Şükürlü*

# Həzrəti Əlinin cavabı...

***Bir gün bir nəfər əziz Peyğəmbərimizin (s.) "Elm şəhərinin qapısı" adlandırdığı, böyük iman, zəka və cəsarət sahibi Həzrəti Əlidən soruşur: "Bayram nədir?"***

***İmam cavab verir: "Günahsız keçirə bildiyi hər gün insan üçün bayramdır".***

***Bəli, İslamda bayram kimi qeyd edilən hər bir hadisənin mahiyyətində belə, İnsana hansısa hikməti, dəyəri, mühüm əxlaqi-mənəvi keyfiyyəti aşılamaq, çatdırmaq, xüsusən də onu günahlardan, pis əməllərdən çəkindirib yaxşılığa, xeyirxahlığa doğru yönəltmək niyyəti, məqsədi yatır.***

***Hər bir müsəlman üçün yerinə yetirilməsi vacib əməllərdən sayılan orucluğun mahiyyətində isə İnsanın bütün bəla və qəbahətlərinin qaynağı olan nəfsiylə, tamahıyla mübarizəsinin, fiziki və mənəvi paklığının onun həm özünə, həm də başqalarına, bütövlükdə cəmiyyətə faydasını anlatmaq hikməti durur.***

***Təsadüfi deyil ki, əziz Peyğəmbərimiz (s.) "Nəfsə qarşı mübarizə ən böyük cihaddır" deyir, bu cihadda qələbə üçünsə iman və təqva zirehini geyməyi, şükür və səbirlə silahlanmağı vacib sayırdı...***

***Mən də əyninə iman və təqva zirehini geyib, səbir və şükürlə silahlanaraq, öz nəfsiylə mübarizə aparan və onu yenməyi bacaran, yaxşılığı, mərhəməti, səxavəti, ədaləti və ləyaqəti həyatına meyar edən bütün dostlarımı bu Ramazan Bayramı münasibəti ilə səmimiyyətlə təbrik edirəm!***

***İman və təqva zirehiniz deşilməz, nəfsiniz üzərində zəfəriniz daimi, dualarınız qəbul, mükafatınız isə hər şeyə qadir Allahdan olsun!***

***Unutmayın və əmin olun: Allah nəfsinə qalib gələnləri mütləq və mütləq mükafatlandırar!***

***Allah bu Ramazan Bayramını bütün İslam Ümmətininin əfv edildiyi, günahlarının bağışlanıldığı, birləşdirildiyi və yüksək tərəqqiyə götürüldüyü xeyirli, uğurlu bir başlanğıca çevirsin!***

***Ramazan Bayramınız mübarək!***

*Əntiqə Kərimzadə*

# "Peşmanlıq hissi üzümə şillə vururdu"

**Xalq artisti Vidadi Həsənov haqqında "epizod"**

***Hələ uzun illər əvvəl tanıdığın (aktyor kimi mavi ekrandan) insanın sənin üçün yeni xüsusiyyətləri üzə çıxırsa, həmin adam sənə daha da maraqlı gəlir. Üstəlik bu xüsusiyyətlər müsbət müstəvidə canlanırsa, nə xoşbəxt sənin halına… Həmin xoşbəxtliyin ləzzətini heç nədən ala bilmirsən. Bir müddət əvvəl- yaxın keçmişdə hər zaman aktyor kimi gördüyüm əməkdar artist Vidadi Həsənovu şair kimi də tanıdım. Əslində rolları həmişə diqqətimi cəlb edirdi. Ancaq şeirlərini daha da diqqətlə dinlədim. Hər dinlədikcə içimdəki peşmanlıq hissi üzümə "şillə vururdu". Aktyor-şairi dinləyəndə çox təəssüf etdim ki, niyə mən bu insanın poetik tərəfini daha əvvəl tanımamışam.***



***"Şair olmaq istəmirəm" desə də aktyorun şeirləri dəyərli şairlərin şeirlərindən heç də geri qalmır. Özü deyir ki, "İndi şairləri dilindən soyurlar, Dabanımın nə vecinə". İlk olaraq hər kəsin ağlına Nəsimin edam səhnəsi gəlir. Doğrudur, elədir. Ancaq, bu, məsəlinin görünən tərəfidir. Bəs misraların alt qatı…? İndi deyəcəksiniz ki, onu şair yazıbsa bizdən daha yaxşı özü anlayır. Ancaq bir məqam da var- Vidadi müəllim anlayaraq yazdığını oxucuya-bizə anlatmaq istəyir . Bizi də düşüncədən qısır etmir.***

***Həmişə elə düşünürdüm ki, bu aktyor danışan kimi səsi ətrafı bürüyəcək. Ancaq sakit bir səslə danışmağı bütün fikrimi çilikləyirdi. Zahirən zəhmli görkəmi olan bu aktyorun xırıltılı səsindəki mərhmət hissi SÖZə hopur. Hələ aktyorun bir "dost"u da var. Boş vaxt tapan kimi yorğun qolları ilə sevimli gitarasına sarılır. Ötən illəri o gitara ilə xatırları, olanları o gitara ilə unudur və bəzən də yaşamaq həvəsini həvəslə ifa etdiyi o musiqi parçalarından alır.***

***Müsahibələrinin birində bədii rəhbəri olduğu "M-teatr" haqqında danışanda belə bir söz demişdi: "qarın da süfrə deyil ki, hər kəsə açasan". Ancaq düşünürəm ki, istedadlı aktyor təkcə "M-teatr"la bağlı məsələlərə görə deyil, həm də bu günümüzün kino və teatr sənətinə görə "süfrəsini heç kəsə açmır". Kimə açsın axı?! Atalar demiş, kor-kor gör-gör. Kimdən kimə şikayət etsin?!***

***Çox sevindirici haldır ki, "M-teatr" artıq daimi olaraq bir məkanda tamaşalarını nümayiş edir. Düşünürəm ki, "M-teatr"ın varlığı teatr sevənlərin müjdəsidir.***

***Bəzən düşünürəm ki, mükəmməl istedada malik olan bu aktyoru nə vaxta qədər "Adil", "Musa" və ya "Yavər" kimi xatırlamalıyıq?!***

***Axı hər ay bir serial çəkildiyi bir ölkədə Vidadi Həsənov kimi aktyoru niyə 2-3 ildən bir kinolarda görməliyik?- demişdim ki, böyük tamaşaçı kütləsi olan "Ata ocağı"nda "Akif" olaraq gördüm.***

***Onun yaradıcılığı bənzərsizdir. Vidadi Həsənovun şeirlərindəki rəngarəngliyi sevirəm. O şeirlərdə yeni nəfəs, yeni fikir və bəzən də yeni idea tapmaq mümkündür.***

***Aktyorun özünəməxsus şəxsi keyfiyyətləri də var ki, insanın diqqətindən yayınmır. Bütövlükdə onun yaradıcılığını və şəxsi keyfiyyətlərini analiz edəndə bu qərara gəlirəm :***

***Bu ad Vidadi Həsənov kimi yazılır, şərəf, ləyaqət, istedad və vicdan kimi oxunur.***

# Əməkdar artist: "Elə insanlar var ki, həqiqətən öz yerlərində deyillər"

*90-cı illərin gəncləri onu ”Yad qızı”nın ”Haldun”u kimi tanıyırlar. Son 10 ilin gəncləri isə onu ”Stalinin başı” komediyası ilə sevirlər. Müsahibim əməkdar artist Kazım Həsənquliyevlə aktyorluq sənətinin məsuliyyətindən, teatrda baş verənlərdən və bu sənətin çətinliyindən danışdıq.*

**- 90-cı illərin məşhur televiziya tamaşası ”Yad qızı”nda yaddaqalan obraz yaratdınız və kifayət qədər də sevildiniz. Ondan sonra nədənsə tamaşaçılarınız sizi ekranda görmədi. Buna səbə nə idi?**

-Biz sizinlə söhbətimizi ardıcıllıqla başlasaq daha məqsədəuyğun olar. Sözü gedən məşhur tamaşa televiya tamaşası idi. Mən Haldunu ifa etməzdən əvvəl tələbəlik illərim var idi. Bu illərdə mən hələ ali məktəbin 1-ci kurs tələbəsi idim. Bu tamaşanı mərhum rejissor Lütfi Məmmədbəyov çəkmişdi. Elə o vaxtdan Lüfi müəllim mənə demişdi ki, bir tele-tamaşada sənə rol verəcəm. Qismət belə gətirdi ki, mən Haldunu oynamalı oldum. Bu tamaşa çəkiləndən sonra mən ali məktəbin 3-cü kurs tələbəsi olanda quruluşçu rejissor xalq artisti Mərahim Fərzəlibəyovun quruluşunda ”Mənim ağ şəhərim” adlı bədii filmdə baş rolu ifa etdim. Həmin il Azərbaycanda ilk teleserial olan ”İtgin gəlin” seiralında rol aldım. Bundan sonra isə yenə də M.Fərzəlibəyovun quruluşunda ”Qaçaq Süleyman” filmində rol adım.Bilirsiniz, mən heç kəsi qınamıram. Düşünürəm ki, yəqin günah mənim özümdədir ki, həmin ərəfələrdə rejissorlar üçün maraqlı olmamışam. Yəqin ki, bu belədir.

**-Bu, rejissorların günahı idi, yoxsa sizin sənətinizə birbalaca arxayınlığınız idi?**

- Xeyr, xeyr. Sənətə arxayın oldunsa, onda gərək gedəsən. Mən hal-hazırda sizinlə müsahibədən sonra məşqə gedəcəm. Mənim üçün teatr hər şeydən vacibdir. Teatrda işləyən adam hər gün fəal olur. Ancaq kinoda isə bu belə deyil. Onu da qeyd edim ki, teatrdakı aktyorlar rahatlıqla serialda və ya filmdə yaxşı rol ifa edə bilirlər. Çünki artıq bu aktyorlar səhnənin hər tərəfini canlı rolla müşahidə edə biliblər. Yəni tamaşaçıya canlı obrazlar nümayiş etdiriblər. Bu, aktyor üçün çox vacib məqamlardan biridir.

Sizin dediyiniz o arxayınlıq söhbəti heç zaman ola bilməz. Kim özündə arxayınlıq yaradıbsa, elə bil onun sonu gəlib çatıb.

Məndə isə arxayınlıq deyildi. Sadəcə rejissorlar məni görmürdülər. Yeni nəsil gələn rejissorların aktyor seçimi, baxış prizması fərqli idi. Yəni indiki dövrdə isə heç bir rejissoru məcbur etmək olmaz ki, mütləq məni filmə çək. Bu mümkün deyil.

**-Ümumiyyətlə, elə rol olubmu gözləmisiniz ki, rejissor o rolu sizə həvale etsin. Ancaq həmin rol başqa aktyor yoldaşınıza verilib.**

- Ümumən, hər bir aktyorun içində bir istədiyi obraz var. Hətta deyərdim ki, obraz yox, obrazlar var. Ancaq mən yalnız o obrazı oynamaq arzusunda ola bilərəm. Əgər rejissor o obrazı mənə həvale etmirsə, mən deyə bilmərəm ki, həmin obrazı mənə ver. Amma bütün bunlardan əlavə mən həmin rolun adını çəkə bilmərəm.

Çünki o rolun adını çəkməklə mən müəyyən dostluq sərhədlərin pozmuş ola bilərəm. Bunu lazımsız bilirəm. Axı bunun nə mənası var ki?

**-Akyor üçün istedad kifayət edir, yoxsa o, daim çalışmalıdır?**

- Xeyr, qətiyyən istedad kifayə etmir. İstedaddan əlavə illərin zəhməti gərəkdir. Aktyor zəhmətsiz ucala bilməz. İstedadı mütləq yönləndirmək lazımdır.



**- Səhnəyə yeni addımlarda maneələri hiss edirdiniz?**

-Məni indi də o maneələri hiss edirəm. Mən ömrümün 24 ilini teatr səhnəsinə həsr etmişəm. Bütün insani dəyərləri və münasibətləri yaşından aslı olmayaraq bütün həmkarlarla qorumaq lazımdır.

**-Bəs sizin özünüz necə, gənc aktyorlara dəstək olursunuzmu?**

- Yaşından aslı olmayaraq hər bir aktyor bu teatrın işçisidir. O ki qaldı gənclərə, sizə deyim ki, onlar bu teatra qəbul edirlərsə demək ki, onlar artıq həyatı dərk edən gənclərdir və artıq onların uşaqlıq çağı arxada qalıb. Azərbaycan Dövlət Milli Akademik Dram Teatrında çalışan hər bir gənc aktyor öz çalışdığı teatrın məsuliyyətini bütövlüklə dərk etməlidir. Təbii ki, məlum məsələdir ki, gənclər hələ indən belə səhnədə yetişəcəklər və bu sənəti daha dərin öyrənəcəklər. Dediyim ki, axı istedadla bərabər zəhmət də gərəkdir.

**- Nəyə görə məhz teatr?**

-Hə, maraqlı sualdır. Bu, artıq ayrı bir mövzudur. Mən yenə də biraz əvvəl danışdığımız mövzuya qayıtmaq istəyirəm. Teatr aktyoru filmə çəkiləndə rejissordan əvalə onun çəkiliş meydançasında obraza tam fərqli bir yanaşması olur. Dediyim kimi, axı teatr canlı səhnədir. Yüzlərlə tamaşaçı səni izləyir və sən də canlı səhnədə bir obrazı yaradırsan və orda özünəməxsus jestlərin də mütləq ki, yer alır. Ancaq kino aktyoru heç vaxt teatrda bunu edə bilməz. Teatr akyoru hər gün səhnədədir. Hər gün canlı səhnədə olan aktyorun potensialını təsəvvür edirsinizmi?Teatr akyoru filmə çəkiləndə yalnız və yalnız rejissordan ”motor” sözünü eşitməyə tələsir ki, bütün istedadını mükəmməlcəsinə filmdə nümayiş etdirsin.

**- Etiraf edək ki, aktyorların çoxuna yüksək dəyər verilmir. Bu, yəqin ki aktyorun ruhdan düşməyinə səbəb olur...**

-Hər kəsin öz vəzifəsinə aid daşıdığı bir yük var. Çox zaman istedadlı aktyorlara bu mənəvi sənət yükünü daşımasına şərait yaratmırlar. Elə insanlar var ki, həqiqətən öz yerlərində deyillər. Çünki hər kəsə öz görəcəyi işi tapşırmırlar. Bu isə uğursuz nəticələrə səbəb olur. Bu kimi addımlar da istedadlılara mane olur. Bu, birmənalı şəkildə belədir.

**- Aktyorlar arasında ”mütləq bu rolu mən oynamalıyam” prinsipi olurmu?**

- Biz bunu əvvəldə qeyd etdik ki, aktyoru rejissor seçir. Ancaq normal düşüncəyə malik aktyor qətiyyən belə bir prinsipə düşmür. Çünki bu əsassız prinsip yalnız həmin aktyorun özünü dəyərdən sala bilər. Normal aktyor bunu mübahisəyə gətirib çıxarmaz. Bu aktyora yaraşan söz deyil. O ki qaldı intriqaya, teatra aid olmayan və teatrdan kənarda elbəttə ki, çox intriqa baş verir. Bunlar isə yalnız şəxsi münasibətlərdir. Təbii ki, aktyor da insandır, onun da özünə görə əqidəsi və həyat prinsipi var. Buna görə aktyoru günahlandırmaq və qınamaq özü bir günahdır. Teatrdakı intriqalar isə çox kiçik intriqalardır.

**- Teatrdakı bu kiçik intriqalara görə küsmək olarmı?**

- Bilirsiniz, bu hadisələr səhnədə baş versə də insan qəlbidir, təbii ki, bizə adi gələn bir söz kiməsə xoş gəlməz. Axı insan xarakterləri də müxtəlifdir. Hələ düşünəndəki həmin adam yaradıcı insandır...

**- Bəs sizdə necə olub belə hallar?**

-Hamımızın həyatında baş verə bilər. Ancaq qısa zaman kəsiyində məsələ aydınlaşıb və hər şey öz həllini tapıb.

**- Məsələ öz həllini tapmasında ilk addım sizdən gəlib, yoxsa qarşı tərəfdən?**

- Bilirsiniz, o artıq mənim düşdüyüm vəziyyətdən aslıdır. Ancaq mübahisənin qaynağı məndən gəlibsə, addım atmaqdan çəkinməmişəm. Ancaq qarşı tərəf düz hərəkət etməyibsə, təbii ki, qarşı tərəfin addımın gözləyirəm.

**- Ümumiyyətlə həyatda kinli insansınız?**

- *(Çox fikirləşir)* Heç özüm də bilmirəm.

**-Təsəvvür edin ki, səhnədə rol oynayırsınız . İllərlə görmədiyiniz insan tamaşaçı qismində zalda əyləşib və birdən gözünüz ona sataşır. Bu vəziyyət səhnədəki əhvalınıza təsir edərmi?**

- Yox, qətiyyən! Nə üçün təsir etməlidir ki? Mən səhnədə olarkən tamaşaçıya diqqətlə baxmıram ki, kimisə dəqiqliklə tanıyım. Bunlar hamısı romantikadır. Belə romantik vəziyyət isə yalnız səhnədə olur, vəssalam. Real həyatda belə bir şey yoxdur! Real həyatda ramantika ilə yaşamaq olmaz! İndiki dövürdə axı nə romantika olsun ki? İndi romantika üçün şərait yoxdur. Ola bilsin ki, bu sözlərimlə kimsə razılaşmasın. Həmin razılaşmayan insan gəlsin yanıma onunla real həyat hadisələrindən söhbət edək, mən ona bu sözlərimi sübut edim.

**Əntiqə Kərimzadə**

# Bakcell böyük dəyişiklər astanasında

**Son bir neçə həftə ərzində ölkənin media gündəmindən çıxmayan Bakcell ”yeni dövr başladırıq” şüarı ilə növbəti videonu paylaşıb. Yeni reklamda Azərbaycanın bir çox tanınmış simaları Bakcell brendinin böyük dəyişiklər astanasında olduğunu bildirir və bir çox yeniliklər gətirəcəyini vəd edir.**

Şirkət heç bir rəsmi açıqlama verməsə belə, videolarda innovasiya, süni intelekt və yeni məhsullarla bağlı mesajları sezmək olur. Ən son reklamda isə tarix və məkan qeyd olunub; 25 aprel 18:00, Bakı Bulvarı. Maraqlıdır, Bakcell-in #Qarşılayın çağırışı Azərbaycana hansı texnoloji yenilikləri gətirəcək?



# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 13 (2387) 19 aprel 2024-cü il

**Hər bir insanın öz yurdu, öz evi və öz ocağı var. Və həmin yurd da, ev də, ocaq da istiliyi ilə həmin insana bir rahatlıq, bir ruh sakitliyi gətirir. Ən azndan ona görə ki, heç kəs öz evində, öz yurdunda, öz ocağında tapdığı rahatlığı başqa yerdə tapa bilmir. Hətta doğma qardaşının, bacısının evində belə öz ocağında olduğu kimi rahat qala bilmirsən. İçində həmişə bir narahatlıq və yurd yeri sıxıntısı olur.**

Füzuli rayonunun əhalisi də 1993-cü ilin avqustun 23-də erməni işğalı zamanı öz yurdyuvasından pərən-pərən düşdü. 120 min əhalisi olan rayon camaatı Azərbaycanın digər bölgələrində məskunlaşdılar. Yenə çox sağ olsun dövlət və öncə də Ulu Öndər Heyər Əliyev 1 milyon qaçqına arxa durdu və kömək göstərdi. Ən çətin vəziyyətdə belə insanlar Prezident Heydər Əliyevin dəstəyini hiss etdilər və gördülər. Gördülər ki, nəinki Füzuli camaatının, eləcə də 1 milyondan çox məcburi köçkün və qaçqının yerləşdirilməsi, yaşayışı, qida ilə təmin edilməsi dövlətin əsas vəzifəsi oldu.

elecə də Horadiz şəhəri yenidən tikilməli idi.

İşğaldan azad olunmuş yaşayış məntəqələrindən biri də qədim tarixə və mədəniyyətə malik Babi kəndi idi. Bu kəndin çox zəngin keçmişi vardır. Bu barədə tarixçilər müxtəlif elmi mənbələrdə öz fikirlərini səsləndiriblər. Təkcə XII əsrə məxsus türbəni xatırlamaq nəyə desən dəyər. Erməni faşistləri bu türbənin müəyyən hissələrini də dağıtmışdılar. İşğaldan sonra digər mədəniyyət abidələri kimi Babidəki türbə də bərpa olunaraq öz əvvəlki görkəminə salındı. Hətta deyilənə görə, həmin türbədən Cənubi Azərbaycana yeraltı yol da var. Və bunun nə dərəcədə həqiqət olub, olmadığını mütəxəssislər daha dəqiq deyə bilərlər. Bizsə deyə bilərik ki, Babi kəndi işğaldan azad olunandan sonra orada çox böyük tikinti-quruculuq işləri görüldü. Bütün infrastruktur yenidən quruldu.



# DOĞMA OCAĞIN İSTİLİYİ

Xalq da gördü ki, bu ağır, məqsəqqətli gündə dövlət onun yanındadır. Təbii ki, belə bir şəraitdə insanlar yaşamağa məcbur oldular və eyni zamanda ümidlərini də üzmədilər.

Çünki 1994-cü ilin yanvarın 4-də və 5-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 yaşayış məntəqəsini və Horadiz şəhərini erməni işğalından azad etdi. Bu torpaqlar, kəndlər işğaldan azad ediləndən sonra, qısa zaman kəsiyində həmin yerlərdə quruculuq-bərpa, tikinti işlərinə başlanıldı.

Hətta Horadiz kimi şəhəri ermənilər yandıraraq elə bir günə qoymuşdular ki, orada bir yaşayış mənzili belə qalmamışdı. Başqa sözlə demiş olsaq, erməni cəlladları Horadizin daşını daş üstə qoymamışdılar. Bu isə o deməkdir ki, işğaldan aza olunmuş yaşayış məntəqələri, kəndləri və

Kəndə asfalt yol, təbii qaz, su və işıq çəkildi, məktəb, uşaq bağçası və digər sosial obyektlər əsaslı surətdə yenidən tikildi. Ermənilərin xarabalığa çevirdiyi kənd bir neçə ilin ərzində dövlət tərəfindən yüksək səviyyədə yenidən tikərək, əhalinin istifadəsinə verdi.

Elə bundan sonra da yurd yerinə qayıdış başladı. İnsanlar gəlib gördü ki, onların yandırılmış, dağıdılmış evləri yenidən tikildi. Bu isə o deməkidi ki, bu kənddə hər kəs öz evinə köçüb, rahat yaşaya, işləyə və ömür sürə bilər. Artıq məktəb, uşaq bağçası, xəstəxana və bayaq dediyimiz kimi, digər sosial obyektlər tam fəaliyyət göstərirdi. Təbii ki, belə şəraitdə işləmək və yaşamaq da kənddə çox asan idi.

Biz Babi kəndinə yolumuz düşəndə həmişə oradakı çayxanada bir stəkan çay içməmiş rahat olmuruq. Bu dəfə də yolumuz yenidən bu qədim və zəngin keçmişi olan kəndə düşdü. Düzdü, hava soyuq idi və bir az da qar yağmışdı. Amma insanların səmimiyyəti və istiliyi bu soyuqluğu aradan götürür, çox doğma bir münasibət yaradırdı. Çayxanada tək çay verilmirdi, həm də müxtəli xörəklər bişirilib satılırdı. Bizim gəldiyimizi görən bir neçə sakin əyləşdiyimiz masanın ətrafına yığışdı. Heç 3-4 dəqiqə keçmədi ki, kəklikotudan dəmlənmiş çayı çayçı süfrənin üstünə qoydu və sonra da zarafatla dedi:

**- Bu çay sizin Bakıda içdiyiniz çay kimi deyil ey! Bir qurtum için, görün necə də gözəl ətri var?! Öz dağlarımızdan yığılan kəklikotudan dəmləmişəm. Bütün dərdlərin dərmanıdır!**

Armudu stəkana süzülmüş çaydan bir qurtum içirik, doğrudan da görürük ki, çox dadlıdır. Üstəlik stəkanı axıra qədər içirik. Çayın ətri hər tərəfi bürüyüb, sanki elə bil dağların qoynundayıq.

Masamızın arxasında əyləşmiş bir neçə Babi sakini də bizimlə söhbətə qoşulur. Nəcəf Məmmədov deyir ki, bizim kəndimiz həm qonaqpərvərdir, həm də ruzulu-bərəkətli.

Heç bir qonağı biz buradan çörək yeməmiş buraxan deyilik. Bax, səhər-səhər burada bütün yeməklər var: xaş, xəngəl, bal-yağ və eləcə də kənd yumurtası.

Hansından desəniz, çayçı gətirib masanın üstünə düzəcək. Bir-iki stəkan çay içəndən sonra bir də görürük ki, çayçı masanın üstünə həmin yeməkləri düzüb, özü də Nəcəf kişi deyir ki, hesabı da özüm verəcəm. Çünki, kəndə qayıdandan sonra hər cür imkanımız var. Bax, mənim özümün 70-ə yaxın qoyun-quzum, 10-15 də qara malım var. Üstəlik də onlardan hər gün nə qədər süd sağılır. Süddən qatıq, pendir, yağ, şor düzəldir,satığımızı satırıq, satmadığımızı özümüz yeyirik, artıq da qalanda qonaqqaraya pay veririk. Bax, onda elə bil ki, özümüz də mənən rahat oluruq.

Nəcəf kişi yanınakı dostunu da bizə təqdim edir. Deyir ki, bu da Əhməd Məmmədovdur. 10 hektar torpaq sahəsi icarəyə götürüb, orda bostantərəvəz məhsulları əkir. Üstəlik də bir-neçə hektar sahədə yonca toxumu səpərək, onu da becərir.

Əhməd kişi də elə-belə adam deyil ha, səhərdən axşama qədər bal arısı kimi tər töküb işləyir. Həyətində 100-ə qədər hinduşkası, 200-ə yaxın toyuğu var.

Onların yumurtalarını satmaqla yanaşı, həm də kəndimizin imkansız adamlarına pay verir. Bu yaxınlarda oğlunu evləndirib, ona təzə ev tikdirib, üstəlik də bir maşın bağışlayıb. Maşallah, oğlu da fərəsətli uşaqdır. Atasına yaxından köməklik edir və əkin-biçin işlərini özü çiyninə götürür və istəmir ki, atasının yükü ağır olsun.

İndi əlinizi süfrəyə uzadın, çörəyinizi yeyin! Biz də bir az qaymaq, bir az bal, bir az da yağı götürüb, çörəyin üstünə çəkirik. Çox dadılıdır və dadından doymaq olmur. Xaşı və xəngəli isə süfrəmizin arxasında əyləşmiş digər dostlar yeyirlər. Nəcəf kişi təzədən dillənir:

**- Siz Allah, yumurtanın da dadına baxın. Bu yumurta Bakıdakı yumurtadan deyil ey. İstəyirsiniz deyim, qlazok eləsinlər.**

**- Narahat olma, Nəcəf kişi, elə qaynadılmış yumurtanın birini yeyirik.**

Yumurtanın birini mən yeyirəm, birini də dostum Arif. Adama ləzzət eləyir, yumurtanın sarısı o qədər ləzzətlidir ki, dostum Arif birini də yeyir.

Nəcəf kişi onu da deyir ki, şükür Allaha, kəndimizdə hər cür şərait var, hamının evi-eşiyi, işi-gücü, bir sözlə, zəhmət çəkən adam onun bəhrəsini də görür!

**Başqa sözlə demiş olsaq, biz onu bir daha yəqin etdik ki, doğma ocağın istisini heç bir başqa yurd verə bilməz. Bunu bizimlə söhbətində neçə-neçə Babi kəndinin sakinləri dedilər. Onlar dedilər ki, biz yurda qayıdışdan sonra ikinci bir ömrü yaşayırıq. Buna görə Ulu Öndər Heydər Əliyevə və Prezident İlham Əlliyevə minnətdarıq. İndi Günəş bizim yurdda doğur və bu Günəş bizim yurda həmişə istilik gətirəcək!**

**Faiq QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# "Teatr qazanc mənbəyi deyil"

*Müsahibimiz Akademik Milli Dram Teatrının aktyoru, bir çox sevilən rolların ifaçısı Ramin Şıxəliyevdir. Müsahibimiz teatr baş verən maraqlı hadisələrdən söhbət açdı.*

**-Hansı maraq sizi bu sənətə gətirdi?**

-Bu sənət mənim uşaqlıq illərimin arzusu idi. Təxminən 5- 6 yaşlarımda bir taxta parçası götürüb aşıq kimi dastanlar deyirdim. Özüm üçün kiçik səhnələr hazırlamışam. Hələ 3-cü sinifdə oxuyurdum, orta məktəbdə mən "Məşədi İbad"ı oynadım. Hər kəs bu obrazı maraqla qarşılamışdı. Ümumiyyətlə, mən incəsənətə bağlı olmuşam. Çünki musiqi məktəbini bitirmişəm. Yəni həm də qarmon ifaçısıyam. Musiqi sahəsi nə qədər gözəl olsa da, marağım daha çox aktyorluğa idi. O üzdən də aktyor olmağı seçdim. Tam öz istəyimlə İncəsənət Universitetinə qəbul olmuşam.

**-Peşə seçiminizdə ailənizin narazılığı yaqin ki, oldu...**

- Atam çox istəyirdi ki, mən hərbiçi olum. Sonra gördü ki, o sahəyə həm o qədər meyilli deyiləm, həm də fiziki cəhətdən cüssəli deyiləm. O üzdən peşə seçimimdəki azadlığıma mane olmadı. Mən musiqi sahəsini seçmişdim. Onunla toylara da gedirdim. Bu mənə maddi cəhətdən də çox yaxşı təsir edirdi. Amma dedim yox, mən aktyor sənətini seçirəm. Aktyor kimi fəaliyyət göstərəndən sonra tamadalıq etmədim.

**- Niyə məşhurlar el şənliklərindən çəkinməyə başlayırlar?**

- Mən ali məktəbə qəbul olan kimi tamadalığa başladım. "Görüş kafesi" adlı verilişdə qonaq aktyor idim. O verlişdə 3-4 aktyoru parodiya etmişdim. Orda mərhum xalq artisti Yaşar Nuri mənimlə maraqlanmağa başladı.

Məndən nə işlə məğul olduğumu soruşdu. Dedim ki, toylara tamada kimi gedirəm. O mənə dedi ki, məndən yaxşı tamada olacaqsan? Dedim ki, əstağfürallah, qətiyyən elə bir fikirdə deyiləm, Yaşar əmi.

Yaşar Nuri dedi ki, "Evləri köndələn yar"dan sonra cammat məni tamada etdi.

Mən onu rol kimi ifa etdim, ancaq xalq məni realda tamada etdi. Toylara gedirdim saat 18:00-da tanınmış insan kimi hörmətim qorunurdu. Ancaq ondan 2- 3 saat sonra toyda içib keflənən üçün mənim məşhurluğum və ya aktyorluğum əhəmiyyətli olmurdu.

O mənə məsləhət gördü ki, aktyor sənətinə başlayandan sonra tamadalıqdan əl çəkim.

**-Bir tələbənin toyda tamadalıq etməsi onun istedadına, mənəvi ruh halına mütləq ki təsir edirdi...**

-Əlbəttə , axı aktyor da insandır. Təbii ki, bu çətinliklərə sinə gərmək gərək idi. Nə qədər çətin olsa da öhdəsindən gəlməyə çalışırdım.

Ancaq bu qədər yorğunluğa baxmayaraq, mən ali məktəbdə dərslərimə davamiyyətimi pozmurdum. Hətta mən magistratura pilləsini də bitirdim. Ancaq hələ belə bir fikrim yox idi. Çünki mən ali məktəbi bitirib hərbi xidmətə getməli idim.

Ancaq elə oldu ki "Meşşanın zadəganlığı"da baş rolu- Cənab Jurdeni ifa etdim. O əsər Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulacaq bir əsərdir. Mən onu İncəsənət universitetində ifa etdim. O vaxtki rektorumuz Timurçin müəllim bu tamaşanı izləyib demişdi ki, bu tələbə bizim universitet üçün gərəklidir. Həmin aktyor mütləq bizim ali məktəbdə qalmalıdır.

**- O zaman "Cənab Jurden"i tələbəlik uğurunuz adlandıraqmı?**

-Bəli, əlbəttə. Tələbəlik illərimin uğuru idi. Magistartura pilləsində təhsil almağımın səbəbi məhz həmin rol idi.

Sənət müəllimim Fikrət Sultanov , köməkçi müəllimlər Fərhad İsrafilov, Vidadi Həsənov idi. Ali məktəbdə təhsil almağıma baxmayaraq İlham Namiq Kamalın kursuna da dəvət almışdım. Məşqlərimi paralel davam edirdim. Atamın üç mərasiminin sabahsı günü Musiqili Komediya fakültəsində rol ifa etdim. Atamın yeddi mərasiminin səhərsi günü isə ali məktəbdə öz diplom tamaşamı ifa etmişəm. Onu da bizim rektorumuz Timurçin müəllimə demişdilər.



**-Maddiyyat üzündən teatr aktyorunun kinoya üz tutmağı bir teatr aktyorunu mənəvi cəhətdən yorurmu?**

-Sözsüz ki, yorur. Hətta deyərdim ki, çox yorur. Mən demək olar ki, 10-a yaxın serialda çəkilmişəm. O mənəvi yorğunluğu təbii ki, hiss edirdim. Çox təəssüf edirəm ki, kinostudiyalarda bədii filmlər yetərincə deyil. Hətta deyərdim ki, professional rejissorlar sırf maddiyyat xatirinə qeyri-peşəkar aktyorlarla işləməyə məcbur qalırlar. Çox professional rejissorlar belə bir məcburiyyət qarşısında qalıblar. Tetarı çox sevdiyim üçün teatrda qalmışam. Teatr qazanc mənbəyi deyil.

**-Gənc aktyorlara yetərincə qayğı göstərilməyəndə bu, gənc aktyoru ruhdan salırmı?**

-Bilirsiniz, gərək hər qayğının zamanını gözləyəsən. Teatrda 2- 3 ilə böyük uğurlar əldə etmək eşqi ilə yaşamaq olmaz. Çünki insanlar var ki 20-30 ildir səhnədə çalışırlar hələ indi- indi arzuladığı pilləyə çatıblar.

Allah aktyora ürək və beyin verir.İstedad isə bu iki amilin vəhdətindən yaranan bir hissdir. Əgər Allah bu iki amildən birini aktyora verməyibsə, həmin aktyor heç vaxt uğurlu obrazlar yaratmayacaq. Bu, mütləq ki belədir.

O qədər istedadsız aktyorlar var ki, səhnədən əl çəkmirlər. Aktyora qiymət verilmirsə, bu, akyorun günahıdır. Demək hələ həmin aktyor veriləcək qiymətə layiq deyil.

Aktyor istedadını sübut etmək üçün səhnədə bir epizodik rol da bəs edər. Yetər ki, həmin rol yadda qalan və sevilən olsun. Tamaşaçı o rola reaksiya verirsə, demək aktyor nəsə əldə edə bilib. Kiçik bir rol ilə aktyor bütün səhnədə görünə bilər. Elə də ola bilər ki, aktyor baş rolu ifa edir və heç bir marağa səbəb olmur. Bu, artıq aktyorun istedadının nə dərəcədə olmağından xəbər verir.

**-O zaman qeyd edək ki, aktyorun sevilməyi üçün baş rolun və ya epizodik rolun heç bir fərqi yoxdur. Elə deyilmi?**

-Bəli, qətiyyən heç bir fərqi yoxdur. Əsas həmin rolu istedadla ifa etməkdir. Profesional komedik aktyorlar var ki, ömründə bircə dəfə baş rol ifa edib.

Ancaq çox sevilir.

**- Tərəf müqabilinin istedadı Ramin bəy üçün nə dərəcdə önəmlidir?**

-Aktyor səhnədə oynadığı rolu hiss etməlidir. Mətni əzbərləyib səhnədə onu təkrarlamaq aktyorluq deyil. Elə tərəf müqabili var ki, rolu özü üçün oynayır. Ancaq elə də istedadlı tərəf müqabili var ki, tamaşaçı və öz tərəf müqabli üçün oynayır.

Çalışıram ki, ifa etdiyim rolların heç biri bir- birinə bənzəməsin.

Rollarımda xarakterik obrazları çox xoşlayıram. Bu, həm də aktyorun özünə güvəni deməkdir.

"Generalın son əmri"də "Fərari"ni ,"Nadir şah"da "Məhəmmədhüseyn xanı"ı "Ölülər"də "Kərbəlayi Vəli" "Ana-mın kitabı"da "Hüseyn"i, "Vəsiyyət"də "Stilist Timur"u "Müfəttiş"də "Bobcnskin"ni v.s kimi müxtəlif karaketrli obrazları ifa etmişəm.

Mən rollarımı bir-birinə oxşar tərzdə ifa etsəm teatrda işləmərəm! Teatrı tərk edərəm!

**-Ümumiyyətlə, gənc aktyorlar niyə bu qədər sərt qərarlı olular? Gah gedirlər, gah da küsürlər...**

- O aktyorun özündən aslıdır. Bu artıq aktyorun ona verilən dəyərdən yararlana bilməməyidir. Elə gənc aktyorlar var ki, onlara burda çox yüksək dəyər verilib. Rejissor ona baş rol verib. Yəni diqqətdən kənar qalmayıb.

Səhnədə iki şey vacibdir: istedad və şans! Əgər insanın şansı gətirisə, onun sevilməyinə heç kəs mane ola bilməz.

**-İstedadlı aktyorların diqqətdən kənar qalmağının günahkarı rejissorlar deyilmi?**

- Aktyorun ixtiyarı var ki, rejissordan rol tələb etsin. Eyni zamanda rejissorun da ixtiyarı var ki, aktyoru o rolda görməyib ona rol verməsin. Axı bu səhnəyə qoyulacaq tamaşa rejissorun yaratdığı əsər olacaq. Buna görə rejissordan küsmək heç də düzgün addım deyil. Hətta ola bilər ki, rejissorun şəxsi qəzəri olsun və həmin obrazı aktyora verməsin.

Küçədən keçəni filmə çəkmək olar, amma teatrda həmin adama rol vermək olmaz. Çünki teatr canlı səhnədir. Orda əsl aktyor istedadı tələb olunur.

Aktyor sənətini bitirməyib 1- 2rol ifa edib özünə aktyor deyənlər də az deyil. Mən elələrinə deyirəm ki, əzizim sən aktyorluq edirsən, amma aktyor deyilsən..

**Əntiqə Kərimzadə**

## *Əməkdar artist: "Yorğan- döşəyimi yandırdım"*



**Əməkdar artist Elnarə Abdullayeva uzun illər əvvələ qayıdaraq toy tədarükündən danışıb.**

Adalet.az bildirir ki, xanəndə bu qədər çox hazırlıq gördüyü üçün indi özünü qınayıb:

O, "Öz ailəmizə uyğun olaraq çoxlu yorğan- döşək hazırlatmışdım. Xoşlayırdım, çox istəyirdim ki, yorğan -döşəyin hərəsindən 10 dənə olsun. Çoxlu yastıqlarım olsun. Sonra deyirəm ki, bu sənə lazım idi, ay Elnarə? (gülür). Daha sonra onları yandırdım. İstəmədim."- qeyd edib. Müğənni o yorğan- döşəyi nə səbəbdən yandırmasını isə efirdə söyləməyib. Bu haqda verilən suala isə qısa cavab verib:

Xanəndə "Alergiyam oldu, həm də istəmədim. Nəysə, bu haqda danışsam, beş veriliş yetməz", söyləyib.

## *Nazənin aparıcıları qınadı: "Axı o insanın nə həddi var ki?!"*



**Müğənni Nazənin Salayeva aparıcı Zaur Nəbioğlu və Aysel Novruzovanı qınayıb.**

Adalet.az xəbər verir ki, müğənni aparıcılara irad bildirməkdən çəkinməyib:

"Xətrinizə dəyməsin, bəzən yalan danışırsınız. Sənətdə heç yeri olmayan bir insanın qarşısına sənətkarların şəkil qoyursunuz ki, bu insanlar haqda fikir bildirsin. O da gah ağız əyir, gah bəyənmir.

Bu doğru və etik deyil. Axı o insanın nə həddi var ki, Firuzə İbadova və ya Ruhəngiz Allahverdiyeva haqda fikir bildirsin. Mən həmin sənətkarları görəndə, hətta səhnədə çıxış edən belə məsuliyyətdən əllərim əsir. Onlar mənim üçün dəyərlidilər".

**Əntiqə**

---

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi sabiq millət vəkili, ictimai-siyası xadim

**Hadi Rəcəblinin**

vəfatından kədərləndiklərini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

---

Aslan Mehdiyev ailə üzvləri ilə birlikdə

**Vəliyəddin İsmayılovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

---

Nəbi Muxtarov ailə üzvləri ilə birlikdə

**Vəliyəddin İsmayılovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

---

Əbülfət Mədətoğlu ailə üzvləri ilə birlikdə

**Vəliyəddin İsmayılovun**

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

---

Faiq Qismətoğlu ailə üzvləri ilə birlikdə Bakı Dövlət Universitetinin professoru, sabiq millət vəkili

**İsgəndər Quliyevin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sona Çərkəz Saatlı rayonu Əliabad kəndində dünyasını dəyişmiş əzizi

**Əbülfəz müəllimin**

vəfatından kədərləndiyini bildirir və mərhumun övladlarına dərin hüznlə başsağlığı verir.

---

Fərman Kazımov ailə üzvləri ilə birlikdə **Fuad və Fazil Həsənov qardaşlarına** əzizləri

**Qurban Həsənovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 174
Çapa imzalanmışdır: 18.04.2024